Xalqın qəzeti!
# Xalq qəzeti
№ 276 (30392) 17 dekabr 2023-cü il, bazar
Gündəlik ictimai-siyasi nəşr
1919-cu ildən çıxır
Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti
xalqqazeti.az

# Tərəqqi və inkişafın möhtəşəm 20 ili

## Bu müddətdə ölkə iqtisadiyyatı 4 dəfə böyüyüb



Səhifə ➪ 3

# "Ermənistan Qarabağı birdəfəlik unutmalıdır"



**"ABŞ-ın Azərbaycana real təzyiq rıçaqları yoxdur. Azərbaycanda daxili sabitliyi pozmaq mümkün olmayacaq. Çünki Azərbaycan Respublikası effektiv siyasi hakimiyyət sisteminə malikdir və onun strukturu möhkəmdir".**

Bu sözləri üç həftə bundan əvvəl Azərbaycan mediasına açıqlamasında deyən rusiyalı hərbi ekspert, Xəzər Strateji Araşdırmalar İnstitutunun baş direktoru İqor Korotçenko bu gün Bakı və İrəvanın tezliklə sülhə gəlmək təşəbbüsləri, Ermənistandan keçəcək Zəngəzur dəhlizi, Qərbin bölgədəki yeni prioritetləri, eləcə də Rusiya–Ermənistan münasibətlərinin indiki durumu ilə bağlı fikirlərini bölüşür. Bu barədə onun "Caliber.az"a verdiyi müsahibəsindən qısa icmalı oxucuların diqqətinə çatdırırıq.

Əvvəlcə Bakı və İrəvanın 7 dekabr tarixli birgə bəyanatına toxunan rusiyalı ekspert bunun irəliyə doğru sıçrayış olduğunu söyləyir. Əcnəbi platformalardan vasitəçisiz birbaşa dialoqa keçidin səmərəliliyinin artıq ilk əlamətlərinin göründüyünü qeyd edən İ.Korotçenko bu məsələdə müsbətlərlə yanaşı, mənfilərin də yer aldığına diqqəti çəkir:

**(ardı 4-cü səhifədə)**

# ABŞ pulu, Hindistan silahı və Fransanın yağlı vədləri

## *İrəvan bəs sonra başına haranın daşını tökəcək?*

**"Ermənistan Hindistandan yaxınmənzilli "Akaş" zenir raket kompleksini (ZRK) almağa hazırlaşır. Bu kompleks görünən zonaları və nöqtələri rəqibin hava hücumundan etibarlı müdafiə etmək üçün nəzərdə tutulub". Bunu ermənilərin "EurAsianTimes" portalı yazıb.**

Xəbərdə daha sonra deyilir ki, İrəvanın silahlı qüvvələrinin arsenalına daxil edəcəyi bu kompleks qrup və ya avtonom rejimdə eyni vaxtda bir neçə hədəfi məhv etməyə qadirdir. Elektron qarşılıqlı təsir funksiyasına malik "Akaş" ZRK-sının bütün döyüş sistemi mobil platformalarda yerləşdirilə bilir. Kompleks 5–25 kilometr radiusunda uçan helikopterləri, qırıcı təyyarələri və PUA-ları havada effektiv şəkildə neytrallaşdırır. Bundan savayı, ZRK tamamilə avtomatik və çevik şəkildə hədəfləri aşkar edir və onları məhv edir".



Portal məlumatında, həmçinin bildirir ki, artıq Dehli "Akaş" ZRK-ları üçün sifarişləri qəbul edib və Ermənistan hərbi ixracın daha çox güman edilən istiqaməti sayılır. Xatırladaq ki, keçən ilin oktyabrında erməni mediası ölkənin Hindistandan PUA-lar, onlara sursatlar və "Akaş" zenit raket kompleksinin satın alınmasında maraqlı olduğu barədə xəbərlər yaymışdı.

*(ardı 4-cü səhifədə)*

# Azərbaycan beynəlxalq etimada və hörmətə layiq ölkədir



Səhifə ➪ 7

# "Biz o torpaqlara qayıdacağıq"



Səhifə ➪ 9

# Azərbaycana xidmətin alimlik etalonu

Səhifə ➪ 10

# Mərkəzi Asiya ölkələri ilə "yaşıl enerji" əməkdaşlığı



Səhifə ➪ 7

# Kənd təsərrüfatında yüksəliş davamlıdır



Səhifə ➪ 8

# Bəhreynin Kralı Əlahəzrət Şeyx Həməd bin İsa Al Xəlifəyə

**Əlahəzrət!**

Bəhreyn Krallığının milli bayramı münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı yetirməkdən məmnunluq duyuram.

Əminəm ki, Azərbaycan-Bəhreyn dostluq əlaqələrini möhkəmləndirmək, həm ikitərəfli, həm də çoxtərəfli müstəvidə qarşılıqlı maraq doğuran əməkdaşlığımızı genişləndirmək üçün bundan sonra da birgə səylər göstərəcəyik.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, dost Bəhreyn xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 13 dekabr 2023-cü il**

# Küveyt Dövlətinin Əmiri Əlahəzrət Şeyx Məşəl əl-Əhməd əl-Cabir əs-Sabaha

**Əlahəzrət!**

Qardaşınız – Küveyt Dövlətinin Əmiri Şeyx Nəvaf əl-Əhməd əl-Cabir əs-Sabahın vəfatı xəbərini dərin kədər hissi ilə qarşıladıq.

Bu ağır anlarda dərdinizə şərik çıxır, Sizə, ailənizin bütün üzvlərinə, Küveyt Dövlətinin dost xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm.

**Allah rəhmət eləsin!**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 16 dekabr 2023-cü il**

# “Diplomatik protokol bələdçisi” təqdim olunub



**Dekabrın 16-da Ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illik yubileyinin dövlət səviyyəsində qeyd olunması çərçivəsində Xarici İşlər Nazirliyi tərəfindən hazırlanan yeni “Diplomatik protokol bələdçisi”nin təqdimat mərasimi keçirilib.**

ADA Universitetində təşkil olunmuş tədbirdə Xarici İşlər Nazirliyinin nümayəndələri, xarici ölkələrin və beynəlxalq təşkilatların Azərbaycanda akkreditə olunmuş diplomatik missiyalarının rəhbərləri və əməkdaşları iştirak edib.

Tədbirdə çıxış edən XİN-in Dövlət protokolu idarəsinin rəisi Anar Nəcəfli xarici ölkələrin və beynəlxalq təşkilatların Azərbaycanda akkreditə olunmuş diplomatik missiya üzvlərinin immunitet və imtiyazlarının əks olunduğu “Diplomatik protokol bələdçisi” barədə məlumat verib.

Qırx bölmədən ibarət bələdçidə akkreditasiya qaydalarının, vergi və gömrük güzəştlərinin və digər diplomatik immunitet və imtiyazların öz əksini tapdığı vurğulanıb. Bələdçinin elektron formatda və kitab şəklində dərc olunduğu qeyd edilib.

Sonra Ulu öndər Heydər Əliyevin 1993-2003-cü illərdə ölkəmizə rəhbərlik etdiyi dövrdə Azərbaycanın xarici siyasətinə dair videoçarx təqdim olunub.

Tədbirdə çıxış edən Xarici İşlər Nazirliyinin Asiya idarəsinin rəisi Ramil Rzayev 1993-cü ildə Ümummilli lider Heydər Əliyev hakimiyyətə gələn zaman ölkəmizin ərazisinin bir hissəsinin işğal altında olmasına, dərin iqtisadi çətinliklərlə üzləşməsinə baxmayaraq, Ulu öndərin Azərbaycanda qısa müddətdə siyasi böhrana son qoyduğunu, 1998–2003-cü illərdə apardığı uğurlu xarici siyasət sayəsində respublikamızın xarici ölkələrin etibarlı tərəfdaşına çevrildiyini və beynəlxalq münasibətlər sistemində öz layiqli yerini tutduğunu vurğulayıb. Bu baxımdan “Diplomatik protokol bələdçisi”nin Ulu öndərin anadan olmasının 100 illik yubileyi dövründə hazırlanmasının xüsusi əhəmiyyət daşıdığını diqqətə çatdırıb.

Daha sonra çıxış edən Xarici İşlər Nazirliyinin Dövlət protokolu idarəsinin rəis müavini Rövşən Hüseynzadə “Diplomatik protokol bələdçisi”ndə əks olunan diplomatik immunitet və imtiyazlar ilə bağlı tədbir iştirakçılarına ətraflı məlumat verib, iştirakçıların suallarını cavablandırıb.

# Xarici hərbi attaşelər Müdafiə Nazirliyində



**Müdafiə Nazirliyinin Beynəlxalq Hərbi Əməkdaşlıq İdarəsində xarici dövlətlərin Azərbaycanda akkreditə olunmuş hərbi attaşeləri ilə ilin yekununa dair toplantı keçirilib.**

Toplantıda 2023-cü il ərzində ölkəmizdə hərbi əməkdaşlıq çərçivəsində görülən işlərdən danışılıb. Növbəti ildə bu istiqamətdə icra olunacaq fəaliyyətlər, o cümlədən perspektiv planlarla bağlı ətraflı məlumatlar verilib.

Tədbirin sonunda hərbi attaşeləri maraqlandıran suallar cavablandırılıb.

***XQ***



# Baş nazirin Rusiyaya işgüzar səfəri

**Dekabrın 16-da Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov Rusiya Federasiyasına işgüzar səfərə gedib. Bu barədə Nazirlər Kabinetinin mətbuat xidmətindən məlumat verilib.**

# Milli Məclis Sədrinin ICESCO-nun Baş direktoru ilə görüşü

**Milli Məclisin Sədri Sahibə Qafarova Mərakeş Krallığına rəsmi səfəri çərçivəsində İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatının (İSESCO) Baş direktoru Salim bin Məhəmməd əl-Malik ilə görüşüb.**



Azərbaycan ilə ICESCO arasında yüksək səviyyəli əməkdaşlıq əlaqələrinin mövcud olduğunu deyən Sahibə Qafarova, ölkəmizin İslam dünyasında qarşılıqlı anlaşmanın möhkəmləndirilməsi, dünyada sülhün və təhlükəsizliyin təşviqi sahəsində böyük səylər göstərən mühüm təşkilatlardan olan ICESCO ilə əməkdaşlığa xüsusi əhəmiyyət verdiyini bildirib.

Spiker sivilizasiyalararası dialoqun təşviqi, təhsil və digər sahələrdə gördüyü işlərə görə bu təşkilatın xoşməramlı səfiri adına layiq görülmüş Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın çoxşaxəli fəaliyyətini xüsusi qeyd edib.

Milli Məclisin Sədri Şuşa şəhərinin 2024-cü il üçün “İslam dünyasının mədəniyyət paytaxtı” elan olunmasından dərin məmnunluğunu ifadə edərək, bunun Şuşanın İslam sivilizasiyasının mərkəzlərindən biri kimi əhəmiyyətini nümayiş etdirmək üçün yaxşı fürsət olacağını bildirilib.

ICESCO-nun Baş direktoru rəhbərlik etdiyi təşkilatın Azərbaycanla əməkdaşlığın inkişafında maraqlı olduğunu bildirib.

Baş direktor Heydər Əliyev Fondunun İslam dünyasında təhsil, elm, mədəniyyət sahələrində gördüyü işləri yüksək qiymətləndirib. O, Azərbaycanın ianə ayırmasını onun ICESCO-nun işinə dəstəyinin daha bir təzahürü kimi dəyərləndirib. Baş direktor ICESCO-nun işinə verdikləri dəstəyə görə Azərbaycan Prezidenti İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya təşəkkürünü ifadə edib.

***

Mərakeş Krallığına rəsmi səfər çərçivəsində Milli Məclisin Sədri Sahibə Qafarovanın başçılıq etdiyi parlament nümayəndə heyəti Peyğəmbər muzeyi və “İslam və Mərakeş” sərgisi ilə tanış olub. Spiker Sahibə Qafarova xatirə kitabını imzalayıb.

Səfər çərçivəsində nümayəndə heyəti V Məhəmməd məqbərəsinə də gedərək, burada V Məhəmmədin və II Həsənin məzarlarını ziyarət edib.

***

Mərakeşin paytaxtı Rabat şəhərində, ICESCO-nun mənzil qərargahında, Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş konsert təşkil edilib. Milli Məclisin Sədri Sahibə Qafarovanın başçılıq etdiyi parlament nümayəndə heyəti konsertdə iştirak edib.

***Ə.BƏDƏLOV***
***XQ***

# Fövqəladə Hallar Nazirliyi 18 yaşını qeyd etdi



**Dekabrın 16-da Fövqəladə Hallar Nazirliyinin yaradılmasının 18-ci ildönümü və işçilərinin peşə bayramı münasibətilə nazirliyin inzibati binasında təntənəli iclas keçirilib.**

Kəmaləddin Heydərov FHN-in cari ildə dövlətimizin başçısının tapşırıqlarına və fəaliyyət istiqamətlərinə uyğun olaraq üzərinə düşən vəzifələrin öhdəsindən uğurla gəldiyini bildirib. İşğaldan azad olunmuş bölgələrdə əhalinin və ərazilərin təhlükəsizliyinin, insanların həyat fəaliyyətinin təmin olunması sahəsində aidiyyəti üzrə müvafiq tədbirlərin davam etdirildiyini bildirib. Qeyd olunub ki, Xüsusi Riskli Xilasetmə Xidmətinin “N” saylı xüsusi təyinatlı hərbi hissəsi işğaldan azad olunmuş ərazilərin minalardan təmizlənməsi işlərini fasiləsiz davam etdirir. Bu işlərdə ölkə başçısının diqqət və qayğısı sayəsində alınmış ən müasir minatəmizləyən robotlar da tətbiq olunur. İşğaldan azad olunmuş ərazilərdə yanğın təhlükəsizliyi daim nəzarətdə saxlanılıb, baş verən yanğınların operativ söndürülməsi təmin edilib. Nazirliyin nəzarət qurumları tərəfindən ərazilərdə aparılan yenidənqurma layihələri ilə əlaqədar müvafiq təhlükəsizlik tədbirləri görülüb.

Nazir bu il də ölkə ərazisində yanğın təhlükəsizliyi sahəsində əməliyyat şəraitinin diqqət mərkəzində saxlanıldığını, yanğın hadisələrinin qarşısının çevik alınaraq yayılmasına və ağır fəsadlarla nəticələnməsinə imkan verilmədiyini bildirib. Respublika üzrə cari il ərzində 13 min 891, o cümlədən Bakıda 4462, işğaldan azad olunmuş ərazilərdə 204 yanğın hadisəsi qeydə alınıb. Bu da orta hesabla hər gün 42 yanğına çıxış deməkdir. Yanğınlardan 15 yanğın yüksək saylı çağırışla söndürülüb. Ümumilikdə, yanğınların söndürülməsi zamanı 94 dövlət və 396 özəl obyekt, 334 çoxmənzilli bina, 514 fərdi ev, 455 yardımçı tikili, 304 ədəd müxtəlif təyinatlı texnika mühafizə olunub, 16 nəfərin həyatı real təhlükədən xilas edilib. Baş vermiş yanğınların söndürülməsi zamanı insan həyatı üçün təhlükə faktorları nəzərə alınaraq 762 nəfər təhlükəsiz əraziyə təxliyə edilib.

K.Heydərov deyib ki, xüsusi riskli xilasetmə qrupları 1286 müxtəlif xarakterli axtarış və qəza-xilasetmə əməliyyatları zamanı 1432 nəfər zərərçəkmişi xilas edib, həmçinin 93 nəfərin cəsədi deformasiyaya uğramış nəqliyyat vasitələrindən, bağlı qapı arxasından və dağıntılar altından çıxarılıb. Bununla yanaşı, yanğınsöndürən-xilasedicilər tərəfindən 168 nəqliyyat və digər qəzalarda 269 nəfər deformasiyaya uğramış nəqliyyat vasitələrindən çıxarılaraq ərazi üzrə tibb məntəqələrinə çatdırılıb, həlak olmuş 61 nəfərin cəsədi avtomobillərdən çıxarılıb. Həmçinin 17 partlayış hadisəsi ilə əlaqədar xəsarət almış 20 nəfər və həlak olan 5 nəfərin cəsədi dağıntılar altından çıxarılaraq aidiyyəti üzrə təhvil verilib. 2023-cü il ərzində dalğıc-xilasedicilər tərəfindən nəzarət olunan çimərlik ərazilərində batmaq təhlükəsi ilə üzləşmiş 110 nəfər və nəzarət olunmayan qeyri-çimərlik ərazilərdə 94 nəfər olmaqla, cəmi 204 nəfər xilas edilib. Nəzarət olunmayan qeyri-çimərlik ərazilərdə suda batmış 64 nəfərin cəsədi tapılıb.

Qeyd edilib ki, cari il ərzində müxtəlif məsələlərlə, o cümlədən yanğın, partlayış, avtoqəza, tikintidə, sənayedə və dağ-mədən işlərində təhlükəsizlik qaydalarının pozulması və digər məsələlərlə bağlı 112 - qaynar telefon xəttinə ümumilikdə 1 milyon 400 minə yaxın və ya orta hesabla hər gün 5 minə yaxın zəng daxil olub. Yanğın nəzarəti məqsədilə sosial, sənaye, nəqliyyat, rabitə, kənd təsərrüfatı obyektlərində, xidmət sahələrində və digər təyinatlı 66 mindən artıq obyektdə yanğın-texniki müayinələr aparılıb, aşkarlanmış atışmazlıqların aradan qaldırılması üçün obyekt rəhbərlərinə və sahiblərinə 390 minə yaxın tələbi özündə əks etdirən tələbnamə məktubları verilib, eyni zamanda, 220 mindən çox vətəndaş yanğın təhlükəsizliyi barədə təlimatlandırılıb.

Bundan əlavə, təyinatından asılı olmayaraq fiziki və hüquqi şəxslər tərəfindən tikinti işləri aparılan 40 min 80 obyektdə tikintiyə dövlət nəzarəti aparılıb. Sənayedə və dağ-mədən işlərində təhlükəsizliyə nəzarət məqsədilə 2909 müəssisədə 34 mindən artıq təhlükə potensiallı qurğu və avadanlıq üzrə texniki müayinələr keçirilib. Eləcə də 5680 nəfər fəhlə və mühəndis-texniki işçinin texniki təhlükəsizlik qaydaları üzrə bilikləri yoxlanılıb. Əhalinin və ətraf mühitin radiasiya təhlükəsizliyinin təmin edilməsi və ionlaşdırıcı şüalanma mənbələrinin fiziki mühafizəsinin təşkilinin yoxlanılması məqsədilə tibb, sənaye və elmi-tədqiqat müəssisələrində 272 nəzarət-yoxlama tədbiri, eyni zamanda, radioaktiv mənbələrin idxal-ixrac əməliyyatları zamanı 353 radioaktiv mənbənin eyniləşdirilməsi və dozimetrik nəzarəti həyata keçirilib. Mövcud qanunvericiliyin tələblərinə uyğun olaraq, fiziki və hüquqi şəxslərə məxsus 98 kiçikhəcmli gəmi ilkin dövlət qeydiyyatına alınıb, gəmi sahiblərinin müraciətinə əsasən 2164 kiçikhəcmli gəmiyə texniki baxış keçirilib.

Daha sonra “Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin əməkdaşlarına ali hərbi və ali xüsusi rütbələrin verilməsi haqqında” Azərbaycan Prezidentinin sərəncamı oxunub, həmçinin dövlətimizin başçısının imzaladığı 2022-ci il 15 dekabr tarixli sərəncamla təltif olunmuş nazirliyin əməkdaşlarına təltiflər təqdim edilib.

Sonda iclas iştirakçıları adından Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevə müraciət qəbul olunub.

***XQ***

# Tərəqqi və inkişafın möhtəşəm 20 ili

**Prezident İlham Əliyev ölkəyə rəhbərlik etdiyi 20 il ərzində respublikamız müqayisəyəgəlməz uğurlu bir yol keçib. Bu, Azərbaycan liderinin dövlət idarəçilik fəlsəfəsində xüsusi yer tutan bütün sahələrin inkişafına kompleks yanaşmaq, davamlı islahatlar həyata keçirməklə tərəqqiyə nail olmaq kimi prinsiplərin gerçəkləşdirilməsi ilə reallaşıb.**



Dövlətimizin başçısı prezidentlik fəaliyyətinə başlayandan sonra Azərbaycan xalqına müraciətində də bu istiqamətdə icra ediləcək genişmiqyaslı tədbirlərin anonsunu diqqətə çatdırdı, qısa müddətdə imzalanan dövlət proqramları, fərman və sərəncamlarla yeni iqtisadi quruculuq prosesinə start verdi. Reallaşdırılan məqsədyönlü layihələr nəticəsində qısa zamanda sürətli iqtisadi inkişaf, dövlətin maliyyə imkanlarının genişlənməsi, makroiqtisadi sabitliyin qorunub saxlanılması, iqtisadiyyatın neft-qaz amilindən asılılığının əhəmiyyətli dərəcədə azaldılması, iqtisadi şaxələndirmə siyasətinin uğurla həyata keçirilməsi, regionların sürətli sosial-iqtisadi inkişafı təmin olundu, Azərbaycan geniş investisiya imkanlarına malik donor ölkəyə çevrildi.

Prezident İlham Əliyev sadalanan məsələlərin həlli zamanı "güclü iqtisadiyyat–güclü dövlət" prinsipinə əsaslanıb. Bunun üçün, ilk növbədə, iqtisadi strategiyanın imkanlarından maksimum yararlanmaq məqsədilə respublikamızın inkişaf prioritetlərini müəyyənləşdirən "Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında" fərmanın, davamlı və tarazlı inkişafın gerçəkləşməsinə yönələn "Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı üzrə Dövlət Proqramı"nın (2004–2008-ci illər) tələblərini əsas istiqamətlər kimi önə çəkib.

Prezident İlham Əliyev neft gəlirlərinin artdığı bir vaxtda makroiqtisadi sabitlik üçün müəyyən təhlükələrin, o cümlədən, inflyasiya potensialının yarana biləcəyini nəzərə alaraq, "Azərbaycan Respublikasında antiinflyasiya tədbirlərinin gücləndirilməsi haqqında" 2005-ci il 31 may tarixli fərman imzalayıb. Milli iqtisadiyyatımızın neft bumu mərhələsinə hazırlığını reallaşdıran bu sənəddə dövlət büdcəsi xərclərinə nəzarətin gücləndirilməsi, neft ixracından əldə ediləcək vəsaitlərin səmərəli idarəsi və istifadəsi ilə bağlı məsələlər öz əksini tapıb.

Bu məqamda xatırladaq ki, dövlət başçısının respublikaya rəhbərliyinin ilk illərində neft gəlirlərinin prioritet istiqamətlər üzrə səmərəli istifadə edilməsi zərurəti yaranmışdı. Elə buna görə də Prezident İlham Əliyev 2004-cü ildə "Neft və qaz gəlirlərinin idarə olunması üzrə uzunmüddətli strategiya"nı (2005-2025) təsdiq etməklə bu narahatlığı aradan qaldırdı, adıçəkilən sahədə gəlirlərin kəskin artması şəraitində makroiqtisadi sabitliyin qorunmasına, gəlirlərin bir hissəsinin gələcək nəsillər üçün saxlanmasına, onlardan əhalinin rifahının yüksəldilməsi üçün səmərəli istifadə edilməsinə, eyni zamanda, qeyri-neft sektorunun inkişafına yönəldilməsinə nail oldu.

Prezident İlham Əliyevin "Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında" 2003-cü il 24 noyabr tarixli fərmanı isə ölkədə iqtisadi potensialın hərəkətə gətirilməsində önəmli rol oynadı. Belə ki, adıçəkilən sənədin imzalanması ilə ölkədə qeyri-neft sektorunun inkişaf etdirilməsi, bu sahəyə investisiyaların cəlb olunması, yeni emal müəssisələrinin yaradılması, ixracın stimullaşdırılması və alternativ enerji mənbələrindən istifadənin gerçəkləşdirilməsi prioritet vəzifələr kimi önə çıxdı.

Bu dövrdə qeyd edilən istiqamətlərdə həyata keçirilən islahatlar nəticəsində Azərbaycan Dünya Bankının qiymətləndirmələrinə görə, yuxarı orta gəlirli ölkələr qrupuna daxil oldu. Son 20 il ərzində ümumi daxili məhsul (ÜDM) 6,2 milyard dollardan 78,7 milyard dollara çatdı, ÜDM-in real həcmi 4 dəfə artdı.

Adambaşına ÜDM 769 dollardan 7 min 798 dollara yüksəldi. Qeyri-neft-qaz ÜDM-i 4,1 milyard dollardan 41,1 milyard dollarına çatdı. Ölkənin xarici ticarət dövriyyəsi 3,8 milyard dollardan 52,7 milyard dollara yüksəldi. İxracın həcmi 2,2 milyard dollardan 38,1 milyard dollara, qeyri-neft ixracı isə 0,26 milyard dollardan 3,05 milyard dollara qalxdı. 20 il ərzində kənd təsərrüfatı 2,2 dəfə, nəqliyyat sektoru 4,9 dəfə, turizm və ictimai iaşə 18,9 dəfə, informasiya və rabitə sahəsi isə 23 dəfə artdı.

Ölkənin strateji valyuta ehtiyatları 1,4 milyard dollardan 58,5 milyard dollara yüksəldi. 2002-ci il ilə müqayisədə ötən il yoxsulluq səviyyəsi 46,7 faizdən 5,5 faizə endi.

Azərbaycanda yaradılan əlverişli biznes və investisiya mühiti, respublikamızın beynəlxalq aləmdə etibarlı tərəfdaş kimi tanınması, regionda əlverişli mövqeyə malik mühüm tranzit mərkəzi olması, insan kapitalının inkişafı da ölkəmizin investisiya qoyuluşu baxımından cəlbediciliyini artırdı. Eyni zamanda, Azərbaycan beynəlxalq müqavilələrdən irəli gələn öhdəliklərini tam şəkildə və vaxtında yerinə yetirdi. Ölkəmizin təşəbbüskarı olduğu transmilli layihələr Avropanın enerji təhlükəsizliyinin gerçəkləşməsində mühüm rol oynadı. Bütün bunlar iqtisadiyyata davamlı investisiya qoyuluşunu şərtləndirdi.

Beləliklə, dövlət başçısı İlham Əliyevin prezidentliyi müddətində qeyri-neft-qaz sahələrinə yönəldilən investisiyalar 7,2 dəfə artıb. Başqa sözlə, bu dövrdə Azərbaycanın qeyri-neft-qaz sektoruna 200 milyard dollar həcmində sərmayə yatırılıb. Respublikamızdan digər ölkələrin iqtisadiyyatlarına qoyulan investisiyaların ümumi həcmi isə 28,3 milyard dollara yüksəlib.

İnvestisiya qoyuluşunun davamlı olmasını şərtləndirən məqamlar sırasında ölkəmizdə yaradılan sabitlik, əmin-amanlıq, xalq–iqtidar birliyi, milli həmrəylik kimi amillər önəmli rol oynayıb. Xarici sərmayədarların respublikamıza genişhəcmli investisiya qoymaq marağı da daha çox bundan irəli gəlib.

Son 20 il ərzində sənayedə məhsul istehsalının həcmi 4 milyard manatdan 86,4 milyard manata çatıb. Sənaye məhsulunun ümumi həcmində özəl sektorun payı isə 2002-ci ildə 54,9 faiz olduğu halda, 2022-ci ildə 87,6 faiz təşkil edib. Bundan başqa, 2002-2022-ci illərdə ölkənin qeyri-neft-qaz sənayesində istehsalın həcmi 1,6 milyard manatdan 17,7 milyard manata çatıb.

Sənayenin inkişafına müsbət təsir göstərən əhəmiyyətli mexanizmlərdən biri dövlət başçısının təşəbbüsü ilə sənaye zonalarının – sənaye parkları və məhəllələrinin yaradılmasıdır. Ölkədə hazırda 7 sənaye parkı – Sumqayıt Kimya, Balaxanı, Mingəçevir, Qaradağ, Pirallahı, Ağdam və Cəbrayıl rayonunda "Araz Vadisi İqtisadi Zonası" sənaye parkları, 5 sənaye məhəlləsi – Neftçala, Masallı, Hacıqabul, Sabirabad və Şərur sənaye məhəllələri fəaliyyət göstərir.

Sənaye zonalarında ötən müddət ərzində, ümumilikdə, 10,23 milyard manatlıq məhsul istehsal edilib və onun 3,35 milyard manatlıq hissəsi ixrac olunub. Cari ilin birinci yarısında isə bu müəssisələrin satdığı 1,4 milyard manat dəyərində məhsulun 33,2 faizi, yəni 470,6 milyon manatlığı ixrac edilib. Ümumiyyətlə, 2023-cü ilin ilk yarısında sənaye zonalarının qeyri-neft sektorunda xüsusi çəkisi 16,5 faiz, qeyri-neft sənaye məhsullarının ixracında isə 20,7 faiz (470,6 milyon manat) olub.



Yanvar–sentyabr aylarında sənaye zonalarının müəssisələrində məhsul istehsalının dəyəri ötən ilin eyni dövrü ilə müqayisədə 7 faiz artaraq 2,3 milyard manata çatıb. Bunun da 31,2 faizi 50-dən artıq xarici ölkəyə satılıb.

Son 20 il ərzində ölkəmizdə əhalinin fasiləsiz elektrik enerjisi ilə təminatı, eləcə də, bu sahə üzrə müasir infrastruktur quruculuğu siyasəti uğurla davam edib. Nəticədə 34 elektrik stansiyası inşa olunub və həmin stansiyaların generasiya gücü, təqribən, 3400 meqavata çatıb.

Azərbaycanın hazırda ümumi generasiya gücü 7200 meqavatdır, onun 3400 meqavatı son 20 ildə yaradılıb. Bu göstəricilər isə deməyə əsas verir ki, artıq ölkənin həm elektrik enerjisinə olan daxili tələbatı tam olaraq yerli istehsal hesabına ödənilib, həm də müəyyən həcmdə ixrac üçün potensial reallaşdırılıb. Beləliklə, həyata keçirilən məqsədyönlü tədbirlər nəticəsində elektrik enerjisində idxal çətinliyi aradan qaldırılıb, enerji sisteminin təhlükəsizliyi təmin edilib. Eyni zamanda, mövcud stansiyalar modernləşdirilib, dünya standartlarına cavab verən müasir qurğu və avadanlıqla təchiz olunub. Nəticədə stansiyaların faydalı iş əmsalı artıb.

Azad edilmiş torpaqlarda da bərpa-yenidənqurma işlərinə, ilk növbədə, elektroenergetika sahəsindən başlanılıb və artıq 10-dan çox yarımstansiya, təqribən, bir o qədər də su elektrik stansiyası istifadəyə verilib. Ümumiyyətlə, Şərqi Zəngəzur bölgəsində 50 meqavatdan çox generasiya gücü yaradılıb və bu rəqəmin ilin sonuna qədər 200 meqavata çatdırılacağı planlaşdırılıb.

Hazırda sürətlə modernləşməkdə olan elektroenergetika sahəsi üzrə müasir infrastrukturun yaradılması, yeni texnologiyaların tətbiqi, enerji təhlükəsizliyinin təmin edilməsi istiqamətində tədbirlər davam etdirilir, Azərbaycan regionda elektrik enerjisi ixrac edən aparıcı dövlətə çevrilir.

Son 20 il ərzində ölkəmizdə həyata keçirilən sosial-iqtisadi inkişaf strategiyasının prioritet istiqamətlərindən biri də yol infrastrukturunun müasir standartlara cavab verən səviyyədə yenidən qurulması olub. Bu mühüm vəzifənin uğurla icrası məqsədilə dövlət büdcəsindən hər il böyük həcmdə vəsaitlər ayrılıb. Həmin məbləğ hesabına respublikamızda dünya standartlarına cavab verən yüksək keyfiyyətli avtomobil yolları salınıb. Təkcə paytaxtımızda 2 min kilometrdən çox yol çəkilib, yenidən qurulub və təmir edilib. Bu dövrdə Bakı şəhərində 83 yol ötürücüsü, 99 yeraltı və yerüstü piyada keçidi inşa olunub.

Azərbaycanın şəhər və kəndlərində də yol infrastrukturunun yenidən qurulması diqqətdə saxlanılıb. 2003-cü ildən indiyə kimi respublikamızda 6,2 milyon nəfər əhali yaşayan, 2 min 210 yaşayış məntəqəsini birləşdirən kəndlərarası 5 min 100 kilometr uzunluğunda avtomobil yolu tikilib, yenidən qurulub və təmir olunub.

Bütövlükdə, 20 il ərzində ölkədə 21 min kilometrə yaxın avtomobil yolu, prospekt və küçədə yol infrastrukturu ilə bağlı çoxsaylı layihələr reallaşdırılıb. Bu dövrdə 499 körpü və yol ötürücüsü, 114 yeraltı və yerüstü piyada keçidi inşa edilib. Respublikada birinci texniki dərəcəli avtomobil yolunun uzunluğu 2003-cü ildəki 115 kilometrdən 1025 kilometrə çatdırılıb.

Sonda ölkəmiz üçün taleyüklü bir hadisəyə də nəzər salmaq istərdik. Vətən müharibəsində əldə edilən tarixi zəfərdən sonra Azərbaycana qovuşan Qarabağımızın bərpası, dirçəldilməsi yolunda 3 il ərzində Prezident İlham Əliyevin tapşırıq, göstəriş və tövsiyələri ilə mühüm addımlar atılıb. Dövlətimizin başçısının imzaladığı müvafiq fərmanla işğaldan azad edilmiş ərazilərdə Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəlikləri açılıb. Düşməndən təmizlənən yaşayış sahələri üzrə Strateji Fəaliyyət Planı hazırlanıb və vahid konsepsiya əsasında bütün ərazilərin və şəhərlərin bərpasına başlanılıb. Bütün bunlarla bərabər, bu ərazilərdə torpaq islahatının aparılması üçün yeni mexanizm və meyarlar öyrənilib, torpaqların su ehtiyatlarından səmərəli istifadə məsələləri araşdırılıb, həmçinin ölkə rəhbərinin tapşırığı ilə yaşayış məntəqələrimizin "ağıllı şəhər", "ağıllı kənd" konsepsiyası əsasında qurulması istiqamətində mühüm layihələr gerçəkləşdirilib, keçmiş köçkün əhalinin öz dədə-baba yurdlarına qayıdışına başlanılıb.

Yuxarıda qeyd edilənlər bir daha onu göstərir ki, son 20 il ərzində ölkəmiz uğurla inkişaf edib, bütün istiqamətlər üzrə qarşıya qoyulan vəzifələr yüksək səviyyədə həyata keçirilib. Sosial, hərbi sahələrdə, eləcə də Qarabağ və Şərqi Zəngəzurda reallaşdırılan genişmiqyaslı bərpa-quruculuq layihələrinin reallaşdırılmasında isə iqtisadi potensial mühüm rol oynayıb.

***Vaqif BAYRAMOV***
***XQ***

## Kaledoniya Birliyinin sədri Makronu ittiham edib

**Kaledoniya Birliyinin sədri, FNKLS-nın mətbuat katibi Daniel Qoa Fransa Prezidenti Emmanuel Makrona və fransalı nazirlərə açıq məktub göndərib.**



Məktubda 1853-cü ildən Fransanın Yeni Kaledoniyada hökmranlıq etdiyi vurğulanır.

Bildirilir ki, Fransa hökuməti tərəfindən Kaledoniyaya məqsədli şəkildə köçürülən insanlar onları xalq kimi tanımır: "Sizin siyasətiniz bizim məhvimizə hesablanıb. Amma siz bizi məhv edə bilməyəcəksiniz. Bizim ərazilərin dekolonizasiya olunmasına dair 1957-ci ildə imzaladığınız sənəddə götürdüyünüz öhdəliklərə əməl eləmirsiz. Fransa prezidenti bir şeyi deyir, amma tamamilə əksinə addımlar atır".

Açıq məktubda Fransaya qarşı tələblər də irəli sürülüb: "Ləyaqətimizi özümüzə qaytarın. Çünki bu sizin fəxr etdiyiniz insan hüquqlarının tələbidir. Bizə azadlığımızı qaytarın. Çünki bu insanlığın tələbidir. Bizi dekolonizasiya edin. Çünki bu tarixi ədalətin bərpa edilməsidir".

***XQ***

## Sakit okean ölkəsinin müstəqillik mübarizəsi dəstəklənib

**Sakit Okean Kilsələr Konfransının 12-ci Baş Assambleyasının yekun sənədində Yeni Kaledoniyanın Fransadan ayrılaraq, müstəqillik uğrunda mübarizəsi dəstəklənib.**



Sənədlərə əsasən, Fransaya çağırış edilir ki, bu region nüvə silahından, kütləvi məhvetmə silahları və hərbi bazalardan azad olunsun. Aparılan nüvə silahları nəticəsində okeanların deqredasiyasına görə məsuliyyəti qəbul etsin.

Sənəddə qeyd edilib: "Biz Fransız Polineziyası və Yeni Kaledoniyanın müqəddəs öz müqqədəratını təyinetmə mübarizəsində onlarla birlikdəyik. Bu ərazilərin hərbiləşdirilməsi dayandırılmalıdır. Biz, bugünkü və keçmiş müstəmləkəçi dövlətləri nüvə silahlarının regional ratifikasiyasını həyata keçirməyə çağırış edirik".

***XQ***

## Tbilisidə "Qərbi Azərbaycana Qayıdış" forumu

**Dekabrın 16-da Tbilisidə "Qərbi Azərbaycana Qayıdış beynəlxalq müstəvidə" mövzusunda forum keçirilib.**




Tədbirin təşkilatçısı "Gənclərin Təşəbbüsünə və İnkişafına Dəstək" İctimai Birliyinin sədri Toğrul Allahverdili çıxışında bildirib ki, forumun əsas məqsədi Gürcüstanda yaşayan soydaşlarımız, eləcə də Qərbi Azərbaycandan olan soydaşlarımızla Qərbi Azərbaycana Qayıdış Konsepsiyasını müzakirə etmək, gürcü politoloqların, tarixçilərin məsələ ilə bağlı fikirlərini öyrənməkdir.

Azərbaycan Respublikası Milli Məclisinin deputatı Naqif Həmzəyev bildirib ki, Azərbaycan daim sülhün və əmin-amanlığın tərəfdarı olub. Lakin bəzi separatçı qüvvələr regionda sülhü pozmağa çalışıblar və Azərbaycan regionda davamlı sülhün təmin olunması üçün bütün ilkin zəruri tədbirləri görüb. Bu tədbirlər Qərbi azərbaycanlıların öz torpaqlarına qayıtmaq ümidlərini artırıb və onlar inanırlar ki, bu gün heç də uzaqda deyil.

Sonra Azərbaycan Respublikası Gənclər Fondunun icraçı direktorunun müavini Orxan Ərəbov, KOBİA yanında ictimai şuranın sədri Fərhad Qaraşov və başqaları çıxış edərək mövzu ilə bağlı fikirlərini bölüşüblər.

Forum panel iclaslarda işini davam etdirib.

***XQ***

# ABŞ pulu, Hindistan silahı və Fransanın yağlı vədləri

(əvvəli 1-ci səhifədə)

## İrəvanın faydasız cəhdləri

Cənubi Qafqazda cərəyan edən hadisələrin fonunda İrəvanın ənənəvi silah tədarükçüsündən – Rusiyadan üz çevirib, Fransa və Hindistanla hərbi-texniki əməkdaşlığa meyil etməsi hamıya məlumdur. "Sputnik Ermənistan"da dərc edilən bir məqalədə qeyd olunur ki, baş nazir Paşinyan Rusiyanın indiki durumunda İrəvanın ehtiyaclarını təmin edə bilmədiyini vurğulayıb: "Ermənistanın təhlükəsizlik arxitekturası 99,9 faiz Rusiya ilə bağlıdır. Eləcə də silah–sursatın alınması baxımından. Fəqət bu gün Rusiyanın özünün silaha ehtiyacı var və o, istəsə belə, Ermənistanın təhlükəsizlik ehtiyacını təmin edə bilməz".

İrəvanın müdafiə sənayesində Dehli və Parislə əlaqələrinin nəzərəçarpacaq dərəcədə genişlənməsinin əsas səbəbi Paşinyanın bu açıqlamasından da bəlli olur. Ermənistanın müdafiə naziri Papikyanın bu əsnada dedikləri maraqlıdır: "İrəvan Rusiya silahına alternativ əldə etmək imkanını nəzərdən keçirir və bu sahədə nəzərəçarpan nəticələrə yaxınlaşıb".

Fransanın Ermənistana Ukrayna üçün nəzərdə tutduğu "Bastion" zirehli texnikasını göndərdiyi məlumdur. Bundan başqa, rəsmi İrəvan Fransa ilə yaxınmənzilli "Mistral" HHM sistemlərinin satın alınması barədə memorandum imzalayıb. Ermənistanın Hindistandan çoxlüləli "Pinaka" reaktiv raket qurğularını, tank əleyhinə "Konkurs" raketlərini aldığı barədə məlumatları oxucularla bölüşmüşdük.

"Pinaka", "Bastion", "Konkurs", "Mistral", indi isə "Akaş"larla Ermənistan ərazisini dolduran Fransa və Hindistan İrəvana nə qədər etibarlı müdafiə vəd etsələr də, o, bundan sonra da qüdrətli Azərbaycanın qarşısında acız qalacaq. Aldığı həmin silahlardan ölkəmizə qarşı istifadəyə ilk cəhdi Hayastan üçün növbəti fəlakətin başlanğıcı olacaq. Ermənistan hökumətinin yaydığı məlumata əsasən, İrəvan builki dövlət büdcəsində hərbi xərcləri 11 faiz artıraraq 640 milyon dollardan 710 milyon dollara çatdırıb. Büdcəsini, bir qayda olaraq, kənar ianələrin hesabına dolduran Ermənistan Hindistan kimi ölkələrdən aldığı silahlarla "yaralarını" sarımağa çalışır. Heç bir fayda verməyəcək yersiz cəhdlər və havaya sovrulan pullar. Yerli ekspertlərin bəziləri belə hesab edirlər ki, silahlanmanı bu templə davam etdirən Ermənistanı qarşıda Suriya və İraqın aqibəti gözləyir.

## Niyə məhz Hindistan?

Bir müddət bundan əvvəl Rusiya Siyasi Araşdırmalar İnstitutunun direktoru Sergey Markov yuxarıdakı suala olduqca məntiqli cavab vermişdi. Demişdi ki, bu sualın cavabını bilmək üçün Ermənistanın Fransa və Hindistandan silah-sursatı hansı pullarla almasını aydınlaşdırmaq lazımdır. Markovun fikrincə, maliyyə çətinliyindən əziyyət çəkən İrəvan bu silahları ya Fransanın, ya da ABŞ-ın pulu ilə alır.

Yəni, Paris və Vaşinqton heç istəməz ki, onların pulu rus silahının alınmasına xərclənsin. Elə bu səbəbdən də böyük güclər Paşinyana Rusiyadan silah almağa qadağa qoyublar. Hindistan isə bu qadağaya daxil deyil.

Bizim üçün sualın ikinci tərəfi daha maraqlıdır: Qarabağ münaqişəsində Hindistan hansı səbəbdən Ermənistanın tərəfini tutur, ona qahmar çıxır? Əgər Hindistanın daxilində baş verən proseslərə bir qədər yaxından diqqət yetirsək, məsələnin bu tərəfi də xeyli aydınlaşmış olar. Bu ölkədə yaşayan müsəlmanlara qarşı davamlı surətdə təxribatların baş verməsi müsəlman ölkəsi kimi tanınan Azərbaycana da adekvat münasibəti və yanaşmanı şərtləndirir. Üstəgəl, Azərbaycanın Pakistanla yaxınlaşması, rəsmi Bakının beynəlxalq platformalarda İslamabadın mövqeyini dəstəkləməsi, Kəşmir münaqişəsi ilə bağlı onun yanında dayanması da öz rolunu oynayır. Bəli, Dehli həm də bu səbəblərdən Ermənistanı seçib. Burada hindlilərin və hayların tarixi qohumluğu barədə səslənən mülahizələr nağıldan başqa bir şey deyil. Onu da qeyd etməliyik ki, Hindistan–Azərbaycan münasibətlərinin indiki vəziyyətə çatmasında bu ölkənin radikal sağçı və millətçi baş naziri Modinin danılmaz "xidmətləri" var. Məhz onun hakimiyyəti dövründə Hindistanda etnik zəmində münaqişə daha da dərinləşib, müsəlmanlara qarşı zorakılıqların sayı artıb.



### Ekspert rəyi



**Üzeyir CƏFƏROV,**
**ehtiyatda olan polkovnik**

**Hindistanın Ermənistanı silahlandırma prosesində iştirakı birmənalı şəkildə qəbuledilməzdir. Dehlinin bu addımları Cənubi Qafqazda sülhün və təhlükəsizliyin təmin edilməsinə çox böyük maneədir. Ermənistan son vaxtlar bu amildən istifadə edərək, bir növ, ritorikasını dəyişib və qeyri-adekvat davranışlar sərgiləyir. Hindistan silahlarının keyfiyyəti barədə danışarkən ən əsası onların hansı növ silah olduğu mütləq nəzərə alınmalıdır. Ona görə ki, bu silahlar bizim üçün müəyyən problemlər yarada bilər. Düzdür, bu silahlar yüksək effektivliyə və potensiala malik olmasa da, dağıdıcılıq imkanları var. Hindistan Ermənistanla hərbi sahədə əməkdaşlığa əvvəlki illərdə o qədər maraq göstərməsə də, indi müdafiə sahəsində əlaqələr xeyli genişlənib. Biz bunun nə ilə bağlı olduğunu təxmin edirik. Yəni Azərbaycanla Pakistan arasında yaxın münasibətlər var. Ölkəmiz həm Kəşmir, həm də digər məsələlərdə Pakistanı dəstəkləyir. Bu baxımdan Hindistan belə addımlar atır. Amma bu, Dehlinin bölgədə təsir imkanlarını genişləndirməsinə imkan yaratmayacaq. İrəvan hazırda Hindistanın bölgədə aktivləşmək niyyətindən sui-istifadə etməklə məşğuldur.**

## Maraqların diktə etdiyi reallıq

Azərbaycanın xarici siyasətində prioritetləri ondan ibarətdir ki, dünyanın güc mərkəzləri ilə münasibətlərini ən yüksək səviyyədə qurulsun və onlardan heç biri ilə ciddi problemlərin yaranmasına yol verilməsin. Bununla yanaşı, onların da öz aralarında, yaxud digərləri ilə qarşıdurmalarında tərəf tutmamaq, seçim etməmək Bakı üçün əsas prinsiplərdən sayılır. Amma biz hazırda beynəlxalq münasibətlərdə bunun pozulmağa başladığını görürük. Hindistan dünyanın qüdrətli dövlətlərindən biridir və o, yüksələn xətlə inkişaf etməkdədir.

Azərbaycanın Hindistanla ikitərəfli normal münasibətləri, xüsusilə geniş mədəni əlaqələri mövcuddur. Bakıda Hindistan sərgiləri, film həftələri, birgə tədbirlər təşkil edilir. Bütün bunlarla yanaşı, iki ölkə arasında ciddi iqtisadi və ticarət əlaqələri də mövcuddur. Yeri gəlmişkən, onu da qeyd edək ki, Hindistan Azərbaycanın dördüncü ən böyük ticarət tərəfdaşıdır. İki ölkə arasında ticarət dövriyyəsinin həcmi 1 milyard ABŞ dollarına yaxındır.

Razılaşmalı olduğumuz reallıq ondan ibarətdir ki, hazırda ölkəmiz ətrafında bir qədər həssas geosiyasi coğrafiyanın tablosu özünü göstərməkdədir. Əslində, mövcud bulanıq tablonun yaranmasında Azərbaycan deyil, üzdə "ermənilərin təəssübkeşləri" kimi görünən, arxada isə Cənubi Qafqazda özəl maraqları naminə ona qarşı gələn aktorlar günahkardır.

Bakı üçün həm Avropa, həm də Asiya nəhəngləri ilə qarşılıqlı etimada və faydalı tərəfdaşlığa söykənən şəffaf münasibətlərin gözlənilməsi prioritet sayılır. Son illərdə bunun xeyli sayda nümunələri meydana çıxıb. Bu münasibətləri perspektivdə də bütün tərəflər üçün risksiz və gəlirli müstəviyə daşıyacaq əsas amil bölgədə sülhün və əmin-amanlığın tezliklə bərqərar olmasıdır. Düşünürük ki, buna nail olmaqdan və ona dividendlər gətirəcək tarixi fürsəti qaçırmamaqdan ötrü İrəvan da Bakı ilə eyni mövqeyi paylaşır. Yəni, indi əlçatan məsafədəki sülhü qazanmaq Azərbaycandan daha çox Ermənistanın özünə lazımdır.

*İmran BƏDİRXANLI*
*XQ*

---

KÖŞƏ

# Qərb ölkəmizdə erməni vandallığına göz yumdu

## *Qarabağın bərpasını isə görmək istəmir*

**Bu gün Azərbaycanın qarşısında duran əsas vəzifə azad edilmiş əraziləri yenidən qurmaq, infrastrukturunu bərpa etmək, məcburi köçkün insanlarımızı öz ata-baba yurdlarına qaytarmaqdan ibarətdir. Təbii ki, 30 ilə qədər Ermənistanın işğalı altında olmuş tarixi ərazilərimizin müzəffər ordumuz tərəfindən azad edilməsindən sonra qarşımızda duran ən mühüm məsələ budur.**



**Paşa ƏMİRCANOV**
**pasha.emircanov@mail.ru**

Prezident İlham Əliyev də dəfərlərlə bununla bağlı çıxışlarında vurğulayıb ki, köçkün soydaşlarımızın "ləyaqətli şəkildə" öz yurdlarına qayıtması təmin edilməlidir. Artıq bu istiqamətdə kifayət qədər işlər də görülüb. Bir sıra şəhər və kəndlərin yenidən qurulması və məskunlaşdırılması ilə bağlı ciddi addımlar atılıb. Bu məqsədlə dövlət büdcəsindən hər il milyardlarla manat vəsait ayrılıb. Gələn 2024-cü ilin büdcəsində başdan-başa tikinti meydanına çevrilmiş Qarabağda quruculuq işlərinin davamı üçün 4 milyard manat vəsait nəzərdə tutulub.

Bununla yanaşı, son günlərdə tez-tez bu və ya digər əraziyə yeni köç karvanlarının yola salındığını görürük. İnsanlarımız böyük sevinclə artıq bütün ölkənin adını əzbər bildiyi Suqovuşana, Talışa, Ağalı, Zabux kəndlərinə, eləcə də Şuşa, Laçın, Füzuli şəhərlərinə və digər yerlərə qayıdır, doğma yurd yerlərimizi abadlaşdırmaqla məşğul olurlar.

Bu günlərdə Zabuxa daha 20 ailənin köç etdiyini görüb sevindik. Dekabrın 14-də həmin kənddə 176 şagird yerlik Zabux kənd tam orta məktəbi də istifadəyə verildi.

Bir gün əvvəl müəllimlərin XVI qurultayında çıxış edən Elm və təhsil naziri Emin Əmrullayev də bəyan etdi ki, azad olunmuş ərazilərdə artıq 7 məktəb fəaliyyət göstərir. Onun sözlərinə görə, "Böyük Qayıdış" çərçivəsində Şuşa, Füzuli, Zəngilan, Laçın şəhər və rayonu, Tərtərin Talış və Suqovuşan ərazisində fəaliyyət göstərən məktəblərdə, ümumilikdə 7 təhsil müəssisəsində 550 şagird və 84 müəllim heyəti var. Növbəti tədris ilində Ağdam, Cəbrayıl və Kəlbəcərdə də məktəblərin istifadəyə verilməsi nəzərdə tutulur.

Bütün bunları, təbii ki, Azərbaycan öz gücünə, özünün maddi vəsaiti hesabına edir. Bu məsələdə bir qədər Türk Dövlətləri Təşkilatındakı qardaş ölkələr – Özbəkistan və Qazaxıstan da bizə kömək edib. Amma vaxtilə, 30 ilə qədər müddət ərzində Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalına və bu təcavüzkar, terrorçu dövlətin şəhər və kəndlərimizi dağıdaraq viranəyə çevirməsinə göz yumanlar, bəzi hallarda hətta dəstək verənlər bu gün Qarabağ və Şərqi Zəngəzurda apardığımız quruculuq işlərinə əl uzatmaq istəmirlər. Necə deyərlər, bu istiqamətdə heç səslərini də çıxarmırlar.

Əksinə, neft və qaz söhbəti gələndə Azərbaycana ard-arda səfərlər edən yüksək çinli Qərbli tərəfdaşlarımız bugünədək ermənilərə dəstək verirlər. Amma kim etiraf etməsə də, biz bilirik, erməniləri dəstəkləmək nə deməkdir. Erməniləri dəstəkləmək işğalı, təcavüzü, terroru dəstəkləmək deməkdir. Ermənistanı dəstəkləmək XXI əsrdə açıq-aşkar soyqırımı törədənləri dəstəkləmək deməkdir. Bütün bu əməllər isə Avropa ölkələrinin zaman-zaman qəbul etdikləri dəyərlərə, müxtəlif konvensiyalara ziddir. Və birbaşa cinayətdir. Bu da bizim Qərbdəki "dostlarımızı" çəkindirmir.

Ermənistana dəstək Azərbaycanın İkinci Qarabağ müharibəsində və bu ilin sentyabrında həyata keçirdiyimiz antiterror tədbirlərində şanlı və şərəfli qələbələrimizdən sonra daha da aktivləşib. Azərbaycanın reinteqrasiya çağırışlarına məhəl qoymadan Xankəndini könüllü şəkildə tərk etmiş ermənilərə yardım üçün əldən-ayaqdan gedirlər. Baxın, bu il oktyabrın 30-da Avropa Komissiyasının (AK) mətbuat xidməti belə bir məlumat yaymışdı: "Avropa Komissiyası Qarabağdan gedən insanların kütləvi axınına cavab olaraq Ermənistana humanitar yardımı təxminən 1,7 milyon avro artırır. Yeni maliyyə vəsaiti köçkünlərə pul yardımı, sığınacaq, ərzaq təhlükəsizliyi və dolanışıq yardımı, mühafizə və səhiyyə təmin etməklə Aİ-nin mövcud humanitar yardımını daha da gücləndirməyə yönəldiləcək. Bu maliyyə Avropa Komissiyası tərəfindən böhrana cavab olaraq artıq ayrılmış 10,45 milyon avroya əlavədir və 2023-cü ildə ümumi humanitar yardım 12 milyon avrodan çoxdur".

Bu, Avropa İttifaqı. ABŞ da geri qalmır. O da, Kanada da Ermənistana yardım etməkdə öndə gedənlərdir. Fransanın İrəvana dəstəyini isə sadə dillə izah etmək mümkün deyil, saz lazımdır. Amma həmin Ermənistanın xaraba qoyduğu Azərbaycan ərazilərinin bərpasına maliyyə yardımı ayırmaq, hansısa formada dəstək olmaq avropalı tərəfdaşlarımızın yadına düşmür. Onlar Bakıya yalnız qaz lazım olanda gəlirlər.

Avropa İttifaqı liderlərinin bu günlərdə keçirilmiş sonuncu görüşündə Ukrayna, Moldova, Gürcüstan, eləcə də Bosniya və Herseqovinaya Aİ üzvlüyü istiqamətində yaşıl işıq yandırıldı. Ermənistanın da təşkilata cəlb edilməsi ilə bağlı perspektivlər haqqında danışılır. Bu isə hətta erməni siyasi və politoloji dairələrində təəccüb yaradır. Çünki Ermənistan Aİ-nin üzvlük tələblərinə cavab verən bir ölkə deyil. Bu da terrorçu dövlətə yersiz dəstəyin növbəti nümunəsi.

Qarabağda isə inşa işləri var gücü ilə davam edir...

---

(əvvəli 1-ci səhifədə)

# "Ermənistan Qarabağı birdəfəlik unutmalıdır"

## *Rusiyalı ekspert İqor Korotçenko məğlub ölkənin nicatını bunda görür*



"Bir məqam sual altında qalır: Ermənistan Qarabağ ermənilərinin problemini sazişin mətninə salmaqdan vaz keçməyə, konkret olaraq, özünün baza prinsipindən imtina etməyə hazırdırmı? Azərbaycan bu sualın cavabında tam məntiqli təklif irəli sürüb: onda sülh mətninə Ermənistandan zorla qovulan 300 min azərbaycanlının geri qayıtmasını nəzərdə tutan maddəni də daxil edək. Bax burada İrəvanın vurnuxması başlayır. Aydın məsələdir ki, ermənilər belə bir təklifə "hə" deməyəcəklər, necə ki, Azərbaycan da Qarabağ erməniləri ilə bağlı dediyimiz maddənin sülh müqaviləsinə salınması ilə razılaşmayacaq. Bakının dəmir məntiqi ondan ibarətdir ki, əgər Qarabağdan köçənlər bizim vətəndaşlardırsa, onda bu məsələ Azərbaycanın daxili işidir. Yox, əgər deyilsə, onda geri necə qayıda bilərlər? Yəni, sülh danışıqlarının bu cür dalana dirənmək riski də var".

* * *

İkitərəfli danışıqlarda çox şeyin Nikol Paşinyanın mövqeyindən asılı olacağını deyən Korotçenko İrəvanın məsələyə mövcud reallıqdan çıxış edərək yanaşacağı və deyilən bənddən imtina edəcəyi təqdirdə, sülh sazişinin imzalanmasını mümkün hesab edir: "Əgər səslənən nikbin proqnozlara inansaq və cari ilin sonunadək sülh sazişi imzalanarsa, bu halda İlham Əliyev və Nikol Paşinyanın Nobel Sülh mükafatına namizədlikləri irəli sürülə bilər. Əlbəttə, bu sənədin gələn ildə də imzalanmasına heç nə mane olmayacaq. Əsas odur ki, bu, baş versin".

Ermənistan baş nazirinin zərurət yaranarsa, növbədənkənar parlament seçkilərini keçirməyə hazır olduğu barədə açıqlamasına münasibət bildirən rusiyalı ekspert bunun aşağıdakı mümkün ssenaridən xəbər verdiyini güman edir:

"Misal üçün, o, sülh müqaviləsinə şərt irəli sürməkdən imtina edir və sənədi imzalayır. Amma bununla eyni vaxtda növbədənkənar seçkilərin və ölkə hökumətinə etimad haqqında referendumun keçirilməsini elan edir. Bu isə ona sülh sazişinə görə məsuliyyət yükünün ağırlığını öz boynundan cəmiyyətin qərarına transformasiya etməsinə imkan verəcək. Nikol Vovayeviçin hiyləgərliyini və buqələmunluğunu nəzərə alsaq – hər şey mümkündür. Belə düşünürəm ki, hər halda, o, reallıqdan çıxış edəcək, necə deyərlər, göylərdən Yerə enəcək. Daxildə uğursuz diplomat kimi nə qədər tənqid olunsa da, o, yaxşı başa düşür ki, sülh müqaviləsi ilə bağlı bundan sonrakı inadkarlığın heç bir faydası olmayacaq. Qarabağ Ermənistanın əlindən birdəfəlik çıxıb və onun bu mövzuda alver etmək imkanı belə qalmayıb".

* * *

Bakı və İrəvanın imzalayacağı sülh sazişinin ABŞ, Fransa, Avropa İttifaqını Azərbaycana istənilən təsir rıçaqlarından məhrum edəcəyinə diqqəti çəkən İqor Korotçenkonun qənaətinə görə, onların sözdə buna tərəfdar olduqlarını bəyan etmələrinə baxmayaraq, əslində, sazişin bağlanmamasında maraqlıdırlar:

"Misal üçün, bu günlərdə Aİ Ermənistanda müşahidə missiyası kontingentinin artırılması barədə qərar verdi. Bu qərarı Azərbaycana, İrana və Rusiyaya qarşı düşmən davranışı kimi izah etmək mümkündür. Çünki həmin mülki müşahidəçilərin özəyini diplomatik çətir altında gizlənmiş Avropa ölkələrinin peşəkar kəşfiyyatçıları təşkil edirlər. Buraya ilk növbədə Fransanın DGSE, Almaniyanın BND kimi xarici kəşfiyyat qurumları, eləcə də digər xüsusi xidmət orqanlarının xəfiyyələri daxildir".

Müsahibəsində Zəngəzur dəhlizi mövzusuna da yer ayıran rusiyalı ekspert Azərbaycanın artıq İrandan keçməklə özünə nəqliyyat marşrutunun inşasına başladığını söyləyir. Buna görə Ermənistandan keçməli olan Zəngəzur dəhlizinin lazımsız layihə kimi qalacağını əmin olan, İrəvanın ortaya atdığı yeni "dünyanın qovşağı" ideyasının da, əslində, yollarından və loqistikasından heç kimin faydalana bilməyəcəyi "dünyanın dalanı" olacağını deyən İ. Korotçenko Rusiya–Ermənistan münasibətlərinin hazırkı durumunu bu cür qiymətləndirdi:

"Bu münasibətləri "tarıma çəkilmiş naqil" kimi xarakterizə etmək olar. Paşinyan üzünü Qərbə çevirir, NATO ölkələrindən silah almağa başlayıb. Hər şeydən göründüyü kimi, İrəvan bu siyasətini bundan sonra da davam etdirəcək. Doğrudur, Nikol Moskvanı çox qıcıqlandıra biləcək kəskin hərəkətlərə yol verməyəcək, amma bu zaman MDB və KTMT çərçivəsində görüşlərdən və istənilən siyasi formatlarda iştirakdan məsafəli davranacaq. Fəqət münasibətlərin iqtisadi müstəvisi burada istisnadır. Buna görə İrəvan mütləq pauza götürəcək". .

*Hazırladı:*
***İ.HƏSƏNQALA***
***XQ***

# Heydər Əliyevli Azərbaycan obrazı: ingilisdilli mətbuatın ibrət təsvirləri

## Elm və Təhsil Nazirliyi və Azərbaycan Dillər Universitetinin birgə hazırladığı dəyərli salnaməyə qısa nəzər

**Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin və Azərbaycan Dillər Universitetinin Ulu öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "Müstəqillik illərində ingilisdilli mətbuatda Azərbaycan obrazı (1993-2003)" kitabı, sözün əsl mənasında, yüksək çəkiyə malik vəsaitdir. Ön söz müəllifi və layihə rəhbəri ADU-nun rektoru, akademik Kamal Abdulla olan nəşr Heydər Əliyevli müstəqil Azərbaycanın xaricdən görünüşünün aynasıdır. Məqalələr toplusundan ibarət kitab respublikamızın 1993-2003-cü illər dövrünü əhatə edən, kifayət qədər, faydalı və sanballı mənbədir.**

Toplunun faydalılığını bir neçə cəhətdən əsaslandırmaq mümkündür. İlk növbədə, həmin illərdəki obyektiv durumun öyrənilməsinə dəstək amili vurğulanmalıdır. İkincisi, hesab edirik ki, kitab Heydər Əliyev şəxsiyyətinin nəhəng obrazını fərqli çalarlarla vurğulamaqdadır. Üçüncüsü, nəşr yaşadığımız zaman kəsiyini bizə ibrət götürülməli dövr kimi xatırladır. Dördüncüsü, bu vəsaitdə kövrək qədəmlərə malik Azərbaycan dövləti və dövlətçiliyinin inkişaf trayektoriyasındakı qlobal siyasi mahiyyət vurğulanır. Beşinci məqam isə ondan ibarətdir ki, kitabda toplanmış məqalələr o dövr üçün bizə məlum olmayan, yaxud məlum olub kluar söhbəti təsiri bağışlayan, hazırda müəyyən mənada, unutduğumuz epizodları yaddaşlara qaytarır, onları tarix kimi görməyimizə imkan yaradır. Axı, yaxşı deyiblər ki, tarixdə baş verənlərin özünə vətəndaşlıq hüququ qazanması üçün əlahəzrət zamana ehtiyac var. Artıq zaman ötüb. Yenicə çapdan çıxmış nəşr isə ötən zamanın salnaməli böyüklüyünü vurğulamaqdadır.

Əlbəttə, yeni nəşrin məziyyətləri baxımından digər məqamları da ayırd edib qruplaşdırmaq mümkündür. Amma bu yazıda daha çox kitabın bir keçmiş yaşantılı təqdimat məhsulu olması üzərində dayanmaq istərdik. Oradakı məqalələrə həyəcansız nəzər salmaq mümkünsüzdür. Bəzən həyəcan ağrı-acılarla və üzüntülərlə əvəzlənir. Məsələn, ABŞ-ın "The Gazette" nəşrinin 28 iyun 1993-cü il tarixli sayında qələmə alınmış, müəllifi Nyu Jonson olan "Erməni qoşunlarının Azərbaycan ərazisinə basqını" məqaləsinin sərlövhəsi hər şeyi deyir. Ermənistan-Azərbaycan ixtilafının keçmiş Sovet İttifaqında ən dəhşətli etnik münaqişə kimi qələmə verildiyi məqalənin, belə demək mümkünsə, basqın yükü erməni silahlılarının Ağdama hücumu və 120 min rayon sakininin öz doğma yurd-yuvasını tərk etməsidir. Təsəvvür edin ki, mövcud fonda "erməni silahlıları Dağlıq Qarabağda bufer zona yaratmağa çalışırlar", "Seçkidə qələbə qazanan prezident Əbülfəz Elçibəyə qarşı qiyamdan sonra hakimiyyətə gələn Azərbaycanın yeni baş naziri Sürət Hüseynov işğal olunmuş əraziləri geri alacağına söz verib" kimi fikirlər diqqət çəkməkdədir. O dövrdə Azərbaycan xalqı neçə belə populistlərdən yalan vədlər görmüşdü. Hələ biri var idi, Şuşanın işğal olunacağı təqdirdə, başına güllə vuracağını deyirdi...

Vədlərdən söz düşmüşkən, kitabda "Nyu-York Tayms"ın 9 iyul 1993-cü il tarixdəki "Müharibə və siyasət Azərbaycanın zənginliyə gedən yolunu bağlayır" məqaləsində (müəllifi Serge Şmeman) Vətənimiz belə təsvir edilir: "Xəzərin sahilindəki bu kiçik ölkə iki ildən də az müstəqillik dövründə müharibə, seçkilər, çevrilişlər, qırğınlar, korrupsiya, İslam dirçəlişi, kommunistlərin yenidən fəallaşması, beynəlxalq intriqalar, iqtisadi xaos və zənginlik vədlərinin nə olduğunu bilir – böyük neft sərvətləri var və əgər digər məsələlər həll olunarsa, onlardan istifadə etmək olar".

Bəli, bütün özbaşınalıqlara Ulu öndər Heydər Əliyev son qoydu. Yeri gəlmişkən, məqalədə Heydər Əliyevin təsvir edilən qarışıqlığı aradan qaldırmaq üçün təcrübəyə və cəsarətə malik şəxs olaraq rəhbərliyə çağırıldığı vurğulanır. Ancaq bunun fonunda yazıda Azərbaycanın Ermənistan qarşısında cəbhə məğlubiyyətləri ilə bağlı ağrılı fikirlər də yer alır ki, əslində, detallarını təsvir etmək istəmədiyimiz bu cür sərt yanaşmanın özü də keçmişin ibrət dərsidir.

"Dağlıq Qarabağın etnik erməniləri son bir ildə Azərbaycanın 10 faizini ələ keçiriblər. Anklavı artıq əsas dəstəkçisi olan Ermənistanla iki quru dəhliz birləşdirir. Bu necə ola bilər?", – deyə sual verən ABŞ nəşri "Deyli Herald"ın müxbiri M.Lederer "Qələbəsinə ümidini üzən Ermənistan Azərbaycandan uzaqlaşır" sərlövhəli məqaləsində təəccüb içərisində 100 minlik ermənin 7 milyonluq Azərbaycanla müharibədə necə qalib gələ bilməsindən söz açır. Müəllif bu baxımdan əfsanədəki Davudun Goliata ilə qeyri-bərabər mübarizəsini təsvir etsə də, məqalədəki digər məqamlar, əslində, Qarabağ separatçılarına kənardan dəstək motivlərinin qabardılmasını rəhbər tutur. Əlbəttə, mövcud gedişatda əsas vurğu Azərbaycanın daxili-siyasi vəziyyətinin gərginliyinə, özbaşınalığın və hərc-mərcliyin təsvirinə qoyulur: "London institutuna görə, Ermənistan ordusunda 50000 əsgər var və Rusiyanın 7-ci Ordusunun təxminən 23000 əsgəri Ermənistanın Leninakan şəhərindədir. Ermənistan və Rusiya rəsmiləri heç bir əsgərin münaqişədə iştirak etmədiyini israr edirlər. İnstitut bildirir ki, yalnız bir il əvvəl ordu qurmağa başlayan Azərbaycan 40000 nəfərlik qüvvə toplayıb".

Kitabda erməni işğalının doğurduğu məşəqqətləri vurğulayan yazılardan biri




də "Nyu-York Tayms"ın 28 avqust 1993-cü il tarixli sayında yayımlanmış "Azərbaycandakı müharibə köçə təkan verib" sərlövhəli məqaləsidir. Məqalədə Zəngilanın və Füzulinin işğalının doğurduğu ağır humanitar vəziyyət təsvir edilir. Bu təsvir səhnələrini nəzərdən keçirəndə, istər-istəməz, Qarabağ ermənilərinin bölgəni tərk edərkən yola salınması ilə bağlı epizodları xatırlayırsan. Düşünürsən ki, azərbaycanlılar ermənilərlə necə xoş rəftar etmişdilər, bəs ermənilər necə etdilər? Məqalədəki ən təsirli yer isə ABŞ-ın o zamankı müvəqqəti işlər vəkili Robert Finnin qəzetə bildirdikləridir: "Mən dünyanın müxtəlif hissələrində çox qaçqının vəziyyətini görmüşəm. Bu gördüyüm ən pislərdən biridir". Yaxud: "Birləşmiş Millətlər Təşkilatı ağır döyüşlərin getdiyi bölgəni o dərəcədə təhlükəli elan edib ki, Qaçqınların İşi üzrə Agentliyin orada işləməsinə icazə verilmir". Görəsən, xalqımız bütün bunları necə yaşayıb?

Kitabda toplanmış məqalələrə nəzərən qardaş Türkiyənin Azərbaycanla bağlı həssaslıq nümayişinin, torpaqlarımızın işğalını ağrı ilə qarşılamasının ayrı-ayrı epizodlarının ingilisdilli mətbuatda geniş əksini tapdığını görmək fərqli hisslər yaşadır. Bu baxımdan Birləşmiş Ştatların "Press Demokrat" nəşrində yer almış "Türk qoşunları sərhəddə" (4 sentyabr 1993-cü il) və "Pitsburq Post-Gazetta" nəşrindəki "Türkiyə lideri Qafqaz müharibəsini müzakirə etmək üçün Rusiyada" sərlövhəli (9 sentybar 1993-cü il) məqalələri vurğulamaq mümkündür. Bu yazılarda Türkiyənin o zamankı baş naziri Tansu Çillərin nə qədər canfəşanlıq etdiyi aşkar duyulmaqdadır. Eyni zamanda, bu məqalələrdə dövrün qlobal siyasi mahiyyətinin ayrı-ayrı səhnələri açıqlanır ki, həmin təqdimatlar fonunda Heydər Əliyev şəxsiyyətinin necə böyük fədakarlıq və siyasi səriştə göstərdiyi, hansı çətinlikləri aradan qaldırdığı bir daha dolğun təsdiqini tapmaqdadır. Məqalələrdəki Heydər Əliyev obrazı dövrün mürəkkəbliklərinə və ziddiyyətlərinə qarşı  Azərbaycan naminə son dərəcə düşünülmüş siyasi addımlar atan müdriklik nümunəsi kimi parlamaqdadır. Bu obraz həm də Vətənə sevginin örnəyi kimi çıxış etməkdədir. Təsəvvür edin ki, "sovet idarəçiliyinin şinelindən çıxmış" Heydər Əliyev Sovetlər Birliyinə zidd mövqeyi ilə seçilən Qərb mediasının sanki rəğbət simvoludur. O, ağır məhrumiyyətlər içərisində canı ilə əlləşən ölkənin tək ümididir. Kitabda toplanmış digər məqalələrə xronoloji ardıcıllıqla nəzər salanda, kövrək ümidin tədricən qığılcıma çevrildiyini görmək mümkündür.

Bəli, Ulu öndər Heydər Əliyev, necə deyərlər, iki cəbhədə vuruşmağa başlayır. Birincisi, o, bütün dünyaya Ermənistanın təcavüzkar mahiyyətini usanmadan anladır, ikincisi isə Azərbaycanın inkişafı üçün qətiyyətli addımlar atmağa başlayır. Paralel olaraq, daxildəki antimilli, pozucu qüvvələri zərərsizləşdirir. Bütün bunlar kitabdakı ayrı-ayrı məqalələrdə yazılanların fonunda, sanki kino lenti kimi insanın gözünün önündən keçir. Nəhayət, təcavüz layiqli qiymətini almalı idi və dahi liderin yorulmaz əməyi bəhrəsini verir. ABŞ-ın "EBSCO" nəşrinin 1993-cü ildəki məqaləsinin başlığına diqqət yetirək: "Qurban zorakıya çevriləndə". Məqalədə bildirilir: "Ermənilər ənənəvi olaraq tarixin qurbanları sayılırlar, lakin görünür, onlar ssenarini yenidən yazmaq niyyətindədirlər. Son yeddi ayda erməni qoşunları və tankları Azərbaycan torpaqlarını işğal edərkən, serblərin Bosniyada etdiklərini də üstələdilər".

Kitabda toplanmış ayrı-ayrı məqalələrdə Azərbaycanın haqq səsi ifadəsini tapır, Qarabağ reallıqları görünməyə başlayır. Bu, Heydər Əliyev şəxsiyyətinin fədakarlığının məhsulu kimi meydana çıxır. Heydər Əliyev dünya mediası üçün obrazlı şəkildə desək, Qafqazda çayın axarını tamamilə başqa istiqamətə çevirmiş liderdir. Ulu öndər bunu nəhəng neft kontraktlarının imzalanması, Qərb kapitalını tarixən Rusiyanın təsir dairəsi olan Qafqaza gətirməsi ilə gerçəkləşdirməkdədir. İngilisdilli mediada mövcud məqam müxtəlif təqdimat çalarları ilə əksini tapmaqdadır. Əlbəttə, görülən tədbirlər ölkədə asayiş və əmin-amanlıq mühiti formalaşmadan mümkünsüz olardı. Ona görə də "Europe Journal"ın 18 fevral 1994-cü il tarixli məqaləsi belə adlanır: "Xaos içində nizam: Respublikada kim kimdir?".

"Müstəqillik illərində ingilisdilli mətbuatda Azərbaycan obrazı (1993-2003)" kitabının məqalələrindəki Heydər Əliyevli Azərbaycan 1994-cü ildə Ermənistanla atəşkəsdən və "Əsrin müqaviləsi"nin imzalanmasından sonra sürətli inkişaf yoluna çıxır. Bu yoldakı başlıca hədəfin Qarabağ amalı olduğu özünü Ümummilli liderin fəaliyyətinin qayəsi kimi göstərməkdədir. Sanki dünya Azərbaycandan neft istəyir, Azərbaycan isə dünyaya "Qarabağa ədalət!" hayqırır. Bu hayqırtı illər keçdikcə daha da güclənir. Heydər Əliyev ölkəmizi mötəbər tribunalara çıxarır.

Əlbəttə, dünya riyakardır, ermənipərəstdir və ikili standartlar siyasətinin əsiridir. Ulu öndər bu siyasətə qarşı məhdud imkanlarla mübarizə aparmasına rəğmən qalib ayrılmaqdadır. Bu mənada, 1996–1997-ci illərə aid müxtəlif məqalələrdəki "Dağlıq Qarabağ məsələsinin həlli yaxındır" və "Qafqazda sülhə doğru" sərlövhələri çox şey deyir. Amma topludakı digər yazılara diqqət yetirəndə görürsən ki, dünya başqa havadadır və bu hava əsasən haqq və ədalətin təntənəsi deyil, neft maraqları üçün əsməkdədir. Belə dolaşıq labirintdə Heydər Əliyev obrazı əlində çıraq atıldığı dərin quyudan ədaləti tapıb çıxaran və dünyaya nümayiş etdirən liderdir. Elə bir lider ki, Azərbaycanın milli maraqlarını dövlətçilik mənafelərini hər fürsətdəcə irəliyə çəkir, mövcud istiqamətdə prinsipiallıq və qətiyyət göstərir. Ayrı-ayrı məqalələrdə, həmçinin Heydər Əliyev dühasının necə böyük ustalıqla bir-birinə zidd qüvvələr arasında manevr etdiyini görmək mümkündür. Bu baxımdan "Vaşinqton post"da 1998-ci il oktyabrın 4-də dərc olunmuş "Sərvət ovçuları ABŞ-ı qeyri-sabit regiona cəlb etdilər" adlı məqalənin təkcə başlığı çox şeydən xəbər verir. Əlbəttə, məsələ yalnız sərlövhədə deyil: "Azərbaycan Dövlət Neft Şirkətinin vitse-prezidenti, ölkə Prezidentinin oğlu İlham Əliyev deyib: "Biz neftdən əsas məqsədimiz üçün... əsl ölkə olmaq üçün istifadə etdik".

Bəli, o zaman Azərbaycan Respublikasının Dövlət Neft Şirkətinin vitse-prezidenti vəzifəsində işləyən Prezident İlham Əliyev "Vaşinqton post"un diqqətə çatdırdığımız sitatında son dərəcə doğru ifadə etmişdi: Azərbaycan neftdən əsl ölkə olmaq üçün istifadə etdi. Bu istifadənin ideoloqu Ulu öndər Heydər Əliyev idi.

"Müstəqillik illərində ingilisdilli mətbuatda Azərbaycan obrazı (1993-2003)" kitabı bu dahi şəxsiyyətin Azərbaycan üçün etdiyi misilsiz fədakarlıqlara dünyanın nəzər salnaməsini özündə birləşdirmək baxımından son dərəcə dəyərli vəsaitdir. Belə bir toplunun işıq üzü görməsi, heç şübhəsiz, Heydər Əliyev şəxsiyyətinin 100 illik yubileyinə respublika miqyaslı ən böyük töhfələrdən biridir. Bu kitab yüksək qədirbilənlik nümunəsi yaratmaq yolundakı zəhmət kimi də qiymətlidir. Ona görə də onu ərsəyə gətirənlərə təşəkkürümüzü bildirir, hər bir oxucunu kitabla ətraflı tanışlığa dəvət edirik.

***Əvəz CAHANGİROĞLU***
***XQ***

# Özbəkistanda Heydər Əliyev adına Azərbaycanşünaslıq Mərkəzi açılıb



**Özbəkistandakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin (AMM) layihəsi ilə Daşkənd Dövlət Şərqşünaslıq Universitetində Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyi münasibətilə yaradılan Heydər Əliyev adına Azərbaycanşünaslıq Mərkəzinin açılışı olub.**

Mərkəzdə Ulu öndərin büstü qoyulub, Azərbaycan–Özbəkistan dostluğuna dair guşələr təşkil edilib, xalqımızın tarixi, dövlətçiliyimiz, mədəniyyətimizə dair mini kitabxana yaradılıb.

Daşkənd Dövlət Şərqşünaslıq Universitetinin rektoru, professor Gülçöhrə Rixsiyeva təhsil ocağı haqqında məlumat verib. O, 1918-ci ildə yaradılan Türkistan Şərqiyyat Universitetinin varisi olan 105 yaşlı ali təhsil müəssisəsində 7 fakültədə 14 istiqamət üzrə beş minə yaxın tələbənin təhsil aldığını qeyd edib.

Rektor universitetdə türk, ərəb, fars, Koreya, yapon, Çin, urdu, hind, puştu, malay, Vyetnam və s. dillər üzrə mütəxəssislər hazırlandığını vurğulayıb, AMM-nin təşəbbüsü ilə 2022-ci ildən başlayaraq Azərbaycan dilinin də tədris olunduğunu qeyd edib.

Gülçöhrə Rixsiyeva Azərbaycanla yüksək səviyyəli əlaqələrdən danışaraq, Azərbaycan Mədəniyyət Mərkəzi ilə razılığa əsasən, gələcəkdə universitetdə Azərbaycan dili üzrə mütəxəssislərin hazırlanmasının həyata keçiriləcəyini və yaradılan Azərbaycanşünaslıq Mərkəzinin bu istiqamətdə baza rolunu oynayacağını söyləyib. O, Azərbaycanşünaslıq Mərkəzinin universitetin tələbələri, özbək gəncləri və tədqiqatçılara Qafqazın lider dövləti, qardaş Azərbaycanı daha dərindən öyrənmək üçün gözəl imkanlar  açacağına inandığını vurğulayıb.

AMM-nin direktoru Samir Abbasov həmçinin Türk dövlətləri arasında mədəni əlaqələr və əməkdaşlıqdan danışaraq, dövlət başçılarımızın görüşləri, verdiyi tapşırıqlar nəticəsində bu gün münasibətlərin yüksək səviyyəyə çatdığını bildirib.

"Özbəkistan–Azərbaycan" Dostluq Cəmiyyətinin icraçı direktoru, professor Erkin Nuriddinov Özbəkistan–Azərbaycan əlaqələrində Heydər Əliyevin tarixi rolundan söz açaraq onun adını daşıyan Azərbaycan Mədəniyyət Mərkəzinin iki qardaş ölkə, xalq arasında əlaqələrin möhkəmlənməsi sahəsində gördüyü işləri yüksək dəyərləndirib.

Universitetin türkologiya fakültəsinin dekanı, dosent Cumali Şabanov, Özbəkistan Milli Universitetinin professoru Nigina Şermuxammedova, Əlişir Nəvai adına Özbək Dili və Ədəbiyyatı Universitetinin dosenti Gülbahar Aşurova, Daşkənd Dövlət Şərqşünaslıq Universitetinin professoru Adhambek Alimbekov Azərbaycanşünaslıq Mərkəzinin yaradılmasının uğurlu bir addım olduğunu qeyd ediblər.

Çıxış edənlər Azərbaycan–Özbəkistan dostluğu, qardaşlıq münasibətlərindən söz açaraq bu sahədə Ümummilli lider Heydər Əliyevin tarixi xidmətləri haqqında danışaraq, onun ideya və arzularının gerçəkləşdiyini, müstəqil dövlətlərimizin tərəqqisini, Türk dövlətləri arasında əməkdaşlığın yüksək səviyyəyə çatdırıldığını, tariximiz, mədəniyyətimiz, ədəbiyyatımıza dair layihələrin həyata keçirildiyini fəxarətlə söyləyiblər.

Tədbirdə universitetdə Azərbaycan dilini öyrənən tələbələr ana dilimizdə şeirlər, o cümlədən Xalq şairi Səməd Vurğunun "Azərbaycan" şeirini səsləndiriblər.

AMM adından Daşkənd Dövlət Şərqşünaslıq Universitetinə "İrəvan xalçaları" kitabı, Şuşaya aid 5 dilli nəşr və Özbəkistanda buraxılan "Heydər Əliyev" və "Şuşa – Türk dünyasının mədəniyyət paytaxtı" poçt markaları hədiyyə edilib.

Tədbirdə AMM-nin təşəbbüsü ilə çap olunan "Heydər Əliyev – 100 kəlam" adlı kitab iştirakçılara təqdim olunub. Azərbaycan, özbək və türk dillərində çap olunan kitaba Ulu öndərin  100 kəlamı daxil edilib.

***Qulu KƏNGƏRLİ,***
***XQ-nin xüsusi müxbiri***
**Daşkənd**




# Gənc şair-publisistin kitabı

**"Zəfər yolu" İctimai Birliyinin təşkilatçılığı ilə Yasamal Rayon Heydər Əliyev Mərkəzində məktəbli şair-publisist, Azərbaycan Jurnalistlər Birliyinin ən gənc üzvü Sevindik Nəsiboğlunun "Heydər Əliyev İli"nə həsr etdiyi "Ulu öndərin işığında" adlı kitabının təqdimatı keçirilib.**

Kinoşünas, fəlsəfə doktoru Zülfiyyə Eldarqızının aparıcılığı ilə keçən mərasimə elm və sənət adamları, ictimaiyyət nümayəndələri toplaşmışdılar. Aparıcı 10-cu sinif şagirdi olan Sevindiyin artıq 7 kitab müəllifi olduğunu və həmin nəşrlərdən  ən sanballısının Ümummilli liderin ölməz xatirəsinə həsr edildiyini bildirdi. Filologiya elmləri doktoru, professor Asif Rüstəmli uğurlarını yaxından izlədiyi Sevindiyin yaradıcılıq əzmini yüksək dəyərləndirərək, müəllifə uğurlar arzuladı. "Zəfər Yolu" İctimai Birliyinin sədri Pərvanə Salmanqızı çıxışında müəlifin yeni kitabı ilə bağlı fikirlərini bildirdi və onun "Ulu Öndər yadigarı" adlı şeirini söylədi.

Digər natiqlər – yazıçı-publisist Nəzakət Əhmədova-Kərimova, Dünya Azərbaycanlıları Mədəniyyət Mərkəzinin vitse-prezidenti Ruhiyyə Poladova, "Carçı" jurnalının təsisçisi və baş redaktoru Gülnarə Əmirquliyeva və başqaları ürək sözlərini söylədilər. Gənc müəllifin atası, istefada olan polis polkovniki, Vəkillər Kollegiyasının üzvü Nəsib Əliyev Sevindiyin söz sənətinə vurğunluğundan danışdı, onun Ulu öndəriin irsinə böyük maraq göstərdiyini vurğuladı.

Sevindik Nəsiboğlu kitabının Lənkəran şəhər 5 saylı tam orta məktəbində təqdimatının keçirildiyini, nəşrin "2023 – Heydər Əliyev İli" sərgisinin ekspozisiyasına qoyulduğunu söylədi və belə tədbirlərin onu yeni yaradıcılıq uğurlarına həvəsləndirdiyini bildirdi.

Sevindik Nəsiboğluna Dünya Azərbaycanlıları Mədəniyyət Mərkəzi Gənclər Təşkilatının sədr müavinliyi vəsiqəsi təqdim olundu. Müəllif isə yeni kitabın nüsxələrini imzalayaraq oxuculara hədiyyə etdi.

Qeyd edək ki, "Ulu Öndərin işığında" kitabı  Azərbaycanın Milli Kitabxanasına, Prezident Kitabxanasına və Bakı Kitab Mərkəzinə də təqdim olunub.

***XQ***

# Mərkəzi Seçki Komissiyasının növbəti iclası



**Dekabrın 16-da Məzahir Pənahovun sədrliyi ilə Mərkəzi Seçki Komissiyasının növbəti iclası keçirilib.**

Əvvəlcə Komissiyanın 2023-cü il oktyabrın 18-də və 20-də, dekabrın 8-də keçirilmiş iclaslarının protokolları təsdiq olunub.

Sonra bəzi seçki dairələri üzrə yeni seçki məntəqələrinin yaradılması məsələsinə baxılıb. Bildirilib ki, işğaldan azad edilmiş ərazilərdə məskunlaşan və uzunmüddətli tikinti-quruculuq işlərində çalışan çoxsaylı seçicilərin seçki hüquqlarının qanunvericiliyə uyğun təmin edilməsi, eləcə də Seçki Məcəlləsinin bununla bağlı tələbinin ödənilməsi məqsədilə müvafiq seçki dairələrinin dairə seçki komissiyaları tərəfindən yeni seçki məntəqələrinin təşkili zərurəti yaranıb. Komissiyanın qərarı ilə 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası prezidenti seçkilərində qanunvericiliyin tələblərinə uyğun olaraq 1 saylı Şərur–Sədərək, 2 saylı Şərur–Kəngərli, 3 saylı Babək–Şahbuz–Kəngərli, 4 saylı Naxçıvan şəhər, 5 saylı Babək–Naxçıvan–Culfa, 47 saylı Sumqayıt–Abşeron–Qaradağ, 75 saylı Yardımlı–Masallı, 84 saylı Füzuli, 97 saylı Tərtər–Naftalan–Goranboy, 118 saylı Ağdam şəhər, 120 saylı Cəbrayıl–Qubadlı, 121 saylı Laçın, 122 saylı Xankəndi, 123 saylı Kəlbəcər, 124 saylı Şuşa–Ağdam–Xocalı–Xocavənd, 125 saylı Zəngilan–Qubadlı seçki dairələrinin hüdudları daxilində yeni seçki məntəqələrinin yaradılması və həmin seçki məntəqələri üzrə yeni məntəqə seçki komissiyalarının formalaşdırılması aidiyyəti seçki dairələrinin dairə seçki komissiyalarına həvalə olunub.

İclasda sözügedən seçkilərlə əlaqədar maarifləndirmə tədbirlərinin təşkilinə dair məsələyə də baxılıb. Azərbaycan Respublikası Prezidentinin 2011-ci il 27 dekabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı"na və Seçki Məcəlləsinə əsasən seçki iştirakçıları üçün müxtəlif istiqamətlər üzrə çoxsaylı layihələri əhatə edən genişmiqyaslı maarifləndirmə proqramının gerçəkləşdirilməsi qərara alınıb.

Media nümayəndələri tərəfindən geniş işıqlandırılan iclasda, həmçinin bəzi seçki dairələri üzrə dairə seçki komissiyalarının tərkibində dəyişiklik edilib və cari məsələlərə baxılıb.

***XQ***

# Mərkəzi Seçki Komissiyasının 2023-cü il 18 oktyabr, 20 oktyabr və 8 dekabr tarixli iclas protokollarının təsdiq edilməsi barədə

## *Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı*

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 28.2-ci və 28.4-cü maddələrinə uyğun olaraq **qərara alır:**

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının 2023-cü il 18 oktyabr, 20 oktyabr və 8 dekabr tarixli iclaslarının protokolları təsdiq edilsin.

***Sədr Məzahir PƏNAHOV***
***Katib Arifə MUXTAROVA***
***Katib Mikayıl RƏHİMOV***

# Bəzi seçki dairələri üzrə yeni seçki məntəqələrinin yaradılmasına dair

## *Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı*

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının (bundan sonra – Mərkəzi Seçki Komissiyası) 8 dekabr 2023-cü il tarixli 7/15 saylı Qərarı ilə növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkiləri 2024-cü il fevralın 7-nə təyin edilmişdir.

Bununla əlaqədar işğaldan azad edilmiş ərazilərdə məskunlaşan və uzunmüddətli tikinti-quruculuq işlərində çalışan çoxsaylı seçicilərin seçki hüquqlarının qanunvericiliyin tələbinə əsasən təmin edilməsi, habelə Azərbaycan Respublikası Seçki Məcəlləsinin (bundan sonra – Seçki Məcəlləsi) 35.3-cü maddəsinin tələblərinin ödənilməsi məqsədilə müvafiq seçki dairələrinin dairə seçki komissiyaları tərəfindən yeni seçki məntəqələrinin yaradılması zərurəti yaranmışdır.

Seçki Məcəlləsinin tələblərinə uyğun olaraq 1 saylı Şərur – Sədərək, 2 saylı Şərur – Kəngərli, 3 saylı Babək – Şahbuz – Kəngərli, 4 saylı Naxçıvan şəhər, 5 saylı Babək – Naxçıvan – Culfa, 47 saylı Sumqayıt – Abşeron – Qaradağ, 75 saylı Yardımlı – Masallı, 84 saylı Füzuli, 97 saylı Tərtər – Naftalan – Goranboy, 118 saylı Ağdam şəhər, 120 saylı Cəbrayıl – Qubadlı, 121 saylı Laçın, 122 saylı Xankəndi, 123 saylı Kəlbəcər, 124 saylı Şuşa – Ağdam – Xocalı – Xocavənd və 125 saylı Zəngilan – Qubadlı seçki dairələrinin hüdudları daxilində yeni seçki məntəqələrinin yaradılması və məntəqə seçki komissiyalarının təşkili müvafiq seçki dairələrinin dairə seçki komissiyalarına həvalə edilməlidir.

Qeyd edilənlərə əsasən Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 17.6.19-cu, 19.4-cü, 28.4-cü və 35-ci maddələrinə uyğun olaraq **qərara alır:**

1. 1 saylı Şərur – Sədərək, 2 saylı Şərur – Kəngərli, 3 saylı Babək – Şahbuz – Kəngərli, 4 saylı Naxçıvan şəhər, 5 saylı Babək – Naxçıvan – Culfa, 47 saylı Sumqayıt – Abşeron – Qaradağ, 75 saylı Yardımlı – Masallı, 84 saylı Füzuli, 97 saylı Tərtər – Naftalan – Goranboy, 118 saylı Ağdam şəhər, 120 saylı Cəbrayıl – Qubadlı, 121 saylı Laçın, 122 saylı Xankəndi, 123 saylı Kəlbəcər, 124 saylı Şuşa – Ağdam – Xocalı – Xocavənd və 125 saylı Zəngilan – Qubadlı seçki dairələrinin hüdudları daxilində Seçki Məcəlləsində nəzərdə tutulan müddətlərə dair tələblərə riayət edilməklə yeni seçki məntəqələrinin yaradılması və həmin seçki məntəqələri üzrə məntəqə seçki komissiyalarının təşkili müvafiq seçki dairələrinin dairə seçki komissiyalarına həvalə edilsin.

2. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

***Sədr Məzahir PƏNAHOV***
***Katib Arifə MUXTAROVA***
***Katib Mikayıl RƏHİMOV***

# 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkilərində maarifləndirmə proqramının həyata keçirilməsinə dair

## *Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı*

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının (bundan sonra – Mərkəzi Seçki Komissiyası) 8 dekabr 2023-cü il tarixli 7/15 saylı Qərarı ilə növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkiləri 2024-cü il fevralın 7-nə təyin edilmişdir.

Azərbaycan Respublikası Seçki Məcəlləsinin (bundan sonra – Seçki Məcəlləsi) 25.2.7-ci maddəsinə əsasən Mərkəzi Seçki Komissiyası seçkilərin hazırlanması və keçirilməsi, seçki sistemi və praktikasının təkmilləşdirilməsi, seçicilərin məlumatlandırılması, seçki iştirakçılarının maarifləndirilməsi, eləcə də dairə və məntəqə seçki komissiyaları üzvlərinin peşəkarlıq səviyyəsinin daha da yüksəldilməsi məqsədilə müxtəlif layihələrin gerçəkləşdirilməsini təmin edir.

Eyni zamanda Azərbaycan Respublikası Prezidentinin 27 dekabr 2011-ci il tarixli Sərəncamı ilə təsdiq olunmuş "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı"nın 3.10-cu bəndinə uyğun olaraq, Mərkəzi Seçki Komissiyası dairə və məntəqə seçki komissiyalarının üzvləri üçün mütəmadi qaydada seçki hüququ üzrə ixtisaslaşdırılmış kurslar keçirir.

Buna görə də Seçki Məcəlləsi ilə vəzifə və səlahiyyətləri müəyyənləşdirilmiş qurumların da iştirakı ilə növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkiləri dövründə dairə seçki komissiyalarının sədrləri üçün müşavirə keçirilməsi, dairə və məntəqə seçki komissiyaları üzvlərinin peşəkarlıq səviyyəsinin daha da yüksəldilməsi üçün səsvermə günü prosedurlarına həsr olunan treninqlərin və digər layihələrin təşkil olunması, dövlət avtomatlaşdırılmış informasiya sisteminin işini dairə seçki komissiyalarında təmin edən kompüter mütəxəssisləri üçün seminar-treninqlər keçirilməsi, televiziya və radio proqramları, eləcə də digər yayım qurumları vasitəsilə seçki qanunvericiliyinin izahı, seçicilərin məlumatlandırılması, əyani vəsaitlər hazırlanması, nümayiş etdirilməsi və digər maarifləndirmə tədbirlərinin reallaşdırılması Mərkəzi Seçki Komissiyası tərəfindən təmin edilməlidir.

Mərkəzi Seçki Komissiyası yuxarıda qeyd edilənləri əsas götürərək, Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 25.2.7-ci, 25.3-cü, 28.2-ci və 28.4-cü maddələrinə uyğun olaraq **qərara alır:**

1. 2024-cü il fevralın 7-nə təyin edilmiş növbədənkənar Azərbaycan Respublikası Prezidenti seçkiləri dövründə seçki iştirakçıları üçün müxtəlif istiqamətlər üzrə çoxsaylı layihələri əhatə edən genişmiqyaslı maarifləndirmə proqramı həyata keçirilsin.

2. Mərkəzi Seçki Komissiyası və dairə seçki komissiyaları öz səlahiyyətləri daxilində bu Qərarın icrası ilə əlaqədar müvafiq tədbirlər görsün.

3. Bu Qərar dərc edildiyi gündən qüvvəyə minir.

***Sədr Məzahir PƏNAHOV***
***Katib Arifə MUXTAROVA***
***Katib Mikayıl RƏHİMOV***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 453** **Bakı şəhəri, 15 dekabr 2023-cü il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 1 dekabr tarixli 187 nömrəli Qərarı ilə təsdiq edilmiş "Yaşayış sahəsinin yenidən qurulması və (və ya) yenidən planlaşdırılmasının razılaşdırılması haqqında Qərar"da və 2009-cu il 25 dekabr tarixli 200 nömrəli Qərarı ilə təsdiq edilmiş "Yaşayış sahəsinin (qeyri-yaşayış sahəsinin) qeyri-yaşayış sahəsinə (yaşayış sahəsinə) keçirilməsi (keçirilməsindən imtina) haqqında bildirişin forması və məzmunu"nda dəyişiklik edilməsi barədə**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikasının Mənzil Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2022-ci il 20 dekabr tarixli 730-VIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 1 dekabr tarixli 187 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 12, maddə 1062) ilə təsdiq edilmiş "Yaşayış sahəsinin yenidən qurulması və (və ya) yenidən planlaşdırılmasının razılaşdırılması haqqında Qərar"a "təqdim edilmiş" sözlərindən sonra "və Azərbaycan Respublikası Mənzil Məcəlləsinin 24.2-1-ci maddəsinin tələbləri nəzərə alınmaqla əldə edilmiş" sözləri əlavə edilsin.

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2009-cu il 25 dekabr tarixli 200 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2009, № 12, maddə 1075) ilə təsdiq edilmiş "Yaşayış sahəsinin (qeyri-yaşayış sahəsinin) qeyri-yaşayış sahəsinə (yaşayış sahəsinə) keçirilməsi (keçirilməsindən imtina) haqqında bildirişin forması və məzmunu"nda birinci halda "Azərbaycan Respublikası Mənzil Məcəlləsinin" sözləri "Azərbaycan Respublikası Mənzil Məcəlləsinin 21.2-1-ci maddəsinin tələbləri nəzərə alınmaqla və həmin Məcəllənin" sözləri ilə əvəz edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 454** **Bakı şəhəri, 15 dekabr 2023-cü il**

**Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 3 avqust tarixli 167 nömrəli Qərarı ilə təsdiq edilmiş "Dövlət orqanlarına, hüquqi və fiziki şəxslərə gömrük məsələləri üzrə məlumatların verilməsi Qaydaları"nda və 2013-cü il 18 yanvar tarixli 7 nömrəli Qərarı ilə təsdiq edilmiş "Gömrük nəzarətinin həyata keçirilməsi Qaydaları"nda dəyişiklik edilməsi haqqında**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Respublikasının Gömrük Məcəlləsində dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikasının 2023-cü il 24 fevral tarixli 828-VIQD nömrəli Qanununun icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

**1.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 3 avqust tarixli 167 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2012, № 8, maddə 816; 2015, № 5, maddə 647) ilə təsdiq edilmiş "Dövlət orqanlarına, hüquqi və fiziki şəxslərə gömrük məsələləri üzrə məlumatların verilməsi Qaydaları"nın 2.6.1.7-ci yarımbəndi və "Qeyd" hissəsi ləğv edilsin.

**2.** Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2013-cü il 18 yanvar tarixli 7 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2013, № 1, maddə 68; 2015, № 5, maddə 637; 2016, № 10, maddə 1726; 2018, № 5, maddə 1129) ilə təsdiq edilmiş "Gömrük nəzarətinin həyata keçirilməsi Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

2.1. 6.7.4-cü yarımbənddən ", icazə blanklarının verilməsi" sözləri çıxarılsın;

2.2. 8.8-ci bənddə "Gömrük orqanlarına həvalə edilmiş beynəlxalq avtomobil daşımalarını tənzimləyən "icazə" blanklarının verilməsinə nəzarəti və bu sahədə" sözləri "Beynəlxalq avtomobil daşımaları sahəsində" sözləri ilə əvəz edilsin;

2.3. 8.8.1-ci yarımbənd və "Qeyd" hissəsi ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Bəzi dairə seçki komissiyalarının tərkibində dəyişiklik edilməsi barədə

## *Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının qərarı*

Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyası Azərbaycan Respublikası Seçki Məcəlləsinin 19.4-cü, 19.14-cü, 22.1-ci, 22.3.1-ci, 28.2-ci, 28.4-cü və 30-cu maddələrinə uyğun olaraq **qərara alır:**

1. Nizami Fərman oğlu Novruzov 8 saylı Binəqədi birinci, Nofəl Mülazim oğlu Əhmədov 9 saylı Binəqədi ikinci, Fərid Ülfət oğlu Babayev 38 saylı Gəncə birinci, Orxan Rasim oğlu Əzizov 114 saylı Şəki şəhər seçki dairəsi dairə seçki komissiyasının həlledici səs hüquqlu üzvü vəzifəsindən vaxtından əvvəl azad edilsinlər.

2. Bəsti Leysan qızı Cəfərova 38 saylı Gəncə birinci, Tangiz Val qızı Məmmədova 114 saylı Şəki şəhər seçki dairəsi dairə seçki komissiyasının həlledici səs hüquqlu üzvü təyin edilsinlər.

***Sədr Məzahir PƏNAHOV***
***Katib Arifə MUXTAROVA***
***Katib Mikayıl RƏHİMOV***

# Türkiyə ilə hərbi əməkdaşlıq uğurla davam edir

**Bu il Türkiyə və Azərbaycan 14 birgə hərbi təlim keçirib. Bu barədə Türkiyənin milli müdafiə naziri Yaşar Gülər bildirib.**

Nazir, həmçinin noyabrın 27-də Bakıda Azərbaycan, Türkiyə və Gürcüstan arasında 10-cu Üçtərəfli Müdafiə Nazirləri görüşünün hər üç ölkənin hərbi və təhlükəsizlik məsələləri də daxil olmaqla geniş sahələr üzrə ümumi maraqlarına və gözləntilərinə xidmət etdiyini vurğulayıb. Onun sözlərinə görə, regional sabitlik üçün səylər bundan sonra da davam edəcək.



***XQ***

# Azərbaycan beynəlxalq etimada və hörmətə layiq ölkədir

## COP29-un ölkəmizdə keçirilməsi qərarı bu nüfuzun növbəti təsdiqidir

**Prezident İlham Əliyev dekabrın 15-də keçirilən müşavirədəki çıxışında BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının–COP29-un gələn il respublikamızda reallaşması qərarını ölkəmizin növbəti böyük uğura imza atması, eyni zamanda, dünya ölkələrinin Azərbaycana bir daha böyük etimad və hörmət göstərməsi kimi dəyərləndirib. Dövlətimizin başçısı daha sonra deyib: "Biz buna layiqik, biz apardığımız siyasət nəticəsində dünya miqyasında çox güclü mövqelərə sahib olmuşuq. Azərbaycana beynəlxalq aləmdə olan hörmət günbəgün artır və biz bu hörməti öz əməlimizlə, işimizlə, siyasətimizlə qazanmışıq".**




Ölkə rəhbərinin müşavirədəki nitqində COP29-un indiyədək respublikamızda keçirilən tədbirlərlə müqayisəyə gəlmədiyi, hətta Avropa Oyunlarından çox diqqət çəkəcəyini diqqətə çatdırıb: "Həmin vaxt Azərbaycana 5 min idmançı və onları müşayiət edən təqribən 3 min qonaq gəlmişdi. Ancaq COP29-da 10 minlərlə xarici nümayəndə ölkəmizə gələcək, iki həftə ərzində Bakı dünyanın mərkəzi olacaq. Müəyyən ehtimallara görə, təqribən 70-80 min xarici qonaq bu müddət ərzində ölkəmizdə olacaq".

COP29 beynəlxalq konfransının respublikamızda reallaşmasını şərtləndirən digər mühüm bir amil isə Prezident İlham Əliyevin müşavirədə vurğuladığı kimi, Azərbaycanın bu gün dünyada neft-qaz ölkəsi olmaqla bərabər, həm də "yaşıl enerji" növlərini yaratmasının və bu enerjinin dünya bazarlarına nəql etməsinin hazırda prioritet xarakterə çevrilməsi ilə bağlıdır.

Yeri gəlmişkən, COP29-un beynəlxalq önəmi ilə bağlı bəzi məqamlara diqqət yetirək. Əvvəlcə onu qeyd edək ki, BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına Tərəflərin Konfransı COP Konvensiyanın ali qərar qəbul edən orqanıdır. Katibliyi Bonnda yerləşir. Hər il dünyanın çox sayda hökumət nümayəndəsi COP-da toplaşaraq iqlim dəyişmələrinin qarşısının alınması və fəsadlarının aradan qaldırılması istiqamətində birgə səylər göstərmək üçün çağırışlar edir.

1995-ci ildə Berlin şəhərində COP-un ilk toplantısı keçirilib, sonuncu COP28 cari il Dubayda reallaşıb. 100 minə yaxın nümayəndəni bir araya gətirən COP28 BMT tarixində ən genişmiqyaslı tədbir olub. Konfrans çərçivəsində təşkil edilən Zirvə toplantısına 120-dən artıq dövlət və hökumət başçısı qatılıb. Sözügedən tədbirdə ilk dəfə olaraq Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev iştirak edib.

Yeri gəlmişkən, COP-a evsahibliyi müəyyən qayda əsasında həyata keçirilir. Belə ki, evsahibliyi bir qayda olaraq BMT-nin beş regional qrupu arasında rotasiya edilir. Hər regional qrup üzvləri tərəfindən bu konfransı gerçəkləşdirəcək bir ölkəni seçmək üçün konsensusla qərar qəbul olunur.

2024-cü il COP29-a evsahibliyi etmək növbəsi Şərqi Avropa regional qrupu üzərinə düşüb. Həmin qrupa daxil olan ölkəmiz konfransın Azərbaycanda keçirilməsini təklif edib. Respublikamızla yanaşı, Ermənistan və Bolqarıstan da öz namizədliklərini irəli sürüb.

Xatırladaq ki, 2023-cü il dekabrın 7-də Azərbaycan Respublikası Prezidentinin Administrasiyası və Ermənistan Baş nazirinin Ofisi arasında aparılmış birbaşa danışıqların nəticəsi olaraq verilmiş birgə bəyanatda Ermənistan Azərbycanın xeyrinə öz namizədliyindən geri çəkilib. Bundan sonra Bolqarıstan da öz namizədliyini geri çəkmək qərarına gəlib və beləliklə, dekabrın 9-da Şərqi Avropa regional qrupu tərəfindən Azərbaycan 2024-cü ildə COP-a evsahibliyi edəcək ölkə kimi müəyyənləşdirilib. Rəsmi qərar isə dekabrın 12-də plenar iclas zamanı verilib.

Azərbaycanın COP-a evsahibliyi etməsinə etimad göstərilməsini bir sıra məqamlar şərtləndirir. Əvvəla, bu, Prezident İlham Əliyev tərəfindən aparılan məqsədyönlü siyasət nəticəsində Azərbaycanın yüksək sosial-iqtisadi inkişaf və möhkəm ictimai-siyasi sabitliyə nail olması ilə bağlıdır. Vətən müharibəsində qazanılan parlaq qələbədən sonra ölkəmizin dünyada daha güclü dövlət kimi tanınması da bu məsələdə önəmli rol oynayır. Dövlət başçısının uğurlu xarici siyasəti nəticəsində ölkəmizin beynəlxalq səviyyədə nüfuzu günbəgün artmaqdadır. Azərbaycan son 4 il ərzində BMT-dən sonra ən böyük beynəlxalq təsisat olan Qoşulmama Hərəkatına müvəffəqiyyətlə sədrlik edib və Prezident İlham Əliyev adıçəkilən müşavirədə bununla bağlı deyib: "Biz Qoşulmama Hərəkatına dörd il ərzində uğurla sədrlik edirik və burada da bizim sədrliyimiz 120 ölkənin dəstəyi ilə mümkün olmuşdur, hətta sədrliyimiz bir il uzadılmışdır. Bu, artıq böyük bir göstərici idi. Dünyanın 120 ölkəsi Azərbaycana öz dəstəyini ifadə etmişdir. Bu dəfə isə bütün dünya ölkələri bu dəstəyi göstərmişdir".

Ölkəmizin COP-a evsahibliyi etməsinə etimad göstərilməsini şərtləndirən amillərdən biri də respublikamızın qlobal xarakterli mötəbər tədbirləri yüksək səviyyədə təşkil etmək bacarığını dəfələrlə nümayiş etdirməsi, Azərbaycanda müasir infrastrukturun mövcudluğu və təhlükəsizliyin ən yüksək səviyyədə təşkili ilə bağlıdır. Bütün bunlarla bərabər, ölkəmizin ətraf mühitə verdiyi önəm də beynəlxalq aləmin diqqətini çəkir. Bu, statistik göstəricilərdən də aydın gürünür. Belə ki, Azərbaycan 1990-cı illə müqayisədə 2030-cu ilə qədər istixana qazlarının həcmini 35 faizə və 2050-ci ilə qədər isə 40 faiz azaltmağı qarşıya mühüm vəzifə kimi qoyur.

Onu da bildirək ki, erməni faşizminin işğal dövründə xarabalığa çevirdiyi Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları dövlətimizin başçısı tərəfindən "Yaşıl enerji" zonası elan edilib. Eyni zamanda, həmin ərazilərin dayanıqlı kənd təsərrüfatı, ekoloji cəhətdən təmiz nəqliyyat, "ağıllı" şəhərlər, "ağıllı" kəndlər kimi innovativ yanaşmalara əsaslanmaqla və minlərlə hektar sahədə meşələri bərpa etməklə 2050-ci ilədək "Netto sıfır emissiya" zonasına çevrilməsi nəzərdə tutulub.

Beləliklə, qlobal problemlər qlobal həllər tələb edir. Buna görə, ölkəmiz də iqlim dəyişikliyi ilə bağlı mühüm layihələr reallaşdırır. COP29 beynəlxalq konfransının respublikamızda gerçəkləşməsi də bu baxımdan mühüm önəm daşıyır.

***Vaqif BAYRAMOV***
***XQ***

## "Masdar"ın "yaşıl enerji" layihələrimizə dəstəyi

**Birləşmiş Ərəb Əmirliklərinin "Masdar" şirkəti Azərbaycanın təmiz enerji ilə bağlı planlarına dəstəyini davam etdirməyə hazırdır. Bu barədə şirkətin rəsmi "X" sosial şəbəkəsindəki hesabında qeyd edilib.**



"Gələn il COP29-a ev sahibliyi edəcəyi üçün Azərbaycan Respublikasını təbrik edirik. 2020-ci ildən sadiq tərəfdaş kimi "Masdar" Azərbaycanın təmiz enerji ambisiyalarını dəstəkləməkdən qürur duyur, 2030-cu ilə qədər bərpaolunan enerji mənbələrindən ümumi enerji tutumunun 30 faizdən çoxunu əldə etmək üçün birlikdə çalışırıq", – deyə məlumatda qeyd edilir.

Qeyd edək ki, "Masdar" şirkəti Qaradağda Xəzər regionunda və MDB məkanında ən böyük günəş elektrik stansiyasını inşa edib. 262 milyon ABŞ dolları dəyərində sərmayə hesabına tikilən bu generasiya gücü ölkəmizdə xarici investisiya cəlb edilməklə reallaşdırılan sənaye miqyaslı ilk günəş elektrik stansiyasıdır.

Stansiyada hər il 500 milyon kilovat-saat elektrik enerjisi istehsal edilməklə 110 milyon kubmetr həcmində təbii qaza qənaət ediləcək. Eyni zamanda, atmosferə atılan karbon emissiyası 200 min ton azaldılacaq. 550 hektar ərazini əhatə edən elektrik stansiyada 570 min günəş paneli quraşdırılıb. Bu stansiyanın şəbəkəyə qoşulması üçün 330 kilovoltluq yarımstansiya tikilib.

Bundan əlavə, Azərbaycan hökuməti və "Masdar" şirkəti arasında ümumi gücü 1000 meqavat olan "yaşıl enerji" layihələri üzrə üç investisiya müqaviləsi imzalanıb. İnvestisiya müqavilələri Biləsuvar rayonunda 445 meqavat, Neftçala rayonunun Bankə qəsəbəsində 315 meqavat gücündə günəş elektrik stansiyaları və Abşeron – Qaradağ rayonunda 240 meqavat gücündə külək elektrik stansiyası layihələrinin icrasını nəzərdə tutur.

***XQ***

## BTC regionda neft ixracının şah damarıdır



**2023-cü ilin yanvar–noyabr ayları ərzində Bakı-Tbilisi-Ceyhan (BTC) boru kəməri ilə 27,6 milyon ton neft nəql olunub. Bu da ötən ilin eyni dövrü ilə müqayisədə 27,1 milyon ton və ya 1,9 faiz çoxdur.**

Bütövlükdə isə, cari ilin 11 ayı ərzində Azərbaycanın magistral neft kəmərləri ilə nəql olunan 36,4 milyon ton neftin 75,9 faizi Bakı-Tbilisi-Ceyhan boru kəmərinin payına düşüb.

Hesabat dövründə BTC ilə 22,9 milyon ton Azərbaycan nefti nəql olunub ki, bu da boru kəməri ilə tədarük olunan ümumi həcmin 82,7 faizini təşkil edir. Yanvar-noyabr aylarında bu boru kəməri ilə daşınan neftin təqribən 4,8 milyon tonu və ya 17,3 faizi Türkmənistan və Qazaxıstanın payına düşüb. Ötən ilin eynii dövründə isə BTC ilə nəql olunan tranzit neftin həcmi 4,7 milyon ton təşkil edib.

Qeyd edək ki, hazırda BTC boru kəməri, əsasən, "Azəri-Çıraq-Günəşli" yataqlar blokundan çıxarılan xam nefti və "Şahdəniz" kondensatını daşıyır. Bundan əlavə, boru kəməri vasitəsilə Xəzərin o tayından – (Qazaxıstan və Türkmənistan) xam neft və kondensat həcmləri də nəql olunur.

## Dəmir yolu ilə sərnişin daşımaları 40 faiz artıb




**2023-cü ilin yanvar-noyabr aylarında Azərbaycanda dəmir yolu nəqliyyatı ilə 16,7 milyon ton yük və 6 milyon 342,3 min sərnişin daşınıb.**

Dövlət Statistika Komitəsindən verilən məlumata görə, 2022-ci ilin eyni dövrü ilə müqayisədə yük daşınmasında 1,8 faiz azalma baş versə də, sərnişin daşınmasında 39,9 faiz artım müşahidə olunub. Məlumata görə, hesabat dövründə orta hesabla sutkada 366 vaqon yüklənib, 424 vaqon isə boşaldılıb. Sutka ərzində dəmir yolunun Şimal istiqaməti üzrə 18,5 min ton, Qərb istiqaməti üzrə 2,7 min ton, Cənub istiqaməti üzrə isə 0,6 min ton yüklənmə işi yerinə yetirilib.

***XQ***

# Mərkəzi Asiya ölkələri ilə "yaşıl enerji" əməkdaşlığı

**Son illər Azərbaycan və Mərkəzi Asiya ölkələri iqtisadiyyatın bir çox sahələrində uğurla əməkdaşlıq edir. Artıq "yaşıl keçid" platformasının fəal iştirakçılarından olan ölkəmiz regionda bərpaolunan enerjinin istehsalı və ixracı ilə bağlı bir sıra layihələrin də əsas təşəbbüskarı kimi çıxış edir.**




Bu sahədə əməkdaşlığın məntiqi nəticəsi olaraq Azərbaycan, Qazaxıstan və Özbəkistan "yaşıl enerji"nin ixracı ilə bağlı mühüm sənəd qəbul ediblər. Hər üç ölkənin müvafiq nazirliklərinin rəhbərlərinin görüşündə bərpaolunan enerji mənbələrinə fokuslanan enerji mübadiləsi, o cümlədən "yaşıl enerji"nin ixracı sahəsində əməkdaşlıq məsələlərini nəzərdə tutan Birgə Kommünikeyə imza atılıb.

İqtisadiyyat Nazirliyinin yaydığı məlumata görə, Birgə Kommünike bu il noyabrın 14-də Bakıda Azərbaycan, Özbəkistan və Qazaxıstan arasında Mərkəzi Asiya ölkələrindən Azərbaycan ərazisi vasitəsilə Avropaya elektrik enerjisinin ixracı perspektivlərinin müzakirə edildiyi üçtərəfli görüşün nəticəsi olaraq qəbul edilib. Sənədi Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov, energetika naziri Pərviz Şahbazov, Özbəkistanın energetika naziri Jurabek Mirzamahmudov, investisiya, sənaye və ticarət naziri Laziz Kudratov, Qazaxıstanın energetika naziri Almasadam Satkaliyev imzalayıblar.

Qeyd edək ki, Birgə Kommünikedə bərpaolunan enerji mənbələrinə fokuslanan enerji mübadiləsi, "yaşıl" hidrogen və "yaşıl" ammonyakın inkişafı və ixracı, müvafiq infrastrukturun yaradılması sahəsində əməkdaşlıq kimi məsələlər əks olunub. Sənədə əsasən, tərəflər elektrik enerjisinin ixracı ilə bağlı birgə müəssisənin yaradılması və layihənin iqtisadi əsaslandırılmasına hazırlıqla bağlı razılığa gəliblər. Həmçinin regionun digər ölkələrinin də bu layihədə iştirak edə biləcəkləri vurğulanır.

Enerji və nəqliyyat sahələrində əməkdaşlığı nəzərdə tutan Birgə Kommünikedə Azərbaycan ilə Mərkəzi Asiya regionu ölkələri arasında iqtisadi və energetika əməkdaşlığının, o cümlədən Orta Dəhlizin imkanlarının daha da inkişaf etdirilməsi və möhkəmləndirilməsi məqsədilə bərpaolunan enerji mənbələrindən geniş istifadənin tətbiqinə əsaslanan davamlı inkişafa alternativin olmadığı, eləcə də tərəflərin öz iqtisadiyyatlarını inkişaf etdirmək hüququndan məhrum etmədən gələcək karbonsuzlaşma üçün ayrı-ayrılıqda və birgə səylərini davam etdirmək niyyətləri vurğulanıb. Sənəddə müxtəlif sahələrdə, o cümlədən enerji sahəsində birgə fəaliyyətin və əməkdaşlığın uğurlu təcrübəsinin nəzərə alınması, Azərbaycan Respublikasının region ölkələrinin enerji sistemlərinin gələcək inkişafının koordinasiyası və sinxronlaşdırılması təşəbbüsü, enerji sistemlərinin davamlı birləşdirilməsi potensialı, həmçinin təmiz elektrik enerjisinin, tərəflərin qarşılıqlı maraqlarına uyğun olaraq, o cümlədən üçüncü ölkələrin bazarlarına tədarükü və mübadiləsi səyləri alqışlanıb. Bundan əlavə bəyanatda Xəzər – Qara dəniz – Avropa ixrac dəhlizinin birgə layihəsinin Azərbaycan, Gürcüstan, Macarıstan və Rumıniya tərəfindən həyata keçirilməsini nəzərə alaraq, Naxçıvan – Türkiyə – Avropa enerji dəhlizinin perspektivləri qeyd edilib. "Yaşıl" elektronların və molekulların daşınması üçün infrastruktur yaratmaq səylərinin əlaqələndirilməsindən ortaya çıxan perspektivləri vurğulayaraq, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bu istiqamətdə aidiyyəti nazirliklərin və kommersiya təşkilatlarının səylərinin birləşdirilməsi tapşırığı nəzərə alınıb.

Xatırladaq ki, ötən ayın 14-də keçirilmiş iclasda Azərbaycan, Özbəkistan və Qazaxıstanın müvafiq nazirliklərinin rəhbərləri ölkələrimizin bərpaolunan enerji sahəsində potensialını vurğulayaraq alternativ mənbələrdən alınan elektrik enerjisinin Avropaya ixracı layihəsinə qoşulmağa hazır olduqlarını qeyd ediblər. Bu kontekstdə Azərbaycanın enerji sisteminə inteqrasiya edəndən sonra Qara dənizin dibi ilə yüksək gərginlikli xətlərin çəkilməsi imkanlarının araşdırılmasına maraq ifadə olunub.

Nazirlər, həmçinin təsdiqləyiblər ki, "yaşıl enerji"nin ötürülməsi layihəsinin inkişafı iştirakçı ölkələrin iqtisadiyyatları və enerji sistemləri arasında əlaqələri daha da gücləndirəcək, həmçinin milli enerji sənayelərinə yeni təkan verəcək. İclasda iştirak edən tərəflər bərpaolunan enerji mənbələrinə fokuslanaraq enerji mübadiləsi, "yaşıl" hidrogen və "yaşıl" ammonyakın inkişafı və ixracı imkanları, eləcə də müvafiq infrastrukturun yaradılması sahələrində əməkdaşlıq barədə razılığa gəliblər. Eyni zamanda, sözügedən istiqamətlər üzrə texniki tapşırığı hazırlamaq üçün birgə işçi qrupun yaradılması qərara alınıb.

Əldə olunan razılığa əsasən, tərəflər təsdiq olunmuş texniki tapşırıq əsasında ilkin texniki-iqtisadi əsaslandırmanın hazırlanması üçün tender elan edilməsi, qısa müddət ərzində layihənin həyata keçirilməsi üçün birgə müəssisənin yaradılması perspektivinin nəzərdən keçirilməsi, həmçinin regionda üçüncü ölkələrin iştirakına imkan verən layihə formatından istifadə etmək niyyətlərini təsdiq edirlər. Eyni zamanda, tərəflər layihənin təşviqi üzrə sistemli işin təşkili məqsədilə həftəlik əsasda, o cümlədən onlayn formatda ekspertlər səviyyəsində birgə işçi qrupun iclaslarının keçirilməsi, hər ay onlayn rejimdə energetika nazirləri səviyyəsində danışıqların təşkil edilməsini və rübdə bir dəfə müvafiq nazirliklərin rəhbərləri səviyyəsində üzbəüz görüşlərin keçirilməsi ilə bağlı razılığa gəliblər.

Tərəflərin ümumi razılığına əsasən, müvafiq nazirliklərin rəhbərləri səviyyəsində növbəti görüşün Özbəkistanın Daşkənd şəhərində keçirilməsi qərara alınıb.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

# Kənd təsərrüfatında yüksəliş davamlıdır

## Bu sahə son 20 ildə 2 dəfədən çox böyüyüb

**Azərbaycanda son 20 il ərzində aqrar sektor sürətlə inkişaf edib, kənd təsərrüfatı məhsullarının istehsal həcmi real ifadədə 2 dəfədən çox artıb, qeyri-neft sektorunda yaradılmış əlavə dəyərin orta hesabla 10 faizi bu sahənin payına düşür.**

Ölkədə ərzaq təhlükəsizliyinin təmin olunması məqsədilə müəyyən edilən vəzifələrə uyğun olaraq bu il də kənd təsərrüfatı üzrə müsbət inkişaf dinamikası qeydə alınıb. İlin ötən 11 ayında aqrar sahə 3 faizdən çox böyüyüb, bitkiçilikdə 2,5 faiz, heyvandarlıqda 3,5 faiz artım olub.

Dünya Bankının məlumatları əsasında aparılan hesablamalara görə, son illərdə Azərbaycanda kənd təsərrüfatı sahəsinin inkişaf tempi dünya üzrə orta göstəricidən yuxarı qeydə alınıb. Belə ki, 2003-cü il baza ili olmaqla, 2004-2022-ci illərdə Azərbaycanda aqrar sektorda yaradılan əlavə dəyərin orta illik real artım tempi 3,8 faiz olduğu halda, bu göstərici dünya üzrə 2,9 faiz, Avropa və Mərkəzi Asiya üzrə 1,4 faiz, region ölkələrindən Türkiyədə 2,7 faiz, Gürcüstanda 1,5 faiz, Rusiyada 1,8 faiz, İranda 2,8 faiz olub.



İstehsal potensialının yüksəlməsi və qlobal dəyər zəncirinə inteqrasiyanın güclənməsi hesabına 2003-2022-ci illər ərzində kənd təsərrüfatı məhsulları ixracının həcmi 6,9 dəfə artıb.

Son illərdə ölkəmizdə aqrar istehsal üzrə ən yüksək göstərici bitkiçilik sahəsində müşahidə edilib və bu müsbət dinamikanı daha çox əlavə dəyərin yaradıldığı meyvəçilik və tərəvəzçilik sahələrinin inkişafı, ümumi istehsalda payının yüksəlməsi şərtləndirib. Belə ki, 2003-cü illə müqayisədə ölkədə meyvə və giləmeyvə istehsalı 2,2 dəfə, kartof, tərəvəz və bostan məhsullarının istehsalı 1,6 dəfə artıb.

Daxili bazar tələbinin əhəmiyyətli şəkildə yüksəlməsi fonunda Azərbaycanın ərzaq təhlükəsizliyi göstəriciləri də, ümumilikdə, məqbul səviyyəyə çatıb, ilk növbədə, yerli istehsal potensialının gücləndirilməsi hesabına əsas ərzaq məhsulları üzrə özünütəminetmə səviyyəsi yaxşılaşıb. Hazırda əhalinin tələbatının daha yüksək olduğu ət və ət məhsulları üzrə özünütəminetmə səviyyəsi 2022-ci ildə 86 faizə, süd və süd məhsulları üzrə isə 83,3 faizə çatıb.

Bütün bu uğurları Ümummilli lider Heydər Əliyevin müstəqilliyin ilk illərində həyata keçirdiyi uğurlu iqtisadi siyasət çərçivəsində aqrar sahənin inkişafı ilə bağlı aparılan islahatlar şərtləndirib. Aqrar sahədə bazar münasibətlərinin formalaşması və istehsalı tam olaraq həyata keçirən özəl bölmənin təşəkkül tapması ilə nəticələnən bu islahatlar ölkəmizdə onilliklər boyu müasir kənd təsərrüfatı sisteminin formalaşmasına gətirib çıxarıb. Prezident İlham Əliyevin 2003-cü il noyabrın 24-də imzaladığı "Azərbaycan Respublikasında sosial-iqtisadi inkişafın sürətləndirilməsi tədbirləri haqqında" Fərman isə aqrar islahatların ikinci mərhələsinin başlanması üçün mühüm siyasi qərar olub.

Bu mərhələdə islahatlar daha da dərinləşib, aqrar sahəyə dövlət dəstəyi mexanizmi təkmilləşdirilib və çoxşaxəli dövlət dəstəyi sistemi yaradılıb, kənd təsərrüfatı istehsalçılarına verilən birbaşa subsidiyaların əhatə dairəsi genişləndirilib. Yanacaq və motor yağlarına, mineral gübrələrin, pestisidlərin satışına, toxum və tinglərin istehsalı və satışına, buğda və çəltik əkinlərinə, təkrar əkinlərə, pambıq və şəkər çuğunduru satışına görə subsidiyaların verilməsinə başlanılıb.

Son illər aqrar sahədə istehsal vasitələrinin əldə olunmasına tətbiq olunan güzəştlər diqqət mərkəzində saxlanılıb. Bu güzəştlər çərçivəsində bir sıra texnika və texnoloji avadanlıqların ölkəyə idxalı rüsumdan azad edilib, satışı subsidiyalaşdırılıb. Məsələn, fermer tərəfindən texnikanın ilkin dəyərinin 20 faiz ödənildikdə, büdcə vəsaiti hesabına idxal dəyərinin 40 faizi həcmində güzəşt edilib. Eləcə də müasir suvarma sistemləri dəsti və avadanlığının, soyuducu anbar və avadanlıqlarının alışına dövlət büdcəsi hesabına 40 faiz güzəşt olunub.

Hazırda ölkəyə idxal edilən, həmçinin yerli damazlıq təsərrüfatlardan satılan safqanlı cins damazlıq heyvanların qiymətinin 60 faizi dövlət büdcəsi hesabına subsidiyalaşdırılır, lizinq yolu ilə güzəştli satışı həyata keçirilir, yerli heyvanların cins tərkibinin yaxşılaşdırılması məqsədilə süni mayalanma yolu ilə alınan hər buzova görə 100 manat, hər arı ailəsinə görə 10 manat məbləğində subsidiya verilir.

Həmçinin torpaq-iqlim potensialından və su ehtiyatlarından daha səmərəli istifadəni stimullaşdırmaq, ərzaqlıq buğda ilə özünütəminetmə səviyyəsinin yüksəltmək üçün Azərbaycan Respublikası Prezidentinin 2022-ci il iyulun 9-da imzaladığı "Ərzaqlıq buğda ilə özünütəminetmə səviyyəsinin yüksəldilməsinə dair bir sıra tədbirlər haqqında" Fərmanla yeni dəstək mexanizmi yaradılıb. Bu mexanizmə görə, artıq cari ildən pivot suvarma tətbiq edilməklə istehsal olunaraq Dövlət Ehtiyatları Agentliyinə və un dəyirmanlarına təhvil verilən ərzaqlıq buğdaya görə məhsul subsidiyasının da ödənilməsinə başlanılıb.

Ümumilikdə aqrar sahəyə ayrılan subsidiyaların və güzəştlərin həcmi 2007-2022-ci illər ərzində nominal ifadədə 10 dəfəyə yaxın artaraq 450 milyon manat olub.

Aqrar sahəyə göstərilən dövlət dəstəyinin nəticəsi olaraq son illərdə texnika parkının yenilənməsi və aqrotexniki xidmətlərə əlçatanlığın, toxum, gübrə və pestisid kimi istehsal vasitələri ilə təminat səviyyəsi artıb, kənd təsərrüfat sahəsinin infrastruktur və təchizat bazası genişlənib.

Həyata keçirilən bütün bu tədbirlərin nəticəsidir ki, aqrar sektorda istehsal göstəricilərinin yüksəlməsi davamlı xarakter alıb. Dövlət Statistika Komitəsinin məlumatına əsasən, cari ilin yanvar-noyabr aylarında ölkəmizdə 11 milyard 571 min manat dəyərində kənd təsərrüfatı məhsulu istehsal edilib. Bu, ötən ilin eyni dövrü ilə müqayisədə 3,1 faiz çoxdur.

Son 1 ildə ölkədə istehsal olunan bitkiçilik məhsullarının dəyəri 2,8 faiz artaraq 5 milyard 842 milyon manat təşkil edib, heyvandarlıq məhsullarının dəyəri isə 3,3 faiz artaraq 5 milyard 728 milyon manat çatıb.

Məlumatda ölkədə kənd təsərrüfatı məhsulları yığımının başa çatmaq üzrə olduğu da vurğulanıb. Dekabrın 1-nə kimi qarğıdalı da daxil olmaqla tarlalardan 3 milyon 223 min ton və yaxud ötən ilin eyni dövrünə nisbətən 2,9 faiz çox dənli və dənli paxlalı bitkilər, 1 milyon 813 min ton (0,1 faiz çox) tərəvəz, 1 milyon 249 min ton (0,1 faiz çox) meyvə və giləmeyvə, 223 min ton (5,3 faiz çox) üzüm, 1milyon 124 min ton (12,3 faiz çox) yaşıl çay yarpağı, 29,2 min ton (1,3 faiz çox) günəbaxan, 213,5 min ton (4,8 faiz çox) şəkər çuğunduru və 262,6 min ton (12,2 faiz az) pambıq yığılıb.

2023-cü ilin yanvar-noyabr aylarında ölkədə quş əti də daxil olmaqla diri çəkidə 538 min ton ət, 2 milyon 62 min ton süd, 15,1 min ton yun, 357 ton barama istehsal olunub. 2022-ci ilin müvafiq dövrü ilə müqayisədə ət istehsalı 3,1 faiz, süd istehsalı 1,3 faiz, barama istehsalı 4,6 artıb.

Dövlət Statistika Komitəsindən XQ-yə daxil olan məlumata görə, təsərrüfatlarda 2024-cü ilin məhsulu üçün müvafiq işlər görülməsinə başlanılıb. Təmiz herik şumu daxil olmaqla cari ilin payızlıq əkinləri üçün 1040,3 min hektar sahədə şum qaldırılıb. Gələn ilin məhsulu üçün 830,1 min hektar sahədə dən üçün payızlıqlar səpilib. Ondan 489,5 min hektarı buğda, 340,4 min hektarı arpa və 0,2 min hektarı çovdar olub.

***Vaqif BAYRAMOV***
***XQ***

# Kürdəmirdə Aqrar İnnovasiya Festivalı

**Kənd Təsərrüfatı Nazirliyinin Aqrar İnnovasiya Mərkəzinin təşkilatçılığı ilə ilin son Aqrar İnnovasiya Festivalı Kürdəmir rayonunda keçirilib.**

Festivalda Kürdəmirlə yanaşı, Sabirabad, İmişli, Zərdab, Ucar, Göyçay, Ağsu və Hacıqabul rayonlarından da olan fermerlər iştirak ediblər.

Tədbirdə aqrar sahədə fəaliyyət göstərən dövlət və özəl bölmələri təmsil edən qurum və şirkətlərin nümayəndələri öz məhsul və xidmətlərinin nümayişini həyata keçiriblər. Kənd təsərrüfatının müxtəlif sahələrini əhatə edən ənənəvi məhsullar ilə yanaşı, "ağıllı" kənd təsərrüfatı sistemləri, quraqlığa davamlı yeni seleksiya nailiyyətləri, ekoloji sistemə uyğun texnologiyalar və mütərəqqi avadanlıqlar nümayiş olunub.



Festivalda yerli şirkətlərlə yanaşı, Özbəkistanın orqanik gübrə və biotexnoloji avadanlıqların istehsalı, eləcə də kənd təsərrüfatı texnikaları üzrə ixtisaslaşmış 2 şirkəti iştirak edib. Bundan başqa, kənd təsərrüfatı sahəsi üzrə mütərəqqi texnologiyaların tətbiqinin rolu və effektivliyinin nümayişi məqsədilə məhsul istehsalçıları üçün "Rəqəmsal kənd təsərrüfatı biliklərinin artırılması" bölməsi üzrə panel müzakirəsi keçirilib. Tədbirdə, həmçinin yerli bazarda fəaliyyət göstərən özəl şirkətlərin nümayəndələri tərəfindən sensor panel və ya smartfondan istifadə etməklə suvarma idarəsinə və göstəricilərə nəzarət etməyə imkan yaradan mütərəqqi texnologiyalar, kənd təsərrüfatı texnikalarının üzərinə yerləşdirilən və uzaqdan idarəedilən GPS texnologiyalar, kənd təsərrüfatı sahəsində fermerlərin xidmətlərə əlçatanlığının artırılması məqsədilə yaradılmış mobil tətbiqlər barədə təqdimatlar edilib, qabaqcıl texnologiyaların, təcrübələrin istifadəsinin təşviqi ilə bağlı müzakirələr aparılıb.

Xatırladaq ki, cari il Azərbaycanın 14 rayonunda Aqrar İnnovasiya Festivalı keçirilib. 12 minə yaxın fermerin iştirak edib faydalandığı bu festivallarda kənd təsərrüfatının müxtəlif sahələrinə aid məhsul və texnologiyalar sərgilənib, aqrar sahənin prioritet mövzularına dair 50-ə yaxın təlim və məlumat sessiyası keçirilib.

***XQ***

# Bu il fermerlərə 2,8 milyon manat sığorta ödənilib

**2023-cü ilin 11 ayında ölkədə sığortalanmış fermer və təsərrüfatlara, ümumilikdə, 2 milyon 742 min manat ödəniş edilib. Təsərrüfatlara edilən ödənişlər həm bitkiçilik, həm də heyvandarlıq üzrə dəymiş zərərləri əhatə edir.**



Aqrar Sığorta Fondunun məlumatına görə, hesabat dövründə bitkiçilik təsərrüfatları üzrə 2 milyon 44 min manat, heyvandarlıq təsərrüfatları üzrə isə 698 min manat həcmində sığorta ödənişi edilib. Xatırladaq ki, ki, Aqrar Sığorta Fondu 2021-ci ildə təsərrüfatlara dəyən zərərlər üzrə fermerlərə 1,7 milyon manat, 2022-ci ildə isə 2,3 milyon manat ödəniş edib. Yeri gəlmişkən, bu ilin 11 ayında həyata keçirilən ödənişlərin əvvəlki illərdən daha artıq olmasının səbəbi ölkədə aqrar sığorta istifadəçilərinin saynın artması, eləcə də qeyri-sabit hava şəraiti və təbiət hadisələrinin çoxalmasıdır.

Fonddan bildiriblər ki, dəyən zərərlərə görə aqrar sığorta ödənişləri yalnız sığortalı fermer və təsərrüfatlara edilir. Bu zaman fond tərəfindən əkin sahələri, bitkiçilik məhsulları, kənd təsərrüfatı heyvanları və balıqçılıq təsərrüfatları sığortalanır. Fermerlərə dəstək məqsədilə sığorta haqqının 50 faizi dövlət tərəfindən ödənilir.

***XQ***

# Naxçıvan xəbərləri

## İstehlakçılara 752 min manat ƏDV qaytarılıb

**İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətindən bildirildiyinə görə, Naxçıvan Muxtar Respublikasında "ƏDV geri al" layihəsi çərçivəsində 11 ayda istehlakçılara 752,2 min manat, təkcə noyabr ayında isə 100,1 min manat ƏDV geri qaytarılıb. Məlumata görə, yanvar ayı ilə müqayisədə noyabr ayında istehlakçılara qaytarılan məbləğ 4,8 dəfə artıb.**

Naxçıvanda yeni nəsil nəzarət-kassa aparatlarının tətbiqi istiqamətində işlər davam etdirilir. Bu il dekabrın 1-nə muxtar respublikada 2 min 554 ədəd yeni nəsil aparat quraşdırılıb. 11 ayda belə aparatlar vasitəsilə qeydə alınan dövriyyə 205,5 milyon manat olub.

## Vergi ödəyicilərinin sayı 2 dəfə artıb

**Muxtar Respublika İqtisadiyyat Nazirliyinin açıqlamasında Naxçıvanda yaradılmış əlverişli biznes mühiti və tətbiq edilən müasir vergi inzibatçılığı sayəsində bu ilin 11 ayında yeni qeydiyyatdan keçmiş vergi ödəyicilərinin sayının ilin əvvəli ilə müqayisədə 2 dəfə artdığı, həmçinin hesabat dövründə yeni qeydiyyata alınan keçmiş obyektlərin sayının 2,3 dəfəyə, əlavə dəyər vergisi (ƏDV) ödəyicilərinin sayının 39 faiz, qeydiyyatda olan POS-terminalların sayının isə 28 faizə yüksəldiyi bildirilib.**

Hazırda muxtar respublikada bir sıra özəl müəssisələr, o cümlədən 22 özəl təhsil müəssisəsi fəaliyyət göstərir. Onlardan da 1-i universitet, 21-i isə hazırlıq kurslarıdır. 11 ay ərzində hazırlıq kursları kimi fəaliyyət göstərən vergi ödəyicilərinin sayı 3 dəfə artıb.

## Pilot suvarma sistemləri qurulacaq

**Muxtar respublikanın Meliorasiya və Su Təsərrüfatı Açıq Səhmdar Cəmiyyətinin məlumata görə, son illər havaların quraqlıq keçməsi, yağıntının illk normadan aşağı olması səbəbindən su mənbələrində və çaylarda suyun miqdarı normadan aşağı olub. Ona görə də qapalı suvarma şəbəkəsindən daha geniş istifadə etmək zərurəti yaranıb. Belə bir vəziyyət nəzərə alınaraq muxtar respublikada 6 min 118 hektar sahədə qapalı suvarma şəbəkəsi tikilərək istifadəyə verilib.**

Məlumatda daha sonra qeyd edilir ki, "Naxçıvan Muxtar Respublikasinin sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illərin Dövlət Proqramı" ənənəvi suvarmadan mərhələli şəkildə daha mütərəqqi suvarma sistemlərinin tətbiqinə keçmək zərurətini yaradıb. Buna görə də hazırda mövcud qapalı suvarma şəbəkəsi üzərində mütərəqqi suvarma sistemlərindən olan pivot suvarma sisteminin tətbiq edilməsi nəzərdə tutulur.

***XQ***

# Muxtar respublikada məhsul bolluğunun elmi əsası yaradılıb

**Azərbaycanın Naxçıvan bölgəsində aqrar sektorun inkişaf etdirilməsi, kənd təsərrüfatı məhsullarının becərilməsinin, istehsalının və emalının innovativ üsullar əsasında təşkili aktual problemlərdən biridir. Bu baxımdan bölgədə meyvəçiliyin, tərəvəzçiliyin və üzümçülüyün genişləndirilməsi prioritet istiqmət kimi diqqət çəkir.**



Muxtar respublikada meyvəçilik, tərəvəzçilik və üzümçülük sahələrinin innovativ əsaslarla genişləndirilməsi, genefondun tədqiqi, tətbiqyönümlü sortların seçilərək əkin dövrüyyəsinə daxil edilməsi, aqrotevniki qulluq işlərinin təkmilləşdirilməsi, sahələrdən yüksək maddi gəlirin əldə olunması məqsədilə yüksək ixtisalı kadrların hazırlanması bu sahələr üzrə elmi əsasların yaradıılması zərurətini ortaya qoyub. Bu baxımdan Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi Naxçıvan Bioresurslar İnstitutunun meyvə, tərəvəz və üzümçülük laboratoriyasının rəhbəri, aqrar elmləri doktoru, dosent Varis Quliyev, baş elmi işçi dosent Loğman Bayramov və Azərbaycan Aqrar Universitetinin bağçılıq kafedrasının əməkdar müəllimi, dosent Hüseyn İdrisovun həmmüəllifi olduqları "Naxçıvanda meyvəçilik, tərəvəzçilik, üzümçülük" adlı monoqrafiyanın işıq üzü görməsu təqdirəlayiq iş kimi diqqət çəkir.

Müvafiq dövlət proqramlarını əhatə edən bu fundamental monoqrafiya giriş və meyvəçilik, tərəvəzçilik, üzümçülük sahələri üzrə 3 bölmədən ibarətdir. Praktiki əhəmiyyətli fundamental monoqrafiyada müvafiq fəsillərdə becərilən ayrı-ayrı meyvə-tərəvəz və üzüm sortları, onların tədqiq olunması, iqtisadi səmərəliliyi haqqında elmi məlumatlar, həmçinin rəngli fotoşəkillər verilib. Dərslik kimi də istifadə olunacaq bu kitabda, həmçinin Naxçıvan iqtisadi bölgəsinin aqrar sektorunda meyvəçiliyin, tərəvəzçiliyin, üzümçülüyün inkişaf tarixi, problemləri, müasir vəziyyəti, perspektivləri, becərilən sortların biologiyası və aqrotexnikası haqqında elmi və praktiki məlumatlar yer alıb.

Monoqrafiyada muxtar respublika üzrə meyvəçiliyin, tərəvəzçiliyin, üzümçülüyün sistematikası, genefond tərkibi, xəstəlik və zərərvericiləri, onlara qarşı mübarizə tədbirləri, geniş becərilən tətbiqyönümlü sortlar haqqında elmi məlumatlar öz əksini tapıb. Həm praktiki, həm də elmi əhəmiyyətli dərslik vəsaiti Azərbaycan Dövlət Aqrar Universitetinin və Naxçıvan Dövlət Universitetinin müvafiq kafedralarında, həmçinin aqraryönümlü təhsil müəssisələrinin bakalavr və magistr pillələrində kadr hazırlığı sahəsində çalışan professor, müəllim, eləcə də tələbələrin istifadəsi üçün nəzərdə tutulur. Yeni nəşrdən meyvəçilik, tərəvəzçilik, üzümçülük üzrə elmi işçilər, kənd təsərrüfatı mütəxəssisləri, fermer təsərrüfatı ilə məşğul olan sahibkarlar, fərdi torpaq sahibləri, aqronomlar və digər şəxslər də faydalan bilərlər.

***Maqsud QURBANOV,***
***AMEA-nın müxbir üzvü, professor***

Qərbi Azərbaycan – qədim türk yurdu

# “Biz o torpaqlara qayıdacağıq”

## *26 il əvvəl dekabrın 18-də tarixi ədalətsizliyi rəsmiləşdirən sənəd imzalandı*

**Bəri başdan deyək ki, yeni reallıqlar, zamanın çağırışları, eləcə də, regionda və dünyada gedən proseslər Ulu öndər Heydər Əliyevin 1997-ci il dekabrın 18-də imzaladığı tarixi fərmandan irəli gələn vəzifələri sürətlə aktuallaşdırır. Ümummilli liderin “1948-1953-cü illərdə azərbaycanlıların Ermənistan SSR ərazisindəki tarixi-etnik torpaqlarından kütləvi surətdə deportasiyası haqqında” Fərmanı ötən əsrin son onilliyində bizə tarixi faciələrimizi unutmamaq barədə çağırış idisə, bu gün artıq reallaşdırılması vacib olan bir vəzifəyə çevrilmişdir.**



Bəli, Azərbaycan xalqı son üç ildə böyük tarixi yol keçərək, 1991-ci ildə dövlət müstəqilliyini bərpa edərkən malik olduğu ərazilərinin hamısına nəzarəti təmin etmiş, on illər boyu düşmən əsarətində qalmış bütün şəhər və kəndləri üzərində suverenliyimiz bərqərar olunmuş və bayraqlarımız ucaldılmışdır. Bunun nə qədər əhəmiyyətli fakt olduğunu söyləməyə və ya sübut etməyə ehtiyac yoxdur. Ancaq bu, o demək deyil ki, biz indiki nəslin qarşısında duran vəzifələrin hamısını yerinə yetirmişik. Dövlət başçımızın da dediyi kimi, bizim görməli olduğumuz işlər hələ çoxdur. Bəs həmin işlər nədən ibarətdir?

Əslində, bu sualın cavabını Prezident İlham Əliyev hələ ötən il dekabrın 24-də Qərbi Azərbaycandan olan bir qrup ziyalı ilə görüşdə vermişdi. Dövlət başçımız həmin gün xatırlatmışdı ki, 1948-1953-cü illərdə xalqımız növbəti dəfə deportasiyaya məruz qalmışdı. Bu, sovet hökumətinin Qərbi azərbaycanlılara və bütövlükdə, Azərbaycan xalqına qarşı törədilmiş növbəti cinayəti idi. Bu, eyni zamanda, böyük ədalətsizlik idi, vicdansızlıq idi. Çünki həmin zaman İkinci Dünya müharibəsi cəmi 3 il idi ki, başa çatmışdı. Azərbaycan xalqı o müharibədə böyük fədakarlıq göstərmişdi. Təkcə sovet Azərbaycanından olan insanların 300 mini həlak olmuşdu. Üstəlik, o vaxt sovet Ermənistanında yaşamış on minlərlə soydaşımız da müharibədə həlak olmuşdu. Yəni Azərbaycan İkinci Dünya müharibəsində faşizm üzərində əldə edilmiş Qələbədə müstəsna rol oynamışdı. Bunu hər kəs bilir. Bütün bunlara baxmayaraq, xalqımıza qarşı növbəti cinayət, daha doğrusu, vicdansızlıq törədilmiş, saxta bəhanə ilə on minlərlə azərbaycanlı öz ata-baba yurdundan deportasiya edilmişdi.

Prezident xatırlatmışdı ki, biz birgə səylərlə Qərbi Azərbaycana Qayıdış Konsepsiyasını işləməliyik. Qarabağ münaqişəsi həll olunandan sonra indi bizim gündəliyimizdə duran əsas məsələ budur. Əlbəttə ki, Qarabağ münaqişəsi həll olunmayana qədər bu haqda danışmaq bəlkə də tez idi. Ancaq, məncə, bu gün biz vaxt itirməməliyik. Qayıdış Konsepsiyası hazırlanmalıdır. Yenə də bu, necə deyərlər, sülhsevər konsepsiya olmalıdır. Biz bütün beynəlxalq konvensiyalarda bizə məqbul olan müddəaları götürüb bunun əsasında öz hüquqlarımızı tələb etməliyik. Qayıdış Konsepsiyası olmalıdır. Bizim tarixi yaşayış yerlərinin bir çoxu, mütləq əksəriyyəti indi bomboşdur. Biz bunu bilirik.

Ulu öndərin 26 il əvvəl imzaladığı fərmanın preambulasında da bu məsələlər öz əksini tapırdı. Orada göstərilirdi ki, son iki əsrdə Qafqazda azərbaycanlılara qarşı məqsədyönlü şəkildə həyata keçirilmiş etnik təmizləmə və soyqırımı siyasəti nəticəsində xalqımız ağır məhrumiyyətlərə, milli faciə və məşəqqətlərə məruz qalmışdır. Mərhələ-mərhələ gerçəkləşdirilən belə qeyri-insani siyasət nəticəsində azərbaycanlılar indi Ermənistan adlandırılan ərazidən, min illər boyu yaşadıqları öz doğma tarixi-etnik torpaqlarından didərgin salınaraq kütləvi qətl və qırğınlara məruz qalmış, xalqımıza məxsus minlərlə tarixi-mədəni abidə və yaşayış məskəni dağıdılıb viran edilmişdir.

Xatırladaq ki, SSRİ Nazirlər Sovetinin 1947-ci il 23 dekabr tarixli 4083 nömrəli və 1948-ci il 10 mart tarixli 754 nömrəli qərarları Azərbaycan xalqına qarşı növbəti tarixi cinayət aktı idi. Həmin qərarlar əsasında 1948—1953-cü illərdə yüz əlli mindən çox azərbaycanlı Ermənistan SSR ərazisindəki dədə-baba yurdlarından kütləvi surətdə və zorakılıqla sürgün olunmuşdur. Adi hüquq normalarına zidd olan bu qərarların icrası zamanı avtoritar-totalitar rejimin mövcud repressiya qaydaları geniş tətbiq edilmiş, minlərlə insan, o cümlədən qocalar və körpələr ağır köçürülmə şəraitinə, kəskin iqlim dəyişikliyinə, fiziki sarsıntılara və mənəvi genosidə dözməyərək, həlak olmuşlar. Bu işdə erməni şovinist dairələrinin və SSRİ rəhbərliyinin cinayətkar siyasəti ilə yanaşı, o dövrki Azərbaycan rəhbərliyinin öz xalqının taleyinə zidd mövqeyi, soydaşlarımıza qarşı törədilən cinayətlərin təşkilində və həyata keçirilməsində iştirakı da az rol oynamamışdır.

Xüsusilə vurğulanmalı məqamlardan biri də bu faktların Azərbaycan və Ermənistanla yanaşı, postsovet məkanında hamıya məlum olmasına baxmayaraq, Nikol Paşinyan və onun komandasının bəzi üzvlərinin bu gün uydurduqları yalanlardır. Onlar dönə-dönə deyirlər ki, guya azərbaycanlılar Ermənistandan həm ötən əsrin əvvəlində, həm ortasında, həm də sonunda könüllü olaraq getmiş, onların heç bir hüququ pozulmamış və heç bir zorakılıqla üzləşməmişlər. Bu isə ermənilərin özlərinə və himayədarlarına xas olan saxtakarlıq və haqsızlığın təsdiqidir. İnsan nə qədər riyakar olmalıdır ki, dünyanın gözü qabağında törətdiyi vəhşilikləri unutdurmağa çalışsın.

Təbii ki, unutdura bilməzlər və bilməyəcəklər. Azərbaycan Prezidenti 44 günlük İkinci Qarabağ müharibəsindən sonra dedi ki, biz ərazi bütövlüyümüzü bərpa etmişik, heç kəsə ərazi iddiamız yoxdur və olmayacaq. Ona görə də Ermənistanla ədalətli sülhə nail olmaq, regionun tərəqqisinə töhfələr vermək istəyirik və buna nail olacağıq. Amma, …biz tariximizi, xalqımızın üzləşdiyi müsibətləri, törədilmiş soyqırımlarını, vəhşilikləri, şəhər və kəndlərimizin viranəyə çevrilməsini unutmamalıyıq və unutmayacağıq. Çünki, əgər həmin faktları unutsaq, onlar təkrar oluna bilər.

O ki qaldı, soydaşlarımızın Qərbi Azərbaycana – öz tarixi ata-baba torpaqlarına qayıtmasına, cənab Prezident xatırladır ki, biz oraya tank üstündə, hərbi yolla deyil, sivil qaydada, mülki nəqliyyat vasitələri ilə, sülh şəraitində qayıdacağıq. Əminik ki, nəyi, nə zaman, necə etməyi hamıdan yaxşı bilən Azərbaycan Prezidentinin həmin proqnozunun da reallaşdırılmasının şahidi olacağıq. İnşallah!

***İttifaq MİRZƏBƏYLİ***
***XQ***

Zamanın həqiqəti – həqiqətin zamanı

# Urartudan Sakasenaya hay uydurmaları

## Tarix sinif lövhəsinə təbaşirlə yazılmır

**Bu ermənilərdən elə hoqqalar çıxır ki, bilmirsən nə ad verəsən: milli gerizəkalıq, hoqqabazlıq, yoxsa siyasi gediş. Bu sıradan İrəvanın yeni meri andiçmə mərasimini öz məzhəbində, guya, Urartu üslubunda təşkil etmişdi: təntənə keçirilən binanın giriş qapısında “Urartu əsgərləri” qiyafəsində keşikçilər düzülmüşdülər.**




Bu melodram – gülməli-ağlamalı olay sovet dönəmində hayların buna bənzər bir şousunu – hoqqabazlığını da yada saldı. O zamanlar Moskvanın xüsusi himayəsində kölgələnən, özlərinə Qafqaz və Anadolu coğrafiyasında saxta tarix qondaran haylar tək SSR-də deyil, bütün dünyada car çəkirdilər ki, bəs urartular onların ən qədim babalarıdır, ulu nənələri Haykanuş isə Urartu padşahının hərəmi olub. Lenorman, Raulinsin kimi Avropa alimləri əlüstü bu sərsəm fikrin əleyhinə çıxdılar, urartuların ermələlərlə heç bir əlaqəsinin olmadığını, onların Güneydən Anadoluya gəldiklərini dəlil-sübutla bəyan elədilər. Bununla erməni xaçqarları, yalançı tarixçiləri bir müddət sussalar da, sonra bu əsassız, yalançı ideyalarından əl çəkmədilər.

Mövzu ilə bağlı sadə bir gerçəkliyi oxucuların diqqətinə çatdırmaq istəyirik. Bir sıra bilim adamları əski tarixləri təkcə torpağın altında arxeoloji qazıntılar, daş üzərindəki yazılarla deyil, həm də yerin üstündəki toponim, etnonim, hidronimlərlə də gerçəklikləri ortaya qoyurlar. Bu baxımdan urartu sözünü xırdalayıb araşdırdıqda onun iki isim və bir şəkilçi birləşməsindən ibarət olduğu aşkar görünür: Ur+ər+tu! Yəni, Ur (yəni, Ur ərlərinin yeri, məskəni).

Ur – şumerlərdəki məşhur Ur şəhər-dövlətin adıdır. Ər – min illər öncə olduğu kimi dilimizdə işlənən kişi, igid deməkdir. Tu – şəkilçisi də onun təki min illərdir dilimizdə mövcuddur. Məsələn: daşdı, otdu. Bu şəkilçi başqa türk dillərində də varlığını qoruyub saxlamışdır: alma+tı qazax dilində alma çox olan yer, yəni, “almalıq” deməkdir.

Qeyd etmək yerinə düşər ki, tarixdə və bugünümüzdə Ur, İr, Ər, Or sözönləri ilə başlayan nə qədər toponimlər, hidronimlər, etnonimlər, oykonimlər var. Qədim Şumerlərdə Ur, Uruk şəhər dövlətləri, Arazın o tayında Urmi şəhəri və gölü, bu tayında Zəngəzurda Urud yaşayış məskəni, Türküstanda İrtış çayı, Avropanın şimalında İrlandiya ölkəsi, Avrasiyada məşhur Artur adı... Bir deyil, beş deyil...

“Kiş-kiş deməklə donuz darıdan çıxmadığı təki” nə qədər yazılsa da, deyilsə də haylar öz uydurma tarixləri, olmayan şəhərləri barədə yazmaqda davam edirlər. Onları dəstəkləyən xristian dünyasında Fransa kimi ölkələrdən soruşan yoxdur ki, hanı sizin o “möhtəşəm” şəhərlərin, qalaların xarabalıqları?!

Başqa bir misal. Qarabağda son dönəmlərdə hayların hallandırdığı “Artsax” sözünü götürək. O söz ki, haylar bununla tarixi Qarabağ toponimini əvəzləməyə cəhd edirdilər. Çünki, Qarabağ toponiminin – Arazın o tayı ilə paralel uzanan Qaradağla səsləşməsi bu yer adlarının yalnız türk köklü olmasını göstərir. “Qara” sözünün “böyük” və “torpaq” mənaları var və min illərdir dilimizdə çeşidli şəkillərdə işlənir. Çox əski çağlardan dədə-babalarımız Arazın bu tayını Qarabağ – “bağ-bağatlı torpaq”, o tayını Qaradağ – “dağlıq yer” adlandırıblar.

Qaradağ adı Türküstandan tutumuş Anadoludan o yanlaradək neçə-neçə ölkələrdə vardır. Anadolu türkcəsində “kara yol” “torpaq yol” mənasında işlənir. Ancaq bu tərs və kəmsavad toplum anlamır ki, “Ərsaq” etnoniminin dəyişdirilmiş şəkli olan “Artsax” da türk sözüdür. “Ərməniyyə”ni “Armeniya” elədikləri təki “Ərsaq”ı da “Artsaq”a çeviriblər. Və bu etnonim ər və saq sözlərinin birləşməsindən yaranıb, mənası “saq ərləri” (kişiləri) deməkdir. “Saq” etnonimi çox qədimdir və əski bir türk tayfasının adıdır. Bu sözə Güneydən, uzaq Doğudan tutmuş Quzeyədək haralarda rast gəlinmir...

Dünya ədəbiyyatının ilk nümunələrindən olan Saqalar, Saxa Respublikası, Saxalin yarımadası, Anqlosaks, Almaniyada Saksoniya əyaləti bu sıradandır. Yunan tarixçisi Herodot Azərbaycanın dağlıq bölgələrindən birinin Sakasen adlandırıldığını yazmışdır. Dağlar qoynundakı bu cənnət guşəsindəki Şəki (Səki), Zaqatala (Saqatala), Balakən (Balasaqun) toponimlərinin yaranmasında Saq etnonimi birbaşa iştirak etmişdir.

Dünya dillərində “ş-s-z” səsləri bir-birinə keçir. Məsələn: “şeytan” sözü Avropa dillərində “satan” kimi işlənir. Biz “baş, beş, talış” deyirik. Qazax və qırğızlarsa “bas, bes, talas” deyirlər. Bu sıradan bizdəki “Şəki”



toponimi Krımda “Saki” kimi tələffüz olunur. Burada müalicə kurortu ilə məşhurlaşmış şəhər Saki kimi tanınır. Yeri gəlmişkən deyək ki, Azərbaycanda ikinci Şəki ölkəmizin güneyindəki Zəngəzur vilayətindədir. Tanınmış jurnalist Flora Xəlilzadə bu qədim yurdda doğulub. Babəkin son anda sığındığı Şəki şəhəri də həmin məkandır.

Əgər haylar indiki Qarabağın min illər öncə “Artsax” adlandırılması haqqında bir sənəd tapıblarsa bunun onların törəndiyi, mənşəyi məlum olmayan hay tayfasına nə aidiyyatı?! Bəlkə, Şəki, Zaqatala, Balakən bölgələri də Hayastan imiş?! Nə yaxşı ki, “Dəmir yumruq” bu sərsəm başları əzdi. Onlar Qarabağ adını Artsaxa dəyişdirə bilsəydilər qədim Sakasen bölgəsini – Şəki, Zaqatala və Balakəni də Artsax dövlətinə qatacaq, bu gün də Rusiyanın yerinə buraya Fransanın “sülhməramlı” qoşunlarını köməyə çağıracaqdılar.

Dilimiz, tariximiz və coğrafiyamızla bağlı olan saqalar Azərbaycan bilim adamları tərəfindən ciddi araşdırmalar tələb edir. Və bu araşdırmaların sonuçlarının əcnəbi dillərdə nəşr edilməsi elmə, tarixə xidmətdən gərəkli bir işdir. Bizlər əski türlərdən olan saqların genlərini, dillərini daşıyırıq. Çox acınacaqlıdır ki, indiyə qədər saqalar tərcüməsi ilə nəşr olunub xalqımızın ixtiyarına verilməyib. Stalin – Mikoyan tandeminin antitürk despotizmi dönəmində buna qəti surətdə yol verilməyib. İndi niyə susmalıyıq?!

***Fazil GÜNEY,***
***yazıçı-şərqşünas,***
***Əməkdar jurnalist***

Sağlam həyat

**Səhiyyə Nazirliyinin akademik C.Abdullayev adına Elmi-Tədqiqat Kardiologiya İnstitutunun ürəyin işemik xəstəlikləri şöbəsinin müdiri, tibb üzrə fəlsəfə doktoru Mədinə Əzimova ilə son zamanlar daha çox müşahidə edilən qəfil ölümlərin səbəblərindən, eləcə də infarktdan danışdıq. Ürək xəstəliklərinin profilaktikası üçün sağlam həyat tərzinin, zərərli vərdişlərdən uzaq olmağın və balanslı qidalanmanın vacibliyini vurğulayan kardioloq XQ-nin infarktla bağlı suallarını cavablandırdı:**



# Qəfil ölümün səbəbləri və xilas yolları

**– Mədinə xanım, öncə qəfil ölümlərin səbəbi barədə məlumat verərdiniz...**

– Havaların soyuması ilə əlaqədar ürək xəstəliklərinin insanları daha çox narahat etməsi müşahidə olunur. Ölümlə nəticələnən xəstəliklər içərisində infarkt öncül yerdə durur. Miokard infarktı – ürək əzələsinin işemik nekrozudur və qan dövranının kəskin pozulması nəticəsində əmələ gəlir. Bu zaman ürək əzələsinin bir nahiyəsinə gələn qan axınının kəsilməsi nəticəsində həmin hissədə hüceyrələr məhv olur.

Bir çox hallarda miokard infarktının baş verməsinin səbəbi koronar arteriyaların aterosklerozu olur. Lakin 5–25 faiz hallarda koronar arteriyaların emboliyası (infeksion endokardit, mədəcik daxili tromb), digər xəstəliklər zamanı damarların zədələnməsi (revmatizm, revmatoid artrit nəticəsində əmələ gələn koronartritlər), tac damarların anadangəlmə defektləri və s. səbəbdən də miokard infarktı baş verə bilər. Ən çox rast gəlinən isə qeyri-obstruktiv koronar arteriya xəstəliyi nəticəsində baş verən miokard infarktıdır (MİNOCA).

**– Bəs xəstəlik hansı klinik əlamətlərlə özünü büruzə verir?**

– Demək olar ki, 80–90 faiz hallarda miokard infarktının anginoz variantına rast gəlinir. Ümumi şikayət döş sümüyü arxasında ağrıdır. Bu ağrı stenokardiya tutmasından fərqlidir – daha güclü, əzabverici olub, sıxıcı, təzyiqedici, yandırıcı, göynədici xarakterlidir, ölüm qorxusu ilə müşayiət olunur.



**– Bu xəstəliyin əlamətlərinin damarların tutulması ilə baş verən miokard infarktından fərqi nədir?**

– MINOCA infarktı olan xəstələrdə gözlə görünən bütün koronar damarlar açıq olur və aterosklerotik lövhələr və ya tromblar müşahidə edilmir. Ancaq adından da göründüyü kimi, bu, miokard infarktıdır. Koronar damarların tıxanması ilə yaranmayan miokard infarktı ilə simptomlar eynidir. Angioqrafiya zamanı dəyişikliklər gözlə görünməyən çox kiçik damarlarda olur. Həmin kiçik arteriyalar kortəbii şəkildə partlaya, orada qan laxtaları yarana bilər. Bu zaman koronar arteriyalar kəskin daralır. MINOCA infarktının baş verməsində mühüm rol oynayan spastik stenokardiyalar (tutmalar), damarların obstruksiya zamanı baş verən stenokardiyalardan fərqli olaraq, qısa təsirli nitratların qəbulu ilə daha tez keçir.

**– MINOCA infarktı hansı səbəblərdən baş verə bilər?**

– Qeyri-obstruktiv koronar arteriya xəstəliyi nəticəsində baş verən miokard infarktı müxtəlif səbəblərdən ola bilər. Epikardial arteriyaların zədələnməsi (aterosklerotik düyünlərin dağılması, xoralaşma) də, koronar arteriyaların spazmı da infarkt yarada bilər. Bu, həm endogen – stres zamanı baş verən stenokardiya nəticəsində, həm də ekzogen – damardaraldıcı vasitələrin təsirindən meydana çıxa bilər. İnfarktın narkotik vasitələrin təsirindən, koronar damarların endotelinin disfunksiyası zamanı onun bir və ya bir neçə hissəsində baş verən spazmalardan miokardit və kardiomiopatiya zamanı baş verməsi mümkündür.

Koronar qan dövranının kəsilməsi və ya kəskin məhdudlaşması “ağırlaşmış“ aterosklerotik düyünün olduğu nahiyədə koronar arteriyanın trombozu nəticəsində baş verir. Düyünün incəlmiş kapsulu zədələnir, spazm daralmış damar mənfəzini bir az da daraldır. Tədricən trombun ölçüləri böyüyür. Əgər spontan lizis (ərimə) baş verməzsə və ya trombolitik terapiya aparılmazsa, tromb damarın mənfəzini tamamilə tutur və həmin damar şaxəsinin qidalandırdığı nahiyədə miokard hüceyrələrinin nekrozu (ölümü) baş verir.

Əksər xəstələrdə ağrı sindromunun pik vəziyyətində kəskin damar çatışmazlığının əlamətləri – intensiv tərləmə, başhərlənmə, kəskin halsızlıq, taxikardiya, ətrafların soyuması, arterial təzyiqin enməsi və s. baş verə bilər. Təngnəfəslik və aritmiya, kəskin dövrdə bədən temperaturunun yüksəlməsi də müşahidə oluna bilər.

Miokard infarktının klinik olaraq anginoz, astmatik, abdominal, aritmik, serebrovaskulyar və simptomsuz variantları mövcuddur.

**– Qeyri-obstruktiv koronar arteriya xəstəliyi nəticəsində baş verən miokard infarktının diaqnostikası və müalicəsi necə aparılır?**

– Diaqnoz xəstənin şikayətlərinə və instrumental-laborator müayinələrin nəticəsinə əsasən qoyulur. Elektrokardioqramma (EKQ) və exokardioqramma (ExoKQ) müayinələrinin aparılması mütləqdir. Xəstənin döş qəfəsinin rentgenoqrafiyası, koronar angioqrafiya, ürəyin MRT müayinəsi də aparılmalıdır.

Miokard infarktlı xəstələrdə, eləcə də MİNOCA infarktlı xəstələrdə diaqnozun təyini üçün qanın laborator müayinəsi – miokardın nekroz markerlərinin təyini də mütləqdir.

Müalicə ən qısa zamanda damar mənfəzinin açılmasına, sonrakı tromb əmələ gəlməsinin qarşısının alınmasına, nekroz ocağının və infarktətrafı zonanın məhdudlaşdırılmasına, infarktın ağırlaşmalarının aradan qaldırılmasına əsaslanır. Ağrının başlanmasından ən çox 6–12 saat ərzində xəstə stasionara çatdırılmalı və koronar angioqrafiya olunaraq miokardın reperfuziyası (qan təchizatının bərpa olunması) həyata keçirilməlidir.

**– MİNOCA infarktının proqnozu və profilaktikası ilə bağlı nə deyərdiniz?**

– Xəstəliyin proqnozu pasiyentin stasionara nə qədər tez çatdırılmasından asılıdır. Erkən başlamış stasionar müalicə xəstənin həyatda qalma şansını artırır, ağırlaşmaların qarşısını alır, infarktdan sonrakı dövrdə fiziki və psixoemosional reabilitasiyanı yaxşılaşdırır.

Xəstəliyin profilaktikası üçün sağlam həyat tərzi sürmək, alkoqol, nikotin qəbulu kimi zərərli vərdişlərdən uzaq durmaq, sağlam və balanslaşlı qidalanmağa üstünlük vermək tövsiyə olunur. Xüsusilə risk qrupunda olan insanlar mütəmadi olaraq kardioloji müayinələrdən keçməlidirlər. Ölümə bir addım yaxınlaşmamaq üçün həkim tövsiyələrinə əməl etmək vacibdir.

***Zərifə BƏŞİRQIZI***
***XQ***

Təqvim yada salır

# Azərbaycana xidmətin alimlik etalonu

## Ustad Şirməmməd Hüseynovun 99 yaşına



**Şirməmməd Hüseynov. Bu ad Azərbaycanın ictimai fikri, elmi mühiti, jurnalistikası, nəhayət, milli ziyalılıq üçün, sözün əsl mənasında, etalondur. Bu ad zirvədir. Elə bir zirvə ki, onu fəth etməyə, sadəcə, cəhd göstərməyin özü belə Azərbaycana xidmətdir.**

Şirməmməd Hüseynov məfkurə zirvəsindəki Azərbaycan nəhəngdir. Onun nəzərlərindəki Azərbaycan özünün milli mənlik şüuru, identikliyi ilə bütöv bir orqanizmdir. Bu orqanizmi dəyərli alimimizin həyat və fəaliyyətinin zənginlik ruhu qidalandırmışdı.

Şirməmməd Hüseynovun həyat fəlsəfəsi Azərbaycanı, belə demək mümkünsə, vətənləşdirmək amalıdır. Alim bu amal uğrunda gecəsini gündüzünə qataraq, böyük əzm və fədakarlıqla çalışmışdı. Onun keçdiyi yola diqqət yetirəndə, istər-istəməz, yada klassiklərimiz düşür.

Milli mətbuatımızın qurucusu Həsən bəy Zərdabidən sonrakı qəzet bumu o dövrün Azərbaycan cəmiyyətinə təfəkkür sahiblərimizi, fikir dühalarımızı qazandırmışdı. Elə bir dühaları ki, cəmiyyətin yükünü çiyinlərində daşımaqdan mənəvi zövq alırdılar. Şirməmməd müəllim də işindən zövq alırdı. Onun aldığı zövqdə istiqlalçı klassiklərin irsinin daşıyıcısı olmaq milli ləyaqət düsturuna çevrilmişdi. Onun milli kimlik düşüncəsi və hissi milli haqq və ədalət mübarizəmizə işıq salmışdı. O, özünün zənginlik dünyası ilə bu mübarizəyə ideoloji parlaqlıq gətirmişdi.

Tam qətiyyətlə demək mümkündür ki, Şirməmməd Hüseynov obrazı bir körpüdür. Keçmişlə müasirliyi birləşdirən körpü. O, keçmişin zənginlik ruhunu gələcəyə doğru istiqamətləndirmək məqsədinə köklənmişdi. Mövcud anlamda Şirməmməd Hüseynov şəxsiyyəti həm də ənənə daşıyıcısıdır.

Şirməmməd Hüseynov adı artıq bir ənənədir. Alimliyə fövqəladəlik gətirən dəyərdir. Onun fövqəladəliyində jurnalistika mütəhərrikdir, ictimai münasibətlər sisteminin katalizatorudur. Şirməmməd müəllimin jurnalistikası elmi-publisistik məzmunu düşüncə dərinliyi, mövzu rəngarəngliyi ilə cəmiyyətə kolorit verən müstəsna missiyalı nəhəng məfkurə strukturudur.

Bütün sahələrdə xidməti olan insanlarımız, ictimai simalarımız var. Hər birinin əməyi danılmazdır. Amma düşünürəm ki, Şirməmməd Hüseynovlu jurnalistika bu peşənin digər sahələrdən üstünlüyünün vurğulanmasıdır. Bu vurğulanmada genimizə hopmuş yüksək mənəvi çalarların əsaslandırılmış bəyan məntiqi var. Axı, Şirməmməd müəllim, hər şeydən əvvəl, bir mənəvi dünyadır. Zənginliyində Azərbaycan amalının dayandığı dünya.

Nəhayət, Şirməmməd Hüseynov Ustaddır. O, "ustad" sözünün haqqını tam şəkildə ödəməyi bacarmış mükəmməl obrazdır. Bu bacarıqda uzun ömrünün Azərbaycan adlı ürək döyüntülərinin inikası duyulmaqdadır. Ona görə də anadan olmasının 99-cu ildönümündə Ustadı yada salmaq böyük fəxrdir, mənəvi borcdur.

Ad gününüz mübarək, ey Ali ruh! Bilirəm, Siz yaşayırsınız. Bilin ki, qəlbinizdə yaşatdığınız Azərbaycan sevdası daim pöhrələnməklə qol-budaq atıb yaşamaqdadır və əbədi yaşayacaqdır. Tam əmin olun, Siz də qəlbimizdə əbədi yaşayacaqsınız!

Bir il də yaşayaq. Sizin yüzilliyinizi qeyd edək. Bu, bütün Azərbaycan mətbuatının bayramı olacaq.

Allah Şirməmməd müəllimə rəhmət eləsin!

*Əflatun AMAŞOV,*
*Baş redaktor*

# Xarəzimli jurnalistə ölkəmizin mükafatı təqdim edilib



**Özbəkistan Milli Media Assosiasiyasının 20 illiyi ilə bağlı "Renessans" Milli Mükafatının verilməsi mərasimi keçirilib.**

Özbəkistan Prezidentinin mətbuat katibi Şerzod Əsədov və digər çıxış edənlər Özbəkistanda kütləvi informasiya vasitələrinə dövlət dəstəyi və media sahəsinin inkişafı barədə danışıblar.

Sonra müxtəlif nominasiyalar üzrə jurnalistlərə mükafatlar təqdim olunub.

Özbəkistandakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzi öz mükafatını Xarəzm vilayətinin "S-İqbol" telekanalının jurnalisti Sevara Raxmagullayevaya təqdim edib. Ona gələn il Azərbaycanda reallaşdırılacaq mediaturda iştirak hüququ verən Fəxri Diplom, xüsusi statuet və pul mükafatı təqdim olunub.

AMM-nin direktoru Samir Abbasov bildirib ki, mərkəz uzun illərdir ki, Özbəkistan mediası ilə sıx əməkdaşlıq edir, hər il ölkənin televiziya və radio kanalları, internet saytlarının jurnalistləri üçün Azərbaycana mediaturlar təşkil olunur. Məhz bu əməkdaşlığın nəticəsi olaraq Özbəkistanın kütləvi informasiya vasitələrində Azərbaycanla bağlı çoxlu materiallar verilir.

*Qulu KƏNGƏRLİ,*
*XQ-nin xüsusi müxbiri*
**Daşkənd**

# Mədəniyyət xəbərləri

### Dərbənd tarixi sənədlərdə



***AMEA Tarix və Etnologiya İnstitutunun şöbə müdiri, tarix elmləri doktoru, professor Tofiq Mustafazadənin "Dərbənd: XVIII–XIX əsrin əvvəllərində" adlı kitabı nəşr olunub.***

İnstitutdan bildirilib ki, kitabda arxiv sənədləri və tarixi mənbələr əsasında Dərbəndin XVIII–XIX əsrin əvvəllərində sosial-iqtisadi və ictimai-siyasi vəziyyəti araşdırılır. Əsərdə XVIII əsrin əvvəllərindək Səfəvi şahının təyin etdiyi hakimin sultanlıq kimi idarə etdiyi Dərbəndin 1722–1735-ci illərdə çar Rusiyası tərəfindən işğalı dövründəki vəziyyəti, 1747–1759-cu və 1796–1803-cü illərdə mövcud olmuş Dərbənd xanlığının, habelə Dərbəndin Quba xanlığının tərkibində olduğu illərdə (1759–1796, 1803–1806) vəziyyəti nəzərdən keçirilir.

### Pantomim Teatrı beynəlxalq mükafat alıb

***Qırğızıstanın paytaxtı Bişkek şəhərində "Aytmatov və teatr" adlı VI Beynəlxalq Teatr Festivalında Azərbaycan, Qazaxıstan, Qırğızıstan, Türkmənistan, Özbəkistan və Rusiya Federasiyasının teatrları iştirak edib.***



Müxtəlif ölkələrdən gələn teatr kollektivləri Çingiz Aytmatov adına Qırğızıstan Dövlət Rus Milli Teatrında Aytmatovun əsərləri əsasında hazırlanmış tamaşaları nümayiş etdiriblər.

Azərbaycan Dövlət Pantomim Teatrının kollektivi festivalda Çingiz Aytmatovun "Əsrə bərabər gün" əsəri əsasında hazırladıqları "Manqurt" tamaşası ilə ölkəmizi təmsil edib. Azərbaycan Dövlət Pantomim Teatrının kollektivi Qırğızıstanın mədəniyyət, informasiya, idman və gənclər siyasəti naziri və Qırğızıstanın teatr xadimləri ittifaqı tərəfindən Çingiz Aytmatovun əsərlərinin özünəməxsus plastik interpretasiyasına görə xüsusi mükafata layiq görülüb.

### Şəhid haqqında film

***YAP Gəncə şəhər təşkilatında "AzerGold" Qapalı Səhmdar Cəmiyyətinin baş sponsorluğu ilə ərsəyə gətirilmiş, Vətən müharibəsi şəhidi Muxtar Qasımlıya həsr olunan "Qəhrəman Muxtar Qasımlı" sənədli filminin təqdimat mərasimi keçirilib.***



Şəhid ailələri, müharibə iştirakçıları və Gəncə şəhərində fəaliyyət göstərən ali təhsil ocaqları tələbələrinin tamaşa etdikləri filmdə Muxtar Qasımlının təkcə döyüş yolu deyil, bütün ömür səhifələri verilib, idman sahəsində əldə etdiyi uğurlar, süjet xəttinə daxil edilib. Vətən müharibəsinə ehtiyatda olan zabit kimi qatılan Muxtarın döyüş yolu düşmənin müdafiə səddinin yarıldığı Füzulidə başlayıb və rayonun Alxanlı kəndində sona çatıb. 2020-ci il oktyabr ayının 2-də Silahlı Qüvvələrimizin baş leytenantı Muxtar Qasımlı qəhrəmancasına döyüşərək şəhidlik zirvəsinə ucalıb.

Maraqla seyr edilən sənədli filmin ssenari müəllifi və rejissoru Ruslan Mollayev, prodüseri şəhidin atası Əli Qasımov, bədii rəhbəri isə Almaz Qasımovadır.

**XQ**

Ziya Bünyadov – 100

# Astanada görkəmli şərqşünas sayğı ilə anıldı



**Astanada Lev Qumilyov adına Avrasiya Milli Universitetində görkəmli Azərbaycan tarixçisi və şərqşünası, akademik və ictimai xadim Ziya Bünyadovun anadan olmasının 100 illiyinə həsr olunmuş dəyirmi masa konfransı keçirilib.**



"Görkəmli elm xadimi Ziya Bünyadov və onun türkologiya elminin inkişafındakı töhfələri" mövzusunda elmi müzakirəni giriş sözü ilə açan Qazaxıstanın Avrasiya Milli Universitetinin prorektoru Janna Kurmanqaliyeva bu il anadan olmasının 100 illiyini türk xalqlarının böyük sayğı ilə qeyd etdiyi dünya şöhrətli şərqşünasın mənalı həyatı və zəngin yaradıcılığından söz açıb. O, Ziya Bünyadovun apardığı fundamental tədqiqatlardan bəhs edərək, qeyd edib ki, akademikin araşdırmalarında orta əsr müsəlman Şərqi dövlətlərinin ictimai-siyasi, sosial-iqtisadi və mədəni tarixi dərin təhlillər əsasında dolğun əksini tapıb. Azərbaycan aliminin aşkar etdiyi və araşdırdığı bir çox nadir mənbələr bu gün də türk dünyasında davamlı istinad olunan ən mötəbər qaynaqlar sırasındadır.

Beynəlxalq Türk Akademiyasının prezidenti, akademik Şahin Mustafayev elmi irsi Azərbaycanın Dövlət mükafatına layiq görülmüş Əməkdar elm xadimi Ziya Bünyadovun 100 illik yubileyinə həsr olunmuş məclisin Qazaxıstanda Müstəqillik Gününün qeyd olunması ərəfəsinə təsadüf etməsini ikiqat əlamətdar hadisə kimi qiymətləndirib. Akademik bildirib ki, onun da müəllimi olmuş Ziya Bünyadov Şərqdə ən böyük elmi mərkəzlərdən biri olan Şərqşünaslıq İnstitutu yaradıldığı gündən ömrünün sonuna qədər burada çalışıb, orta əsrlər Şərqi və Ərəb xilafəti, Azərbaycan, Qafqaz və Orta Asiya tarixi üzrə görkəmli mütəxəssis kimi dünyada tanınıb.

Qazaxıstan Respublikası Parlamenti Senatının deputatı, professor Darhan Kıdıralı, ölkəmizin Qazaxıstan Respublikasındakı səfiri Ağalar Atamoğlanov Sovet İttifaqı Qəhrəmanı, tarixçi alim Ziya Bünyadovun Azərbaycan xalqının tarixinin saxtalaşdırılması cəhdlərinə qarşı daim ardıcıl və qətiyyətli mübarizə apardığını söyləyiblər, taleyüklü milli məsələlərə münasibətdə hər zaman vətənpərvər ziyalı mövqeyi ilə seçildiyini vurğulayıblar.

Beynəlxalq Türk Akademiyasının vitse-prezidenti Asxat Kessikbayevin moderatorluğu ilə davam edən elmi məclisdə AMEA Tarix İnstitutunun şöbə müdiri, akademik Nərgiz Axundova "Ziya Bünyadov: Azərbaycan şərqşünaslığında orta əsr türk xalqlarının ortaq tarixi üzrə tədqiqatların əsasını qoyan alim", Özbəkistan EA Milli Arxeologiya Mərkəzinin baş mütəxəssisi, professor Bəxtiyar Babacanov "Xarəzmin tarixi akademik Ziya Bünyadovun tədqiqatlarında", Avrasiya Milli Universitetinin əməkdaşı professor Samal Tüleubayeva "Ziya Bünyadov və Qafqazla Orta Asiyada milli şərq məktəblərinin yaranma tarixi", AMEA Şərqşünaslıq İnstitutunun əməkdaşı Zemfira Qurbanova "Akademik Ziya Bünyadovun çoxşaxəli şəxsiyyəti və əsərləri" mövzusunda məruzələrlə çıxış ediblər.

Konfransın gedişində akademik Ziya Bünyadova həsr olunmuş "Orta Asiyadakı qədim türk yazıları" yubiley nəşrinin təqdimatı da olub.

*Qabil YUSİFOĞLU*
*XQ*

# Lənkəranlı yazarın yubileyi



**Azərbaycan Yazıçılar Birliyinin (AYB) Lənkəran bölməsi və Vilvan kənd tam orta məktəbin təşkilatçılığı ilə bu təhsil ocağının akt zalında yazıçı-publisist, Prezident təqaüdçüsü Etibar Əhədovun anadan olmasının 75, yaradıcılığının 50 illiyi qeyd olunub.**

Məktəbin müəllimi Afaq Mirzəyeva yorulmaz qələm sahibi olan yubilyarın həyat və yaradıcılığı barədə ətraflı məlumat verib. Qeyd edilib ki, Etibar Əliağa oğlu Əhədov 1948-ci ildə Vilvanda anadan olub. Bakı Dövlət Universitetinin jurnalistika fakültəsini və Mətbuat İşçiləri Ümumittifaq İxtisasartırma İnstitutunun jurnalistika sənətkarlığı şöbəsini bitirib. Orduda həqiqi hərbi xidmət keçəndən sonra Lənkəran radio verilişləri redaksiyasının redaktoru kimi çalışmağa başlayıb. Sonra rayonda çıxan "Leninçi" (indiki "Lənkəran") qəzetində məsul katib, redaktor müavini və redaktor olub. Peşəkar jurnalist bir ara "Lənkəranın səsi" qəzetini buraxıb, uzun illər Lənkəran Dövlət Universitetinin mətbuat və informasiya xidmətinə rəhbərlik edib. Hazırda "Aşkarlıq" qəzetinin təsisçisi və baş redaktoru kimi fəaliyyət göstərir. Müxtəlif şəxsiyyətlər və dövlət xadimləri haqqında, həmçinin tarixi-etnoqrafiya mövzusunda 60-a yaxın kitabın müəllifidir. Azərbaycan Jurnalistlər və Yazıçılar birliklərinin, Reklamçılar İttifaqının üzvü, "Qızıl qələm" media mükafatı laureatıdır.

Yubilyarın ömür yolunu əks etdirən videokadrlar göstərildi, həmçinin onun kitablarından ibarət sərgi nümayiş etdirildi.

Sonra Lənkəran Şəhər İcra Hakimiyyəti başçısının müavini – ictimai-siyasi və humanitar məsələlər şöbəsinin müdiri Ülviyyə Əliyeva yazıçının rayonun ictimai-siyasi həyatında fəal iştirakından söz açdı və yubilyara şəhər icra hakimiyyətinin fəxri fərmanını təqdim etdi. AYB Lənkəran Bölməsinin sədri, yazıçı Qafar Cəfərli, yazıçı-jurnalist Səyavuş Süleymanlı, "Azad Azərbaycan" qəzetinin redaktoru, Əməkdar incəsənət xadimi Ağalar İdrisoğlu, teleaparıcı Camal Mirzəyev, tədqiqatçı-tarixçi İldırım Şükürzadə, kəndin ziyalılarından Elçin Əhədov və başqaları yazıçıya ən xoş arzularını çatdırdılar.

Tədbir boyu məktəb şagirdlərinin ifasında yubilyara həsr olunmuş şeirlər səslənib, əsərləri əsasında hazırlanmış səhnəciklər, musiqi və rəqs nömrələri nümayiş etdirildi. Sonda yubilyar Etibar Əhədov çıxış edərək tədbirin iştirakçılarına minnətdarlığını çatdırıb.

*Ağaddin BABAYEV*
**Lənkəran**

## "İDEAL TM" QSC-nin 2022-ci il üçün maliyyə vəziyyəti haqqında hesabatı

*manatla*

| AKTİVLƏR | 31 dekabr 2022-ci il tarixə | 31 dekabr 2021-ci il tarixə |
|---|---|---|
| **Qısamüddətli aktivlər** | | |
| Mal-material ehtiyatları | 1,903,469 | 331,137 |
| Pul vəsaitləri və onların ekvivalentləri | 1,786,554 | 1,582,849 |
| Debitor borcları | 655,979 | 1,047,994 |
| Digər qısamüddətli aktivlər | 1,897,679 | 915,473 |
| **Cəmi qısamüddətli aktivlər** | **6,243,681** | **3,877,453** |
| **Uzunmüddətli aktivlər** | | |
| Əmlak, tikili və avadanlıqlar | 599,376 | 195,051 |
| **Cəmi uzunmüddətli aktivlər** | **599,376** | **195,051** |
| **Cəmi aktivlər** | **6,843,057** | **4,072,504** |
| **Kapital** | | |
| Nizamnamə kapitalı | 2,010 | 2,010 |
| Bölüşdürülməmiş mənfəət | 4,741,126 | 2,847,886 |
| **Cəmi kapital** | **4,743,136** | **2,849,896** |
| **Öhdəliklər** | | |
| **Qısamüddətli öhdəliklər** | | |
| Kreditor borcları | 124,583 | 356,582 |
| Alınmış avanslar | 1,929,854 | 308,045 |
| Vergi üzrə kreditor borcları | - | 225,830 |
| Digər qısamüddətli öhdəliklər | 45,484 | 332,151 |
| **Cəmi qısamüddətli öhdəliklər** | **2,099,921** | **1,222,608** |
| **Cəmi öhdəliklər** | **2,099,921** | **1,222,608** |
| **Cəmi kapital və öhdəliklər** | **6,843,057** | **4,072,504** |

### MƏCMU GƏLİRLƏR HAQQINDA HESABAT

| | | |
|---|---|---|
| Əsas əməliyyat gəlirləri | 22,497,078 | 20,859,564 |
| Maya dəyəri xərcləri | (14,740,216) | (15,445,998) |
| **Ümumi mənfəət** | **7,756,862** | **5,413,566** |
| İnzibati xərclər | (5,390,312) | (3,884,883) |
| **Əməliyyat mənfəəti** | **2,366,550** | **1,528,683** |
| Maliyyə xərcləri | - | (21,437) |
| **Vergitutmadan əvvəl mənfəət** | **2,366,550** | **1,507,246** |
| Mənfəət vergisi xərci | (473,310) | (301,449) |
| **Hesabat dövründə xalis mənfəət** | **1,893,240** | **1,205,797** |

### KAPİTALDA DƏYİŞİKLİKLƏR HAQQINDA HESABAT

| | Nizamnamə kapitalı | Bölüşdürülməmiş mənfəət | Cəmi kapital |
|---|---|---|---|
| **2020-ci il dekabrın 31-nə qalıq** | **10** | **2,242,089** | **2,242,099** |
| Nizamnamə kapitalında artım | 2,000 | - | 2,000 |
| 2021-ci il üzrə xalis mənfəət | - | 1,205,797 | 1,205,797 |
| Ödənilmiş dividend | - | (600,000) | (600,000) |
| **2021-ci il dekabrın 31-nə qalıq** | **2,010** | **2,847,886** | **2,849,896** |
| Nizamnamə kapitalında artım | - | - | - |
| 2022-ci il üzrə xalis mənfəət | - | 1,893,240 | 1,893,240 |
| Ödənilmiş dividend | - | - | - |
| **2022-ci il dekabrın 31-nə qalıq** | **2,010** | **4,741,126** | **4,743,136** |

### PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA HESABAT

| | 31 dekabr 2022-ci il tarixə | 31 dekabr 2021-ci il tarixə |
|---|---|---|
| **Əməliyyat fəaliyyətindən daxil olan pul vəsaitlərinin axını** | | |
| Vergidən əvvəlki mənfəət | 2,366,550 | 1,507,246 |
| *Qeyri-pul maddələrinə düzəlişlər:* | | |
| Əmlak, tikili və avadanlıqların köhnəlməsi | 104,823 | 43,670 |
| Hesablanmış kredit faizi | - | 21,437 |
| **Əməliyyat aktiv və passivlərində dəyişikliklərdən əvvəl əməliyyat fəaliyyətindən daxil olan pul vəsaitləri** | **2,471,373** | **1,572,353** |
| **Dövriyyə kapitalında dəyişikliklər** | | |
| Debitor borclarda xalis (artım)/azalma | 392,015 | (454,724) |
| Mal-material ehtiyatlarında xalis (artım)/azalma | (1,572,332) | (306,485) |
| Digər qısamüddətli aktivlərdə xalis (artım)/azalma | (982,206) | 326,167 |
| Kreditor borclarda xalis artım/(azalma) | (231,999) | 113,462 |
| Vergi üzrə kreditor borclarda xalis artım/(azalma) | (225,830) | (962,860) |
| Digər qısamüddətli öhdəliklərdə artım/(azalma) | (286,667) | 332,151 |
| Alınmış avanslarda xalis artım/(azalma) | 1,621,809 | (1,227,089) |
| **Dövriyyə kapitalında dəyişikliklər** | **1,186,163** | **(607,025)** |
| Ödənilmiş mənfəət vergisi | (473,310) | (301,449) |
| Ödənilmiş faizlər | - | (21,437) |
| **Əməliyyat fəaliyyətinə yönəlmiş xalis pul vəsaitləri** | **712,853** | **(929,911)** |
| **İnvestisiya fəaliyyətindən daxil olan pul vəsaitlərinin axını** | | |
| Əmlak, tikili və avadanlıqların alınması | (509,148) | (62,232) |
| **İnvestisiya fəaliyyətlərinə yönəlmiş xalis pul vəsaitləri** | **(509,148)** | **(62,232)** |
| **Maliyyələşdirmə fəaliyyətindən daxil olan pul vəsaitlərinin axını** | | |
| Nizamnamə kapitalının artımı | - | 2,000 |
| Dividend ödənişi | - | (600,000) |
| **Maliyyələşdirmə fəaliyyətindən daxil olan xalis pul vəsaitləri** | **-** | **(598,000)** |
| **Pul vəsaitləri və onların ekvivalentlərində xalis azalma** | **203,705** | **(1,590,143)** |
| **İlin əvvəlinə pul vəsaitləri və onların ekvivalentləri** | **1,582,849** | **3,172,992** |
| **İlin sonuna pul vəsaitləri və onların ekvivalentləri** | **1,786,554** | **1,582,849** |

## "HN Construction" QSC-nin 2022-ci il üçün maliyyə vəziyyəti haqqında hesabatı

*manatla*

| AKTİVLƏR | 31 dekabr 2022-ci il tarixə | 31 dekabr 2021-ci il tarixə |
|---|---|---|
| **Qısamüddətli aktivlər** | | |
| Mal-material ehtiyatları | 3,301,247 | 1,754,000 |
| Pul vəsaitləri və onların ekvivalentləri | 465,330 | 147,742 |
| Debitor borcları | 174,261 | 270,334 |
| Digər qısamüddətli aktivlər | 2,350,346 | 2,350,346 |
| **Cəmi qısamüddətli aktivlər** | **6,291,184** | **4,522,422** |
| **Uzunmüddətli aktivlər** | | |
| Əmlak, tikili və avadanlıqlar | 293,053 | 322,364 |
| **Cəmi uzunmüddətli aktivlər** | **293,053** | **322,364** |
| **Cəmi aktivlər** | **6,584,237** | **4,844,786** |
| **Kapital** | | |
| Nizamnamə kapitalı | 2,050 | 2,050 |
| Bölüşdürülməmiş mənfəət | 4,132,987 | 3,133,421 |
| **Cəmi kapital** | **4,135,037** | **3,135,471** |
| **Öhdəliklər** | | |
| **Qısamüddətli öhdəliklər** | | |
| Kreditor borcları | 237,385 | 543,716 |
| Alınmış avanslar | 2,211,815 | 850,211 |
| Vergi üzrə kreditor borcları | - | 315,388 |
| **Cəmi qısamüddətli öhdəliklər** | **2,449,200** | **1,709,315** |
| **Cəmi öhdəliklər** | **2,449,200** | **1,709,315** |
| **Cəmi kapital və öhdəliklər** | **6,584,237** | **4,844,786** |

### MƏCMU GƏLİRLƏR HAQQINDA HESABAT

| | | |
|---|---|---|
| Əsas əməliyyat gəlirləri | 13,774,112 | 22,604,828 |
| Maya dəyəri xərcləri | (8,898,149) | (15,024,806) |
| **Ümumi mənfəət** | **4,875,963** | **7,580,022** |
| İnzibati xərclər | (3,626,505) | (4,322,260) |
| **Əməliyyat mənfəəti** | **1,249,458** | **3,257,762** |
| Maliyyə xərcləri | - | (47,614) |
| **Vergitutmadan əvvəl mənfəət** | **1,249,458** | **3,210,148** |
| Mənfəət vergisi xərci | (249,892) | (643,391) |
| **Hesabat dövründə xalis mənfəət** | **999,566** | **2,566,757** |

### KAPİTALDA DƏYİŞİKLİKLƏR HAQQINDA HESABAT

| | Nizamnamə kapitalı | Bölüşdürülməmiş mənfəət | Cəmi kapital |
|---|---|---|---|
| **2020-ci il dekabrın 31-nə qalıq** | **50** | **1,422,220** | **1,422,270** |
| Nizamnamə kapitalında artım | 2,000 | - | 2,000 |
| 2021-ci il üzrə xalis mənfəət | - | 2,566,757 | 2,566,757 |
| Ödənilmiş dividend | - | (855,556) | (855,556) |
| **2021-ci il dekabrın 31-nə qalıq** | **2,050** | **3,133,421** | **3,135,471** |
| Nizamnamə kapitalında artım | - | - | - |
| 2022-ci il üzrə xalis mənfəət | - | 999,566 | 999,566 |
| Ödənilmiş dividend | - | - | - |
| **2022-ci il dekabrın 31-nə qalıq** | **2,050** | **4,132,987** | **4,135,037** |

### PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA HESABAT

| | 31 dekabr 2022-ci il tarixə | 31 dekabr 2021-ci il tarixə |
|---|---|---|
| **Əməliyyat fəaliyyətindən daxil olan pul vəsaitlərinin axını** | | |
| Vergidən əvvəlki mənfəət | 1,249,458 | 3,210,148 |
| *Qeyri-pul maddələrinə düzəlişlər:* | | |
| Əmlak, tikili və avadanlıqların köhnəlməsi | 72,573 | 58,888 |
| Hesablanmış kredit faizi | - | 47,614 |
| **Əməliyyat aktiv və passivlərində dəyişikliklərdən əvvəl əməliyyat fəaliyyətindən daxil olan pul vəsaitləri** | **1,322,031** | **3,316,650** |
| **Dövriyyə kapitalında dəyişikliklər** | | |
| Debitor borclarda xalis (artım)/azalma | 96,073 | 465,771 |
| Mal-material ehtiyatlarında xalis (artım)/azalma | (1,547,247) | 1,497,519 |
| Digər qısamüddətli aktivlərdə xalis (artım)/azalma | - | (338,880) |
| Kreditor borclarda xalis artım/(azalma) | (306,331) | (58,164) |
| Vergi üzrə kreditor borclarda xalis artım/(azalma) | (315,388) | 53,974 |
| Alınmış avanslarda xalis artım/(azalma) | 1,361,604 | (3,768,604) |
| **Dövriyyə kapitalında dəyişikliklər** | **610,742** | **1,168,266** |
| Ödənilmiş mənfəət vergisi | (249,892) | (643,391) |
| Ödənilmiş faizlər | - | (47,614) |
| **Əməliyyat fəaliyyətinə yönəlmiş xalis pul vəsaitləri** | **360,850** | **477,261** |
| **İnvestisiya fəaliyyətindən daxil olan pul vəsaitlərinin axını** | | |
| Əmlak, tikili və avadanlıqların alınması | (43,262) | (118,150) |
| **İnvestisiya fəaliyyətlərinə yönəlmiş xalis pul vəsaitləri** | **(43,262)** | **(118,150)** |
| **Maliyyələşdirmə fəaliyyətindən daxil olan pul vəsaitlərinin axını** | | |
| Nizamnamə kapitalının artımı | - | 2,000 |
| Dividend ödənişi | - | (855,556) |
| **Maliyyələşdirmə fəaliyyətindən daxil olan xalis pul vəsaitləri** | **-** | **(853,556)** |
| **Pul vəsaitləri və onların ekvivalentlərində xalis azalma** | **317,588** | **(494,445)** |
| **İlin əvvəlinə pul vəsaitləri və onların ekvivalentləri** | **147,742** | **642,187** |
| **İlin sonuna pul vəsaitləri və onların ekvivalentləri** | **465,330** | **147,742** |

# Sərbəst güləşçilərin "Paris-2024" iddiaları

## Baş məşqçi daha çox medal gözləyir

**Başa çatmaqda olan 2023-cü il bir sıra parametrlər üzrə, o cümlədən növbəti Yay Olimpiya Oyunlarına hazırlıq baxımından həlledici il kimi mühüm əhəmiyyət kəsb edir. Olimpiya Oyunlarında əsas medal ümidlərimizdən olan sərbəst güləşçilər bu il dörd illiyin baş yarışına vəsiqə əldə etmək üçün bütün gücləri ilə meydanda mübarizə aparıblar.**

Onlardan yalnız birinin – Maqomedxan Maqomedovun Olimpiadada iştirakı rəsmiləşib. İdmançımız vəsiqəni Serbiyanın paytaxtı Belqradda keçirilən dünya çempionatında 97 kiloqram çəki dərəcəsində finala yüksəlməklə qazanıb.

Milli güləşimizə çox bənzəyən bu idman növünün sərbəst üsulunda təmsilçilərimizin əldə etdikləri nailiyyətlərə nəzər salsaq, onun ənənələrinin ölkəmizdə nə qədər zəngin olduğunu görərik. Təsadüfi deyil ki, Azərbaycan idmanının ilk Olimpiya medalı ("Helsinki-1952", Rəşid Məmmədbəyov (57 kq, gümüş) güləşin məhz bu növü üzrə qazanılıb. Daha bir sərbəst güləşçi Aydın İbrahimov (57 kq) "Tokio-1964"də bürünc medal qazanıb.

Müstəqillik illərinin ilk 2 medalı da sərbəst güləşin payına düşüb. İstedadlı güləşçimiz Namiq Abdullayev (42 kq) Atlanta Olimpiadasında gümüş, Sidney Yay Olimpiya Oyunlarında isə qızıl medala sahib olub. Müstəqillik illərində sərbəst güləş üzrə ən yaxşı nəticələr "London-2012" (3 medal) və Rio Olimpiadasında (5 medal) əldə edilib. London Oyunlarında Azərbaycan komandasının aktivinə 2 qızıl medalın 2-sini də məhz sərbəst güləşçilər yazdırıblar. Əvvəlki iki Olimpiadadan fərqli, "Tokio-2020"də isə cəmi 1 idmançımız (Hacı Əliyev, 65 kq, II yer) mükafatçılar sırasında yer ala bilib.

Bəs güləşçilərimizin növbəti Olimpiya Oyunlarında iştirak şansları necə qiymətləndirilir? Ümumiyyətlə, bu ili sərbəst güləşçilərimiz üçün uğurlu hesab etmək olarmı?

**Bu suallara Azərbaycanın sərbəst güləş üzrə yığma komandasının baş məşqçisi Xetaq Qazyumov belə cavab verdi:**

–Əminliklə deyə bilərəm ki, seçmə turnirdə komandamızdan olan hər bir iştirakçının potensial olaraq lisenziya qazanmaq şansı var. Gələn il Olimpiya Oyunları üçün ilk Avropa təsnifat turniri Azərbaycanda keçiriləcək. İkinci dünya təsnifat turniri Türkiyədə olacaq. İlk turnir Bakıda keçirildiyi üçün yarışa daha məsuliyyətlə hazırlaşacağıq. Təbii ki, maksimum sayda lisenziya qazanmağa çalışacağıq. Düşünürəm ki, lisenziyaların sayı ilə bağlı proqnoz vermək peşəkarlıqdan kənardır.

Azərbaycan Güləş Federasiyasının, məşqçi heyətinin və idmançıların üzərinə böyük məsuliyyət düşür və biz bunu yaxşı dərk edirik. Parisdə keçiriləcək Yay Olimpiya Oyunlarında ölkəmizi layiqincə təmsil etmək üçün əlimizdən gələni etməyə çalışacağıq.

**Xetaq Qazyumov Azərbaycan milli komandasının builki nəticələrindən də danışdı:**

–Bu ilin birinci yarısı çox uğurlu alındı. Kişilərdən ibarət komandamız Avropa çempionatının qalibi olub. Həmçinin, U-15 və U-17, eləcə də, U-23 komandaları yüksək nəticələr qazanıblar.

Baş məşqçi Azərbaycan Güləş Federasiyasının yeni ildə ən istedadlı gənclər üçün internat məktəbi açmağı planlaşdırdığını bildirdi. O qeyd etdi ki, bütün yaş qrupları üzrə monitorinq və təsnifat yarışları keçiriləcək ki, bununla da istedadlı güləşçilər müəyyənləşdiriləcək.



**Ötən Yay Olimpiya Oyunlarında sərbəst güləş üzrə yeganə mükafatçımız, üçqat dünya, dördqat Avropa çempionu Hacı Əliyev karyerasında son Olimpiadaya hazırlaşır:**

– Paris Olimpiadasına lisenziya əldə etmək üçün bütün gücümüzlə hazırlaşırıq. Olimpiya Oyunlarının qalibi adını qazanmaq ən böyük arzumdur.

Bu il Avropa çempionatının qalibi olmuş Əliabbas Rzazadə (57 kq), qitə çempionatının ikiqat mükafatçısı Turan Bayramov (74 kq) və digər istedadlı güləşçilərimizdən də gözləntilər böyükdür.

***Leyla QURBANOVA***
***XQ***

# G7-dən Ukraynaya növbəti dəstək




**Yeddilik Qrupu (G7) ölkələrinin nümayəndələri Rusiyanın Ukraynaya hərbi hücumundan sonra dondurulan aktivlərinin bir hissəsinin müsadirəsi ilə bağlı danışıqları aktivləşdiriblər.**

Bu barədə Böyük Britaniyanın "Financial Times" qəzeti yazıb. Nəşrin məlumatına görə, buna Avropa İttifaqının Ukraynaya dördillik dəstək proqramı çərçivəsində 50 milyard avro ayırması məsələsinin hələ də həll olmaması, ABŞ Konqresinin isə Kiyevə 61 milyard dollarlıq yardım paketini təsdiq etməməsi səbəb ola bilər. Bu halda Rusiyanın dondurulan aktivlərinin bir hissəsinin Ukraynaya yönəldilməsi alternativ maliyyə mənbəyinə çevrilir.

Bir müddət öncə Böyük Britaniyanın xarici işlər naziri Devid Kemeron ölkə parlamentində çıxışı zamanı Rusiyaya məxsus aktivlərin müsadirə edilməsi və onların Ukraynaya yönəldilməsi üçün qanuni yolunun mövcudluğuna əmin olduğunu bildirib.

***XQ***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 276 (30392) 17 dekabr 2023-cü il, bazar

# OXUCULARIN NƏZƏRİNƏ!

## “Xalq qəzeti”

## *2024-cü il üçün abunə yazılışı kampaniyasını davam etdirir!*

Abunə respublikanın bütün poçt şöbələri və mətbuat yayımı ilə məşğul olan firmalar tərəfindən aparılır.

Qəzetə abunə yazılmaq üçün aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət etmək olar.

1. “Azərmətbuatyayımı” ASC (012)-440-16-26.
2. “Azərpoçt” MMC (012)-598-49-55, (051)-225-02-13.
3. “Qaya” firması (012)-566-77-80, (050)-214-40-53.
4. “SƏMA-M” MMC (012)-594-02-52, (050)-333-69-69.
5. “ZİYA” LTD (012)-497-76-96, (050)-306-77-44.
6. “PRESSİNFORM” MMC (012)-598-49-52, (050)-456-08-35.




1 illik – 187.20 (yüz səksən yeddi manat iyirmi qəpik) manat.
6 aylıq – 93.60 (doxsan üç manat altmış qəpik) manat.
3 aylıq – 46.80 (qırx altı manat iyirmi qəpik) manat.

**Hörmətli abunəçilər!**
***Abunə yazılışı ilə əlaqədar hər hansı bir problemlə rastlaşsanız, (012)-498-85-29 nömrəli telefonla əlaqə saxlaya bilərsiniz.***

**Hörmətli oxucular!**
**ABUNƏ YAZILMAĞA TƏLƏSİN!**

## MAQAZİN

# Colinin Pittə 8 milyon dollar borcu var



**Dünya ulduzları Bred Pitt və Ancelina Colinin boşanması Hollivud tarixinə ən səs-küylü hadisələrdən biri kimi daxil olub. Boşanma rəsmi olaraq bu ilin avqustunda başa çatsa da, “cənab və xanım Smit”in münasibətləri ilə bağlı faktlar və xoşagəlməz detallar ortaya çıxmaqda davam edir.**

Məlumata görə, ev almaq üçün Coli keçmiş həyat yoldaşından 8 milyon dollar borc alıb və indiyə qədər onu qaytara bilməyib. Pitt isə borcun ödənilməsini tələb edir. Ancelina pulu övladlarına xərclədiyini iddia edir və qətiyyən qaytarmaq istəmir.

***XQ***

## İdman xəbərləri

# Gimnastlarımızın qızıl və gümüş medalları

**Batut gimnastikası üzrə komandamız Özbəkistanın paytaxtı Daşkənddə keçirilən beynəlxalq turnirdə uğurla çıxış ediblər.**




Təmsilçilərimiz Ayan Şabanova və Samirə Hüseynova sinxron proqramda qızıl medala sahib olublar. Fərhad Mustafayev və Ömər Qasımlı isə gümüş medal qazanıblar.

# Taekvondo hakimlərinin Azərbaycan təlimi



**Azərbaycan Taekvondo Federasiyasının (ATF) təşkilatçılığı ilə beynəlxalq və milli hakimlərin təkmilləşdirilmə kursu, yeni hakimlər üçün respublika seminarı başlayıb.**

Tədbirə 50 nəfər qatılıb. Seminar ATF-nin baş hakimi, beynəlxalq dərəcəli referi Gündüz Abdullayev tərəfindən keçirilir. Ölkə çempionatı və birinciliklərinə seçim xarakteri daşıyan tədbir dekabrın 17-də başa çatacaq.

# 2024-cü ildə FİFA referilərimiz

**Beynəlxalq oyunlarda Azərbaycanı növbəti ildə təmsil edəcək FIFA referilərinin adları müəyyənləşib.**

Futbol üzrə referilər Əliyar Ağayev, Elçin Məsiyev, Kamal Umudlu, Fəridə Lütfəliyeva, köməkçiləri isə Zeynal Zeynalov, Akif Əmirəli, Elşad Abdullayev, Pərvin Talıbov, Namiq Hüseynov, Vüsal Məmmədov, Gülnurə Əkbərzadə, Sevda Nurıyevadır. VAR hakimləri Əliyar Ağayev, Elçin Məsiyev olacaq.

Siyahıda futzal üzrə Hikmət Qafarlı, Knyaz Əmiraslanov, Əli Cəbrayılov, çimərlik futbolu üzrə isə İnqilab Məmmədov, Nail Nağıyevin adları yer alıb.

# Azərbaycan Kubokuna start verilib

**Şüvəlan qəsəbəsindəki Ağır Atletika Mərkəzinin yarış zalında ağırlıqqaldırma üzrə Azərbaycan Kubokunun açılış mərasimi keçirilib.**



Açılış mərasimində çıxış edən Azərbaycan Ağırlıqqaldırma Federasiyasının vitse-prezidenti Firdovsi Umudov yarış iştirakçılarına uğurlar arzulayıb.

Azərbaycan Kubokuna bu gün yekun vurulacaq. Yarışda şəhər və rayonların, idman cəmiyyətlərinin, idman klublarının, idman mərkəzlərinin hazırkı əsasnamə üzrə təyin olunmuş dərəcə normalarını yerinə yetirən və tibbi müayinədən keçən yüzdən çox atlet qüvvəsini sınayır.

Turnir, həmçinin “Paris-2024” Yay Olimpiya Oyunlarına təsnifat xarakteri daşıyan Avropa çempionatında iştirak edəcək heyətin tərkibinin müəyyənləşdirilməsi xarakteri daşıyır.

***Leyla SABİRQIZI***
***XQ***

## Sosial şəbəkələrdən seçmələr

# Balaqusar məktəbi şəhid oğlunu unutmur



**Dünən “Facebook”da dostluğumda olan qusarlı ziyalı Babacan Zəkiyev paylaşımı diqqətimi cəlb etdi. Orada yazılır: “Sabah (bu gün) Balaqusar kənd tam orta məktəbinin adını daşıyan Birinci Qarabağ müharibəsi şəhidi Sərvər Zeynəddin oğlu Abdulkərimovun 60 illik yubileyidir. Bununla əlaqədar bu gün məktəbimizdə kollektivimizin və şəhidimizin övladları Fərux Abdulkərimov və Ruqiyyə Hüseynovanın iştirakı ilə anım tədbiri keçirildi.**

Müəllimlər şəhidin şərəfli döyüş yolundan söz açdılar, şagirdlər Vətənə, torpağa sədaqət ruhunda şeirlər söylədilər. Tədbirdə həzin vətənpərvərlik ruhlu musiqilər də səsləndirildi. Tədbir iştirakçıları sonda şəhidin məzarını ziyarət edərək üzərinə tər qərənfillər düzdülər. Sərvər Abdulkərimova və onun timsalında bütün şəhidlərimizə Allah rəhmət eləsin!”

**P.S.** Düşünürük ki, sosial şəbəkələrdə şəhidlərimizlə bağlı keçirilən tədbirlərlə əlaqədar belə xəbər və reportajların yayımlanması təqdirəlayiq haldır. Bu mənada qusarlı pedaqoq B.Zəkiyevin bu sahədəki əməyini yalnız alqışlamaq olar.

***Təqdim etdi:***
***M.HACIXANLI***
***XQ***

## KOSMOS

# “Kiçik Magellan”ın “ikiüzlülüyü”

**Astronomlar Südyolu qalaktikasının peyklərindən biri olan Kiçik Magellan buludunun çox fərqli kimyəvi tərkibə, bir sıra yeni və qədim ulduzlara malik 2 ayrı quruluşdan ibarət olduğunu aşkar ediblər.**



Bu barədə “arXiv.org” elektron kitabxanasında dərc olunan məqalədə bildirilib. Tədqiqatçılar qeyd ediblər ki, bu hissələr vaxtilə toqquşmuş iki qədim qalaktikanın qalıqları ola bilər.

“Bu bölgələrin mövcudluğunu qədim qalaktikaların qalıqlarının olması ilə izah etmək olar. Bu bölgələrin ulduzlarında ağır elementlərin konsentrasiyasındakı fərqlər, həmçinin molekulyar buludların tərkibi və quruluşundakı xüsusiyyətlər də bunu sübuta yetirir. Üstəlik, biz Kiçik Magellan buludunun Böyük Magellan buludu ilə cazibə qüvvəsinin təsirindən qarşılıqlı təması nəticəsində ikiyə bölünə biləcəyini də istisna etmirik” - deyə tədqiqatçılar bildiriblər.

Astronomlar bu nəticəyə Kil rəsədxanasının direktoru Yakobus van Lonun rəhbərliyi altında dünyanın ən böyük SKA radio teleskopunun prototipi olan Avstraliyaya məxsus “GASKAP-Hi” radio teleskopundan istifadə etməklə toplanan məlumatların araşdırılması zamanı gəliblər. Bu cihaz yeni ulduzların meydana gəldiyi neytral hidrogen buludlardır.

***XQ***

## Sağlamlıq

# Şərq uzunömürlüdür, yoxsa Qərb?

**Evlilik ömrü uzada bilər, lakin bəzən həyat yoldaşlarının sağlamlığına mənfi təsir göstərir. Araşdırmalara görə, orta yaşlı və daha yaşlı insanlar yüksək qan təzyiqi riski altında ola bilər.**

Bir çox yaşlı cütlüklər arasında həm ər, həm də arvadın yüksək qan təzyiqi olduğu məlum olub. Ər və arvad təzyiqi arasındakı əlaqəni müəyyən etmək üçün tədqiqatçılar ABŞ-da 3 min 989, Böyük Britaniyada 1086, Çində 6 min 514 və Hindistanda 22 min 389 cütlükdə qan təzyiqinin səviyyəsini təhlil ediblər.

İngiltərədə evli kişilərin orta yaşı 74, ABŞ-da 65, Çində 61 və Hindistanda 57-dir. Uyğun olaraq qadınlar üçün bu rəqəm İngiltərədə 72, ABŞ-da 62, Çində 59, Hindistanda 51-dir. Tədqiqat göstərir ki, ümumi qan təzyiqi səviyyələri Qərbdə daha yüksəkdir.



***XQ***

## Hava

# Yağış da yağacaq, külək də əsəcək



**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin məlumatına əsasən dekabrın 17-də Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı gözlənilir.**

Səhərdən başlayaraq bəzi yerlərdə arabir yağıntılı olacağı, gecəyə doğru isə bəzi şəhərətrafı ərazilərdə yağışın sulu qarla qarışıq yağması ehtimalı var. Gecə və səhər bəzi yerlərdə duman olacaq. Mülayim şimal-qərb küləyi əsəcək, gündüz arabir güclü olacaq. Gecə 4-6°, gündüz 6-9° isti olacaq.Atmosfer təzyiqi 764 mm civə sütunundan 769 mm civə sütununa yüksələcək, nisbi rütubət 80-85 faiz olacaq. Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcək. Lakin gündüz şimal və qərb rayonlarından başlayaraq arabir yağıntılı olacağı, dağlıq və dağətəyi rayonlarda qar yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı ehtimalı var. Bəzi rayonlarda arabir duman olacaq. Qərb küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 2-6°, gündüz 7-12° isti, dağlarda gecə 3° şaxtadan 2°-dək isti, gündüz 2-7° isti olacaq.

***Q.QASIMOV***
***XQ***

# “Instagram”da yeni fon funksiyası

**“Meta” şirkətinə məxsus “Instagram” sosial media platforması bu yaxınlarda istifadəçilərin tələbləri əsasında süni intellektə əsaslanan funksiyalarla təchiz olunmağa başlayıb.**

“Instagram”a əlavə olunan yeni funksiya sayəsində istifadəçilər çəkdikləri şəklin fonunu istədikləri kimi dəyişə biləcəklər. Bu funksiya süni intellektin köməyi ilə yaradılıb.

Qeyd edək ki, “Instagram” hekayələri üçün foto fon dəyişdirmə funksiyası hazırda yalnız ABŞ-da mövcuddur. Tezliklə digər ölkələr üçün də istifadəyə veriləcəyi gözlənilir. Bunun üçün dəqiq tarix paylaşılmayıb, lakin proqnozlar gələcək həftələrə işarə edir.

***XQ***

# Messi: 6 köynək 7 milyon avro...

**Argentina yığmasının kapitanı Lionel Messinin 2022-ci ildə Qətərdə keçirilən dünya çempionatında geyindiyi 6 forma Nyu-Yorkdakı “Sotheby's” hərracında ümumilikdə 7 milyon avroya satılıb.**

Bu, 2023-cü ildə auksionda satılan ən qiymətli idman xatirə əşyaları üçün rekorddur. Bununla belə, “Sotheby's” tarixində idman əşyaları arasında ən yüksək qiyməti 2022-ci ildə 9,1 milyon avroya satılan 1998 NBA finalında Maykl Cordanın köynəyini alıb.

***XQ***



BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
*Şəhadətnamə 022273*

İNDEKS 0282
TİRAJ 4732
SİFARİŞ 3277
QİYMƏTİ 40 qəpik

Növbətçi redaktor
Səbuhi MƏMMƏDOV

Çapa imzalanmışdır
00:00